RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 18 (8611) ÇƏRŞƏNBƏ, 27 yanvar 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan ən müasir texnologiyalar sahəsində də lider mövqedədir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Rəşad Nəbiyevi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı qəbulda çıxış edib.**

Bax: səh. 2



# Hökumət bu il görüləcək işləri və hədəfləri dəqiqləşdirdi

2021-ci ildə görüləcək işlər çoxdur. Bunlar Prezidentimizin vurğuladığı kimi, həm ənənəvi, yəni dövlət investisiya proqramında təsbit olunmuş, həm də azad edilmiş ərazilərdə görüləcək işlərdir. Bununla belə əsas diqqət azad edilmiş torpaqlara yönəldilir və bu sahədə ilkin infrastruktur layihələrinin icrasına artıq başlanıb.

## Prezident İlham ƏLİYEV: "Məhz 2021-ci ildə Azərbaycan xalqı və bütün dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır"

Nazirlər Kabinetinin Baş nazir Əli Əsədovun sədrliyi ilə keçirilən müşavirəsində də 2021-ci ildə görüləcək əsas işlər, qarşıya qoyulan başlıca vəzifələr barədə söhbət getmişdir. Belə ki, Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə dövlət başçısı tərəfindən verilən tapşırıqların icrası və qarşıda duran hədəflərə nail olunması əsas fəaliyyət proqramıdır. Nazirlər Kabinetinin müşavirəsində də məhz Prezidentin tapşırıqları əsasında növbəti il üçün müəyyənləşdirilmiş prioritetlər səsləndirilmişdir.

Ardı 3-cü səh.

# Prezident İlham Əliyev Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi Jan Batist Lömuanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlət katibi Jan Batist Lömuan dörd il əvvəl Azərbaycana səfərini və Bakıda Fransız-Azərbaycan Universiteti - UFAZ-ın yeni tədris binasının açılışında iştirakını məmnunluqla xatırladı.

Söhbət zamanı regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı, Azərbaycan-Fransa əlaqələrinin gündəliyinə toxunuldu.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

# Azadlıqdan dirçəlişə

Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri olan Şah İsmayıl Xətainin 1501-ci ilin payızında Təbrizə daxil olmasını salnaməçilər ruhun bədənlə qovuşması kimi təsvir edirlər.

44 günlük Vətən müharibəsindəki Zəfərdən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Şuşaya səfəri ilə bağlı videogörüntüləri izləyəndə ilk yadıma düşən salnaməçilərin həmin bənzətməsi oldu.

Müstəqillik tariximizdə ilk dəfə Azərbaycan Respublikasının Prezidenti müqəddəs şəhərimiz Şuşaya daxil oldu. İllərin həsrəti, intizarı bitdi! On illərin əziyyəti, məşəqqəti bitdi!

## Ruhumuzun şəhəri

Vətənimizin bütün yaşayış yerləri, şəhər və kəndlərinin hər qarış torpağı bizim üçün doğmadır. Hər birinin qəlbimizdə özünəməxsus yeri var. Şuşa isə ruhumuzun şəhəridir. Böyük Tanrının sehirli fırçası ilə çəkilmiş gözəllər gözəli Şuşanın düşüncələrimizdə yeri bir başqadır. Bunun səbəbi, yəqin ki, Şuşanın unikal təbiəti, külli-Qarabağın göz işlədikcə canlanan əsrarəngiz mənzərəsi, tarixi hekayəsi, dumandan başına örtdüyü ağ kəlağayının Azərbaycanın qeyrət rəmzinə çevrilməsidir.

Şuşa qədim mədəniyyət mərkəzlərimizdəndir. Bu şəhər ictimai fikir tariximizin inkişafında mühüm rol oynayıb, Azərbaycana və dünyaya görkəmli şəxsiyyətlər bəxş edib. Şuşa Qafqazın konservatoriyasıdır, həm də səsimizin çağlayan bulağıdır. "Qarabağ bülbülləri"nin ana Vətənidir.

Bu şəhər haqqında düşünəndə istər-istəməz adamın qəlbini mübhəm hisslər bürüyür. Ruhunun göylərə ucalmış qayalarının zirvəsində qartal kimi qanad açıb uçduğunu, nur içində uyuduğunu, saf havasının ciyərlərə həzin-həzin dolduğunu hiss edirsən. Bütün bunlar Şuşanı qəlbimizdə özü kimi ucalara yüksəldib, təsəvvürlərdə əfsanəvi nağıla çevirib.

Şuşa bizə həmişə yenilməzlik nişanəsi, milli ruhumuzun etibarlı sığınacağı kimi görünüb. Ermənistanın Azərbaycana qarşı işğalçı hücumları güclənəndə çoxumuza elə gəlirdi ki, düşmən heç zaman Şuşanı ala bilməyəcək. Çünki xəyallarımızda bu şəhər sıldırımlı qayalarla əhatə olunmuş təbii istehkamları ilə alınmaz qala timsalında idi. Əsrlər əvvəl Ağa Məhəmməd Şah Qacar kimi əzəmətli hökmdar, güclü sərkərdə belə Şuşanı ala bilməmişdi. Köhnə şuşalıların dili ilə desək, Şuşada "baş qoyub" getmişdi.

Ona görə də 1992-ci ilin 8 mayında xəyanət nəticəsində Şuşanın düşmənə təslim edilməsi həyatımızın ən böyük faciəsi oldu.

Ardı 6-cı səh.

◆ Qarabağ dirçəliş yolundadır

# Ağdamlılar Böyük Qayıdışa hazırdırlar



- Əmi, gedirik ey, biz də gedirik...
- Hara gedirsiz?
- Kəndimizə...
- Çoxmu sevinirsən?
- Lap çox, lap çox...
- Birinci dəfədi gedirsən?
- Bəli, əmi, görməmişəm axı kəndimizi. Evimizdəki alboma baxanda atamın, anamın şəkillərində görmüşəm. Babam deyir ki, ora elə qəşəngdi, elə gözəldi ki...
- İnşallah, tezliklə gedib görərsiz.
- Hə, bacım da, mən də çox istəyirik. Amma deyirlər ki, ermənilər oraları dağıdıblar. Eybi yox, atam deyir ki, bizə yeni ev tikəcəklər, təzə məktəbimiz olacaqdır.
- Bəli, hər şeyiniz olacaq, özü də əvvəlkindən də yaxşı...
- Əmi, gəlin evimizə gedək, atam da, bacım da çox sevinir, onları da çəkin...

Gözləri elə gülür ki, sanki heç vaxt belə sevinc hissi yaşamayıb bu qızcığaz. Elə adı da Sevincdir, 8 yaşı var. Ağdamın Salahlı-Kəngərli kəndindəndirlər, Bərdədə məcburi köçkünlər üçün salınmış qəsəbədə müvəqqəti məskunlaşıblar. Xahişini nəzərə alıb evlərinə yollanırıq...

Əslində balaca Sevincin keçirdiyi hissləri bu gün bütün ağdamlılar yaşayır. Ağdamı, dədə-baba yurdunu heç vaxt görməyən Sevinc kimi minlərlə uşaq var. Amma indi təkcə uşaqlar deyil, elə böyüklər də sevinc içindədirlər.

## "Ali Baş Komandanımıza nə qədər alqış eləsək, yenə də azdır"

Hümbətovlar ailəsinin qonağıyıq. Ailənin başçısı Əmir Hümbətov 1967-ci ildə Salahlı-Kəngərli kəndində anadan olub. Atası, anası Ağdam nisgili, yurd həsrəti çəkə-çəkə haqq dünyasına qovuşublar. Bu xoş günü yaşamaq onlara qismət olmadı, amma övladlarına, nəvələrinə nəsib olub. Ruhları sevinir indi...

Bir oğul, iki qız atası olan Əmir Hümbətov deyir ki, Sevinc müharibə başa çatandan bugünə kimi onu sorğu-suala tutur. Qızı bütün əşyalarını toplayıb Ağdama qayıdacaqları günü gözləyir: "Hər gün soruşur ki, ata, bəs nə zaman gedirik? Axı Qarabağı almışıq, niyə burda qalırıq, kəndimizə gedək də... Deyirəm ki, biz az da döz, yaxın zamanlarda gedəcəyik.

Allah Prezident İlham Əliyevə ömür versin. Bizə bu günləri görməyi nəsib etdi. Nisgil dolu günlərimizə son qoydu. Ağdamı, yurdumuzu qaytaran Ali Baş Komandanımıza nə qədər alqış etsək, yenə də azdır. Həm İlham Əliyev, həm də xanımı Mehriban Əliyeva hər zaman bizim ən böyük himayədarımız olublar. Allah onları var etsin.

Müharibə başlayanda bütün dünya Azərbaycanın qüdrətini gördü. Azərbaycan Ordusu illərdən bəri işğalda olan torpaqlarımızı azad etdi. Bu gün təkcə məcburi köçkünlər yox, bütün xalqımız sevinc içindədir. Şəhidlərimizin qisası alınıb.

Ardı 9-cu səh.

# Biz Qarabağı yenidən qurub əvvəlkindən də abad edəcəyik

## Bunun üçün dövlətimizin maddi imkanı və xalqımızın mənəvi gücü yetərincədir

Prezident İlham Əliyevin yanvarın 14-də işğaldan azad edilmiş ərazilərə növbəti səfəri zamanı verdiyi bəyanatların iqtisadi-siyasi və hərbi əhəmiyyəti günü bu günəcən şərh olunur. Xüsusilə yeni obyektlərin təməlinin qoyulması beynəlxalq aləmə ciddi mesaj kimi qəbul edilir.

Bildirilir ki, Prezident bununla bütün dünyaya bəyan edir ki, bu torpaq bizimdir, ona görə də düşməndən fərqli olaraq onu dağıdaraq viran qoymuruq, əksinə, yenidən qururuq və cənnətə çevirəcəyik. İnsan heç vaxt özünə məxsus olanı dağıtmaz, deməli, bu ərazilər ermənilərə deyil, bizə məxsusdur.

Ardı 9-cu səh.

Ötən il martın 11-də Ümumdünya Səhiyyə Təşkilatının pandemiya elan etdiyi koronavirus hələ də bəşəriyyətin dəhşətli kabusudur. Tarixdən də məlumdur ki, müxtəlif vaxtlarda belə, hətta bundan da dəhşətli bəlalar Yer üzünü dolaşıb. Hər zaman da insan iradəsi, çalışmaları, cəhdləri qarşısında geri çəkilməli olub. Ancaq təəssüf ki, qlobal pandemiyalar çox insanın həyatına son qoyub. Koronavirus da can almaqda davam edir.




**COVID-19 qurbanlarının sayı 2 milyonu ötüb**

Ümumdünya Səhiyyə Təşkilatının açıqladığı statistika COVID-19-un yayılmaqda davam etdiyini göstərir. Belə ki, koronavirus infeksiyasına yoluxma halları sürətlə geniş miqyasda artmaqdadır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, dünyada COVID-19-a yoluxma hallarının ümumi sayı 96 milyonu, ölüm hallarının sayı 2 milyonu ötüb.

Azərbaycanda 229358 nəfər koronavirusa yoluxub. Bu təhlükəli virus səbəbindən 3100 nəfər həyatını itirib. Yoluxanlardan 221116 nəfəri sağalıb. Aktiv xəstə sayı 5142 nəfərdir. Koronavirusa yoluxma və ölüm sayında müşahidə olunan azalmalar ümidvericidir. Sevindiricidir ki, ölkəmizdə koronavirusla bağlı müsbət tendensiya əldə olunub. Karantin rejiminin, sosial məsafənin qorunmasının və maska taxmaq zərurətinin virusun yayılma sürətini azaltdığını söyləmək olar.

Ardı 10-cu səh.

# Ermənistanın bütün problemləri yürütdüyü işğal siyasətinin məntiqi yekunudur

Müharibədəki məğlubiyyətdən sonra sosial-iqtisadi problemləri daha da artan Ermənistanın bu tənəzzüldən xilası mümkün görünmür. Çünki ölkədə elə bir vəziyyət yaranıb ki, hakimiyyətin istənilən islahat planı dərhal iflasa uğrayır. Ermənistanın ən böyük problemlərindən biri isə korrupsiyanın baş alıb getməsidir.

Hakimiyyətə gələrkən korrupsiyaya qarşı müharibə elan edən baş nazir Nikol Paşinyan əslində öz fəaliyyəti ilə onun daha da çiçəklənməsinə rəvac verdi. Ona görə Ermənistan mətbuatı yazır ki, korrupsiyanın baş alıb getməsinə və daha da dərinləşməsinə səbəb Nikol Paşinyan hakimiyyətinin siyasətidir.

Ermənistanın "İravnuk" qəzeti yazır ki, müharibədən sonra ölkəni üzləşdiyi çoxsaylı problemlər burulğanından xilas etmək əvəzinə hakimiyyət təmsilçiləri əvvəlki kimi yenə də şəxsi mənafelərini güdməklə məşğuldurlar.

Ardı 10-cu səh.



# Azərbaycan ən müasir texnologiyalar sahəsində də lider mövqedədir

## Prezident İlham Əliyevin çıxışı



- Siz nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri vəzifəsinə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir. Əminəm ki, Siz bu etimadı doğruldacaqsınız.

Rəhbərlik edəcəyiniz sahələrə mən daim böyük diqqət göstərmişəm, bu gün də göstərirəm. Son illərdə bu sahələr uğurla inkişaf edib. Mən Prezident vəzifəsinə seçiləndə həm nəqliyyatda, həm də rabitə sahəsində vəziyyət bizi qane etmirdi. O vaxt yüksək texnologiyalardan, ümumiyyətlə, söhbət getmirdi, yollar bərbad vəziyyətdə idi, dəmir yolları infrastrukturu köhnəlmişdi, dəniz nəqliyyatı sahəsində hər hansı bir irəliləyiş yox idi, əksinə, bizim donanmamız böyük dərəcədə köhnəlmişdi. Bütövlükdə bu sahədə vəziyyət ürəkaçan deyildi. Görülmüş tədbirlər nəticəsində bu gün Azərbaycan nəqliyyat sahəsində dünyada lider dövlətlərdən biridir. Bunu həm Azərbaycan vətəndaşları görürlər, eyni zamanda Azərbaycan beynəlxalq təşkilatların reytinqlərində daim yüksək yerlər tutur. Təkcə Davos Ümumdünya İqtisadi Forumunun hesabatına baxmaq kifayətdir, hər kəs görsün ki, bu sahədə çox ciddi islahatlar aparılır və Azərbaycan reytinqlərə görə dünya miqyasında qabaqcıl yerlərdədir. Avtomobil yollarının keyfiyyətinə görə 24-27-ci yerləri bölüşürük. Dəmir yollarının səmərəliliyinə görə biz dünyada 11-ci yerdəyik. Hava nəqliyyatının səmərəliliyinə görə dünyada 12-ci yerdəyik. Yəni bu yüksək yerləri əldə etmək böyük səylər, düşünülmüş siyasət tələb edirdi. Əlbəttə ki, nəqliyyat infrastrukturuna qoyulan vəsait bu yeni vəziyyəti yaratmışdır. Nəqliyyat sahəsinə qoyulmuş vəsait bu gün ölkəmizin iqtisadi, xüsusilə qeyri-neft sektorunun inkişafına da müsbət təsir göstərir. Çünki yol olmayan yerdə inkişaf da olmur. Yol olmayan yerdə fermer öz məhsulunu bazara çatdıra bilmir. Dəmir yolları olmayan yerdə heç bir tranzit imkanından söhbət gedə bilməz. Ona görə biz, ilk növbədə, ölkə daxilində infrastrukturu tamamilə yenidən qurduq. Eyni zamanda ölkəmiz üçün çox vacib olan və uzunmüddətli inkişaf strategiyamıza uyğun olan tranzit imkanları da yaratmışıq. Son 17 il ərzində 17 min kilometrdən çox avtomobil yolu tikilib, həm magistral yollar, həm kənd yolları, həm də şəhərlərarası yollar. Bu proses bu gün də davam etdirilir. Eyni zamanda azad edilmiş torpaqlarda da yol infrastrukturunun yaradılmasına bu il start verilmişdir. Biz bu işləri planlı şəkildə görəcəyik. **Füzulidən Şuşa şəhərinə açılmış yeni yol onu göstərir ki, biz bu işləri faktiki olaraq ən qısa müddət ərzində görə bilirik.**

Ölkə daxilində dəmir yolu nəqliyyatı sahəsində önəmli layihələr icra edildi, dəmir yollarımızın reabilitasiyası layihələri icra olundu. Bakı dairəvi dəmir yolu inşa edildi və bu, sərnişin daşımaları, insanların rahatlığı üçün çox önəmli hadisədir. Müxtəlif şəhərlərdə dəmir yolu vağzalı inşa edildi.

Əlbəttə ki, Bakı-Tbilisi-Qars dəmir yolunun Azərbaycanın təşəbbüsü ilə inşa edilməsi bölgəmizdə və bütövlükdə Avrasiyada yeni nəqliyyat xəritəsini yaratdı. Bizim tərəfdaşlarımız hazırda bu yoldan istifadə edərək öz məhsullarını müxtəlif istiqamətlərə çatdırırlar. Qeyd etməliyəm ki, Azərbaycan ərazisindən keçən yolların çoxşaxəli olması bizim imkanlarımızı böyük dərəcədə artırır. Pandemiya dövründə bütövlükdə bütün dünyada iqtisadiyyatın tənəzzülə uğramasına baxmayaraq, bildirməliyəm ki, "Şimal-cənub nəqliyyat dəhlizi" ilə daşınan yüklərin həcmi təxminən 20 faiz artmışdır. Bizim dəmir yolu infrastrukturumuzdan bir çox ölkələr istifadə edir. Hazırda Çin-Qazaxıstan-Xəzər dənizi-Azərbaycan-Avropa marşrutu, eyni zamanda Əfqanıstan-Türkmənistan-Xəzər dənizi-Azərbaycan-Avropa marşrutu mövcuddur. Bakı-Tbilisi-Qars dəmir yolunu faktiki olaraq Lapis-Lazuli yolu ilə birləşdirdik və əlbəttə ki, burada çoxşaxəli nəqliyyat infrastrukturu öz rolunu oynamışdır. Çünki bizim imkanlarımız genişlənib. Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə istismara verilmiş Bakı gəmiqayırma zavodunda bütün növ gəmilər istehsal olunur və biz bu istehsalı hər il artırırıq. Hazırda zavodda tankerlər, Ro-Ro gəmiləri və yük gəmiləri istehsal olunur. Biz bu sahədə xaricdən asılılığı aradan qaldırmışıq, minlərlə iş yeri açmışıq və neft-qaz əməliyyatlarında iştirak edən şirkətlər üçün də imkanlar yaratmışıq. Onlar da öz sifarişlərini bu zavoda verirlər.

Biz Xəzər Gəmiçiliyini müasirləşdirmişik, Xəzərdə ən böyük donanmaya sahibik və hər il donanmaya yeni gəmilər təqdim edilir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər dənizində yükdaşımaların təşkili üçün əvəzolunmaz rol oynayır. Birincisi, biz limanı Bakı şəhərindən çıxardıq. Bu, Bakının ekoloji vəziyyətinə müsbət təsir göstərmişdir, eyni zamanda yeni istirahət zonası yaradılıb. Ələtdə ən müasir dəniz ticarət limanının işə düşməsi bizim imkanlarımızı böyük dərəcədə artırıbdır.

Hava nəqliyyatına gəldikdə təkcə onu demək kifayətdir ki, bu gün bizim təyyarə parkı ən müasir parklardan biridir. Həm yük təyyarələrimiz, həm sərnişin təyyarələrimiz müasirdir, dünyanın aparıcı şirkətlərinin istehsalıdır. Bakıdakı Heydər Əliyev Beynəlxalq Hava Limanı beşulduzlu hava limanıdır və dünyada belə hava limanlarının sayı 10-a yaxındır. MDB-də isə artıq neçə ildir ki, Heydər Əliyev Beynəlxalq Hava Limanı birinci yerdədir. Mənim göstərişimlə digər şəhərlərimizdə inşa edilmiş hava limanları bizim nəqliyyat potensialımızı böyük dərəcədə gücləndirir. Son illərdə 7 hava limanı inşa edilmişdir. Onlardan 6-sı beynəlxalq statusa malikdir və bütün növ təyyarələri, o cümlədən ən ağır yük təyyarələrini qəbul edə bilir. Bildiyiniz kimi, Füzuli şəhərində yeni beynəlxalq hava limanının inşasına start verilib və azad edilmiş torpaqlarda - ya Laçın, ya Kəlbəcər rayonlarının ərazisində ikinci beynəlxalq hava limanı inşa ediləcək.

Bir sözlə, nəqliyyat sektoruna göstərilən diqqət və aparılan düşünülmüş siyasət bax, bu reallığı yaratmışdır. Bu gün nəqliyyat sektorumuz həm müasirdir, həm də ölkə qarşısında duran vəzifələri icra etməyə imkan verir. Eyni zamanda bu sahəyə qoyulan milyardlarla dollar səviyyəsində sərmayələr artıq bizim qeyri-neft iqtisadiyyatımıza öz müsbət təsirini göstərir. Nəqliyyat sektoruna qoyulan sərmayələr 1-2 ilə, hətta 5-10 ilə geri qayıdan sərmayələr deyil. Bu, uzunmüddətli sərmayədir. Bu sərmayələr insanların rahatlığına və ölkənin uzunmüddətli dayanıqlı inkişafına nail olmaq üçün qoyulubdur. Digər sahələrə gəldikdə, burada da müsbət dinamika, tərəqqi var. Hesab edirəm ki, Azərbaycan rabitə və yüksək texnologiyalar sahəsində bölgədə mərkəzi rol oynayır. Təsadüfi deyil ki, artıq dünya miqyasında böyük nüfuz qazanmış "Bakutel" sərgisi ənənəvi olaraq Bakıda keçirilir. Beynəlxalq Telekommunikasiya İttifaqının rəhbərləri ilə mənim çoxsaylı görüşlərim onu göstərir ki, bizdə bu sahəyə qoyulan investisiyalara və yetirilən diqqətə beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymət verilir. Hesab edirəm ki, biz ölkə daxilində rabitə sahəsində bütün əsas məsələləri həll etmişik. İnternet istifadəçilərinin sayı 80 faizdən çoxdur. Hər kəs bilir ki, Azərbaycanda internet azaddır, heç bir senzura, heç bir məhdudiyyət yoxdur.

Əlbəttə ki, mən texnoloji inkişafla bağlı görülmüş işlər arasında peykləri qeyd etməliyəm. Bu sahəyə rəhbərlik edən şəxs kimi, Siz bütün bu işləri yaxşı bilirsiniz. Biz peykləri orbitə çıxaranda bəziləri sual verirdilər ki, bu, nə üçün lazımdır. Ancaq həyat göstərdi ki, bu, bizə çox lazımdır. Həm müharibə dövründə, həm müharibədən sonrakı dövrdə peyklərdən istifadə bizə çox böyük üstünlük təmin etdi. Bizim həm telekommunikasiya, həm Yer səthini müşahidə edən peyklərimiz qarşıda duran bütün vəzifələri icra etmək üçün imkan yaradır. Biz məhdud sayı olan kosmik klubun üzvüyük. Burada kadr hazırlığı əlbəttə ki, önəmli rol oynayır. Bu sahədə çalışan kadrlar artıq bizim ümumi intellektual potensialımızı gücləndirirlər. Eyni zamanda, Vətən müharibəsi dövründə düşmənin hərəkətlərini onlayn formatda izləmək və onların təxribatlarının qarşısını almaq əlbəttə ki, bizə əlavə üstünlük yaratdı. Təsadüfi deyil ki, Vətən müharibəsi, Azərbaycanın apardığı əməliyyatlar dünyada hərbi ekspertlər tərəfindən XXI əsrin müharibəsi adlandırıldı. Çünki bu, texnoloji inkişaf baxımından bir yenilik idi. Müharibədən sonra - hazırda bizim bərpa işləri ilə bağlı planlarımız üçün də peyklərin çox böyük əhəmiyyəti var. Sizin mənə təqdim etdiyiniz məlumatlar əsasında biz indi daha böyük səmərə ilə minatəmizləmə işləri görürük. Eyni zamanda kənd təsərrüfatının, meşə fondunun, su resurslarının, ekoloji vəziyyətin gələcək inkişafı ilə bağlı peykdən ötürülən məlumatlar xüsusi əhəmiyyətə malikdir. Biz burada heç bir ölkədən asılı deyilik. Eyni zamanda gələcəkdə bərpa işlərini düzgün təşkil etmək üçün bu imkanlar əlbəttə ki, bizə böyük üstünlük yaradır. Bir sözlə, Azərbaycanda həm nəqliyyat, həm texnologiyalar, həm də rabitə sahələrində görülmüş işlərə birmənalı şəkildə müsbət qiymət vermək olar. Bu müsbət qiyməti, o cümlədən dünyanın aparıcı maliyyə qurumları və Davos Ümumdünya İqtisadi Forumu vermişdir.

Gələcək vəzifələrə gəldikdə, əlbəttə ki, bu müsbət dinamika saxlanmalıdır. Eyni zamanda, heç kimə sirr deyil ki, dünyada texnologiyalar çox sürətlə inkişaf edir və biz addımlarımızı bu inkişafa uyğun şəkildə atmalıyıq. Əlbəttə, Azərbaycanda texnologiyaların inkişafı sahəsində daha böyük addımlar atılmalıdır. Xüsusilə gəncləri bu işlərə biz daha geniş miqyasda cəlb etməliyik. Mən istedadlı gənclərlə görüşlər əsnasında bir şeyi gördüm ki, onların bəziləri öz biliklərini, innovasiyaları həyata keçirmək üçün xaricə üz tuturlar. Misal üçün, startaplarla bağlı bizim siyasətimiz əlbəttə ki, müsbətdir. Ancaq bu istedadlı gənclərlə görüşlər əsnasında aydın oldu ki, onların bir çoxları xaricdə fəaliyyət göstərirlər və Azərbaycana gəlirlər, gedirlər. Biz elə bir şərait yaratmalıyıq ki, istedadlı gənclərimiz Azərbaycanda fəaliyyət göstərsinlər, öz biliklərini burada tam realizə edə bilsinlər və ölkə iqtisadiyyatına, ölkəmizin güclənməsinə xidmət etsinlər. Ona görə yeni texnologiyaların Azərbaycanda tətbiqi prioritet məsələlərdən biridir. Burada, ilk növbədə, əlbəttə ki, dünyada artıq üzə çıxan ən müasir texnologiyaların Azərbaycanda tətbiqindən söhbət gedir. Bunu biz mütləq etməliyik. Ən müasir texnologiyalar Azərbaycanda bütün sahələrdə tətbiq edilməlidir. Eyni zamanda, istedadlı insanların fəaliyyəti daha düzgün təşkil edilməlidir ki, Azərbaycan texnologiyaların istehsalçısı kimi də öz rolunu oynasın və öz sözünü desin. Məsələn, nə üçün biz, ictimai xidmətlər sahəsində texnologiyaları icad edən və ixrac edən ölkəyə çevrilə bilmişik? Çünki qarşıya düzgün hədəflər qoyulmuşdur, kadr təminatı düzgün seçilmişdir və Prezident tərəfindən bu sahəyə daim diqqət göstərilib. Ancaq bu diqqət bütün qurumlar tərəfindən göstərilməlidir. Çünki mənim tərəfimdən verilən tapşırıq bəzi hallarda müəyyən müddət ərzində icra edilir, ondan sonra icra edilmir, ya da ki, unudulur, yaxud da hansısa başqa xoşagəlməz hallar meydana çıxır. Ona görə dövlət qurumları, nazirliklər, dövlət şirkətləri mənim göstərişlərimi axıra qədər icra etməlidirlər və belə olan halda heç bir yerdə axsama olmayacaq.

Yeni texnologiyaların tətbiqi imkan verəcək ki, biz bundan sonra da öz hərbi gücümüzü daim yüksək səviyyədə saxlaya bilək. Bu gün Azərbaycan döyüş meydanında öz üstünlüyünü göstərib. Həm qəhrəman övladlarımızın şücaəti, fədakarlığı, eyni zamanda, texniki təchizat və əlbəttə ki, yeni texnologiyaların tətbiqi müharibədə qələbənin qazanılmasının əsas amillərindən biridir. Texnoloji təminat, əlbəttə ki, bizə əlavə imkanlar yaratdı. Ancaq mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, torpaqları azad edən Azərbaycan əsgəri olub, Azərbaycan zabiti olub. Bayrağı azad edilmiş torpaqlara gətirən də və yüksəklərə qaldıran da Azərbaycan vətəndaşı olub.

Buna baxmayaraq, biz texnoloji inkişaf sahəsində daim qabağa hədəflənməli, hərbi sahədə yenilikləri Azərbaycana gətirməliyik. Nəzərə alsaq ki, bizim bu sahədə aparıcı ölkələrlə çox sıx dostluq əlaqələrimiz var və Azərbaycana texnoloji ixracla bağlı hər hansı bir məhdudiyyət yoxdur, biz bu sahədə daim qabaqlayıcı addımlar atmalıyıq. Hər zaman öz siyasətimizi elə qurmalıyıq ki, Azərbaycanın hərbi potensialı, müdafiə qabiliyyəti daim yüksək səviyyədə olsun və heç vaxt heç kim bizə qarşı hər hansı bir təxribat törətməyə belə cəhd etməsin.

Azad edilmiş torpaqlarda bərpa işlərini apararkən mütləq yüksək texnologiyalardan istifadə olunmalıdır. Hazırda minalardan təmizləmə prosesi gedir. Bununla paralel olaraq şəhərsalma layihələri icra edilir. Şəhərsalma layihələri hazır olandan sonra biz artıq praktiki inşaat işlərinə start verəcəyik. Burada infrastruktur layihələri ilə bərabər, mütləq nəqliyyat və texnologiyalar sahələri də diqqət mərkəzində olmalıdır. Mən artıq bəyan etmişəm ki, azad edilmiş ərazilər bütövlükdə yaşıl enerji zonası olmalıdır, buna imkan var. Bizim su resurslarımız kifayət qədər geniş həcmlidir. Eyni zamanda, günəş və külək enerjisi növlərinin yaradılması üçün imkanlar var. Xarici tərəfdaşları, investorları bu işlərə mütləq cəlb etmək, yerli şirkətlərə şərait yaratmaq lazımdır. Azad edilmiş torpaqlar yüksək texnoloji inkişaf ərazisi olmalıdır.

Yaşıl enerji zonası ilə bərabər, kənd təsərrüfatında ən müasir texnologiyalar tətbiq edilməlidir. Nəzərə alsaq ki, azad edilmiş ərazilərdə torpaqlar çox münbitdir, həm bitkiçilik, həm heyvandarlıq üçün çox böyük imkanlar var, çox böyük örüş sahələri var, orada kənd təsərrüfatının ən müasir texnologiyalar əsasında inkişafı mütləq təmin edilməlidir. Biz bu işi indidən planlaşdırmalıyıq ki, məhsuldarlıq yüksək olsun.

Azad edilmiş ərazilərdə qurulacaq şəhərlər və kəndlər "smart-city", "smart-village", - yəni, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası əsasında qurulmalıdır. Bu işləri indidən planlaşdırın ki, şəhərsalma aparılarkən, layihələr icra edilərkən mütləq dünyanın ən qabaqcıl texnologiyaları orada tətbiq olunsun. Ondan sonra və bəlkə də bununla paralel olaraq, bizim digər şəhər və kəndlərimizdə buna oxşar layihələri də icra etmək lazımdır. Çünki əgər biz bunu bu gün etməsək, sabah geri qalacağıq. Biz geri qala bilmərik. Bildiyiniz kimi, Davos Ümumdünya İqtisadi Forumunda iştirakım zamanı 10-larla şirkətlə görüşlərim olur, onların böyük əksəriyyəti texnoloji şirkətlərdir. Bu görüşlər əsnasında görürəm ki, dünyada hansı yeniliklər var, hansı müsbət inkişaf var və çalışıram ki, o şirkətləri Azərbaycana cəlb edim. Ona görə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası işlənməlidir və tətbiq edilməlidir. Kadr hazırlığı xüsusi yer tutur. Hesab edirəm ki, hazırda bu sahədə kifayət qədər peşəkar kadr potensialı yaranmışdır. Biz gənclərimizi xaricdə aparıcı ali məktəblərdə oxutmaq üçün böyük proqramlar icra etdik və bu gün bu davam edir. Şadam ki, xaricdə təhsil alan gənclərimizin böyük əksəriyyəti ölkəmizə qayıdıb və bu, bizim kadr potensialımızı gücləndirir. Hesab edirəm ki, sizin nazirliyiniz bu sahədə - təhsillə bağlı müvafiq ali məktəblərlə də sıx təmasda olmalıdır. Kadr hazırlığı ölkəmizin iqtisadi və texnoloji inkişafı ilə uzlaşmalıdır. Ancaq belə olan halda, biz istədiyimizə nail ola bilərik.

Azad edilmiş ərazilərdə hazırda böyük nəqliyyat layihələri icra edilməyə başlanmışdır, Füzuli Hava Limanının inşası başlamışdır. Qeyd etdiyim kimi, Kəlbəcər, yaxud Laçın rayonlarının ərazisində ikinci hava limanı inşa ediləcək. Biz Füzuli-Şuşa avtomobil yolunun inşasına start vermişik. Bununla paralel olaraq, indi bölgədə nəqliyyat-kommunikasiya sahəsində böyük layihələr müzakirə edilir. Burada əlbəttə ki, Horadiz-Zəngilan dəmir yolu, ondan sonra Zəngilan-Naxçıvan dəmir yolu, Naxçıvan-Türkiyə dəmir yolu layihələri prioritet təşkil edir və digər layihələr də, həmçinin. Çünki hesab edirəm ki, müharibədən sonra yaranmış vəziyyət bölgə ölkələri üçün yeni imkanlar açır. Azərbaycan bu sahədə əməkdaşlığa hazırdır və bu işə öz töhfəsini verməkdədir. Mənim tərəfimdən göstəriş verildi ki, Horadiz-Ağbənd dəmir yolunun layihələndirilməsi başlasın. Artıq start verildi və digər layihələr də, həmçinin. Burada ən müasir texnologiyalar tətbiq edilməlidir ki, Azərbaycan bu sahədə də daim liderliyi öz əlində saxlaya bilsin. Mən ümid edirəm ki, siz bütün bu vəzifələri şərəflə yerinə yetirəcəksiniz.

Ölkəmizin inkişafı üçün indi yeni imkanlar açılıb. Azərbaycan özünü dünyada ləyaqətli, güclü, məsuliyyətli ölkə kimi göstərmişdir. Müharibə bir çoxlarına Azərbaycanın potensialının nədən ibarət olduğunu göstərmişdir. Biz döyüş meydanında qələbə qazandıq, biz mülki sahədə qələbə qazandıq. Çünki əgər güclü iqtisadiyyat qurmasaydıq, güclü ordu qura bilməzdik. Ona görə bütün amillərin sintezi həm qələbəni şərtləndirdi, həm də bundan sonra bizim inkişaf dinamikamızı da şərtləndirəcək. Hətta pandemiya dövründə də bizim qeyri-neft sənayemiz artmışdır, özü də böyük dərəcədə. Keçən il qeyri-neft sənayemiz 12,5 faiz artmışdır. Nəyə görə? Texnoloji inkişaf, sənayeləşmə, investisiyalar, güzəştli şərtlərlə kreditlərin verilməsi, dövlət-özəl sektor tərəfdaşlığı - bütün bu amillər öz rolunu oynayıb. Texnologiyalar, telekommunikasiya sahələrində artıq bir çox yerli şirkətlər yaranmışdır və həm Azərbaycanda, həm də xaricdə fəaliyyət göstərir. Biz onlara da dəstək verməliyik. Onların xaricdəki fəaliyyətlərini dəstəkləməliyik və burada da dövlət-özəl sektor tərəfdaşlığı bir nümunə olmalıdır. Bu sahə hər bir ölkə üçün, deyə bilərəm ki, hər bir ölkənin gələcəyi üçün həlledici sahədir. Texnoloji inkişafda kim qabağa gedibsə, o da udacaq, kim geridə qalıbsa, asılı vəziyyətdə qalacaqdır. İndi sirr deyil, elə peşələr var ki, 5 ildən sonra bu peşələr sıradan çıxacaq, yəni olmayacaq. Yeni peşələr meydana çıxacaq və biz hazır olmalıyıq ki, bu peşələrə yiyələnək. Hazır olmalıyıq, kadr potensialımız imkan versin ki, dünyada gedən sənayeləşmə, xüsusilə Dördüncü Sənaye İnqilabı ilə bağlı proseslər daim Azərbaycanın inkişafını təmin etsin. Təsadüfi deyil ki, Davos Ümumdünya Forumu məhz Azərbaycanı Dördüncü Sənaye İnqilabının mərkəzlərindən biri seçdi. Məhz onların təşəbbüsü ilə bu baş verdi və müvafiq sənəd də imzalandı. Ona görə sizin nazirliyinizin üzərinə böyük funksiyalar düşür. Mən sizdən əvvəl bu vəzifədə çalışmış nazirin fəaliyyətindən də razıyam. O da öz vəzifə borcunu şərəflə yerinə yetirirdi, bir çox önəmli məsələləri həll etmişdir, Azərbaycanın bu sahədəki inkişafını təmin etmişdir. Ancaq hər yerdə islahatlar gedir, islahatlar labüddür və ölkə qarşısında yeni vəzifələr durur. Mən hesab edirəm ki, siz bu vəzifələri icra edə bilərsiniz. Hər halda, buna ümid edirəm. Bir daha qeyd etmək istəyirəm ki, bu, sizə göstərilən böyük inamdır, etimaddır və sizin üçün böyük məsuliyyətdir. Siz bu məsuliyyəti öz işinizlə doğrultmalısınız.

Nazir **Rəşad NƏBİYEV** dedi:

-Təşəkkür edirəm, cənab Prezident. Əvvəlcə, icazə versəydiniz Sizi rəhbərliyinizlə qazanılmış böyük Qələbə münasibətilə təbrik edərdim. 44 günlük müharibədə Ordumuzun göstərdiyi peşəkarlıq nümayiş etdirdi ki, bu gün Azərbaycanda istənilən sahədə güclü kadr potensialı formalaşmışdır. Sizin seçim imkanlarınızın geniş olduğu bir təqdirdə mənə bu yüksək etimadı göstərdiyiniz üçün Sizə dərin təşəkkürümü bildirirəm və bu fakt özlüyündə mənim məsuliyyətimi daha da artırmış olur.

Görülən işlərə verdiyiniz qiymətlə bağlı isə qeyd edim ki, Sizdən bu sözləri eşitmək şərəfli olduğu qədər də məsuliyyətlidir. Amma heç şübhəsiz ki, Sizin yürütdüyünüz xarici siyasət nəticəsində ölkəmizin etibarlı tərəfdaş imici olmasaydı, heç bir dövlət peyklər kimi yüksək texnoloji məhsulları bizə ixrac etməzdi. Eyni zamanda, cənab Prezident, Sizin yürütdüyünüz daxili siyasət nəticəsində ölkəmizin iqtisadi qüdrəti və nəticə etibarilə maliyyə resurslarımız olmasaydı, bu peykləri əldə etmək imkanımız da olmazdı. Ən başlıcası isə, cənab Prezident, Sizin kosmik sənayenin inkişafına göstərdiyiniz davamlı diqqət və qayğı uğurlarımızı şərtləndirən əsas amillər olmuşdur. Mənim və həmkarlarımın üzərinə düşən vəzifə isə, sadəcə, bu əlverişli vəziyyətdən istifadə edərək Sizin etimadınızı doğrultmaq idi. Yeni təyinatla üzərimə düşən vəzifələri və bu vəzifələrdən irəli gələn şəxsi məsuliyyətimi də tam şəkildə dərk edirəm. Nazirliyin tabeliyində olan müəssisələrin səmərəli fəaliyyət göstərməsi üçün onların ən qısa zamanda korporativləşmələrinin vacib olduğunu anlamaqla yanaşı, əsas vəzifəmizin sahə üzrə, yəni, nazirliyə həvalə edilmiş sahə üzrə effektiv dövlət siyasətinin həyata keçirilməsi, ədalətli tənzimləmə mexanizmlərinin yaradılması və nəticə etibarilə ədalətli rəqabət mühitinin formalaşdırılmasıdır.

Cənab Prezident, Siz hər zaman söyləyirsiniz ki, əgər ədalətli rəqabət mühiti formalaşarsa, o zaman həmin sektora xarici investisiyaların axını baş verər və bu da özlüyündə yalnız həmin sektorda deyil, ümumiyyətlə, ölkədə innovasiya və texnologiyaların inkişafını təşviq etmiş olar.

Cənab Prezident, sonda icazə verin, Sizi əmin edim ki, iqtisadi islahatların dərinləşməsi ilə bağlı qarşıya qoyduğunuz tapşırıqlara da sahə nazirliyi olaraq öz töhfəmizi verə bilmək üçün əlimizdən gələni əsirgəməyəcəyik. Həmkarlarımla birlikdə nazirliyin səlahiyyətləri çərçivəsində qəbul edəcəyimiz bütün qərarların və atacağımız bütün addımların əsas qiymətləndirmə meyarı Sizin siyasətinizin ayrılmaz hissəsi olan Azərbaycan vətəndaşlarının sosial maraqlarının qorunması olacaqdır. Göstərdiyiniz bu yüksək etimada görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm. Çalışacağıq ki, bütün işimizdə Sizin etimadınızı doğruldaq. Cənab Prezident, çox sağ olun.

---

## T.Ə.Bakıxanovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Tofiq Əhməd Ağa oğlu Bakıxanov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 26 yanvar 2021-ci il

## A.Z.Mustafayevin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda heykəltəraşlıq sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Albert Zaman oğlu Mustafayev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2021-ci il*

## R.N.Quluzadənin Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ramin Namiq oğlu Quluzadə Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2021-ci il*

## R.N.Nəbiyevin Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəşad Nəbi oğlu Nəbiyev Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2021-ci il*

## O.Q.Şahbazovun Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Oqtay Qəşəm oğlu Şahbazov Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2021-ci il*

## R.N.Quluzadənin Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ramin Namiq oğlu Quluzadə Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2021-ci il*

## R.N.Nəbiyevin "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəşad Nəbi oğlu Nəbiyev "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2004-cü il 23 oktyabr tarixli 468 nömrəli, "Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli sərəncamlarında dəyişiklik edilməsi və "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən lizinqə verilən və ya lizinq yolu ilə satılan suvarma sistemləri dəstinə və avadanlığına güzəşt tətbiq edilməsi haqqında" 2015-ci il 16 aprel tarixli 1176 nömrəli, "Bitkiçilikdə intensiv inkişafın təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 2018-ci il 2 mart tarixli 3739 nömrəli sərəncamlarının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 17 avqust tarixli 1137 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 oktyabr tarixli 468 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 844; 2005, № 9, maddə 839; 2007, № 1, maddə 30; 2008, № 8, maddə 761; 2013, № 8, maddə 981; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384) 2-ci hissəsi ləğv edilsin.

2. "Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1680; 2018, № 11, maddə 2287) 2.3-cü bəndi ləğv edilsin.

3. "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən lizinqə verilən və ya lizinq yolu ilə satılan suvarma sistemləri dəstinə və avadanlığına güzəşt tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 16 aprel tarixli 1176 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 433) ləğv edilsin.

4. "Bitkiçilikdə intensiv inkişafın təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 2 mart tarixli 3739 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 464) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 yanvar 2021-ci il*

# Vaşinqtondakı "Atlantik Şurası" Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevlə onlayn-seminar keçirib

Vaşinqtonda fəaliyyət göstərən ən nüfuzlu "beyin mərkəzləri"ndən biri - "Atlantik Şurası" ("Atlantic Council") Ermənistan-Azərbaycan müharibəsinin yekunlarına və münaqişədən sonrakı dövrdə regional əməkdaşlığın perspektivlərinə həsr edilmiş onlayn-seminar keçirib. AZƏRTAC xəbər verir ki, moderatoru "Atlantik Şurası" nəzdində Avrasiya Mərkəzinin direktoru, ABŞ-ın Ukraynadakı sabiq səfiri Con Herbst olan tədbirdə mərkəzin və auditoriyanın suallarını Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev cavablandırıb.




Hikmət Hacıyev deyib ki, Ermənistan ilə Azərbaycan arasında 44 günlük müharibə nəticəsində Yerevanın son 26 ildə sui-istifadə etdiyi qondarma "status-kvo" ləğv edilib və bundan sonra Cənubi Qafqazda qarşıdurma əməkdaşlığa və regional inteqrasiyaya transformasiya olunmalıdır. Prezidentin köməkçisi 2020-ci ilin sentyabr ayında hərbi əməliyyatlara hansı tərəfin başlaması barədə suala cavab verərək qeyd edib ki, sonuncu silahlı münaqişənin səbəblərini aydınlaşdırmaq üçün müharibəyə gətirib çıxarmış şəraiti nəzərdən keçirmək lazımdır. Ermənistan və Azərbaycan liderlərinin Düşənbədəki görüşündən sonra Prezident İlham Əliyev xoş məram nümayiş etdirərək Ermənistanın baş nazirinin Dağlıq Qarabağ münaqişəsini Ermənistanda sabitlik yaradılandan sonra nizamlamaq məsələsinə qayıtmasına icazə verib, lakin Ermənistanın baş naziri bu xoş münasibətdən sui-istifadə edib və sonradan millətçi bəyanatlarla çıxış etməyə başlayıb, o cümlədən Azərbaycanın işğal edilmiş ərazilərinə qanunsuz səfərinin gedişində "Arsax" (Qarabağ - AZƏRTAC) Ermənistandır və nöqtə" deyib. Paşinyanın bu cür absurd bəyanatlarından əlavə, Ermənistanın müdafiə naziri Tonoyan ABŞ-da erməni diasporu ilə görüşündə Ermənistanın "yeni ərazilər uğrunda yeni müharibə" doktrinasını bəyan edib. Bütün bu bəyanatlar, üstəlik ötən ilin iyul ayında Tovuz rayonunda erməni tərəfinin silahlı təxribatları, Azərbaycanın mülki obyektlərinin və Azərbaycan Ordusunun mövqelərinin sentyabr ayında məqsədyönlü şəkildə artilleriya atəşinə tutulması Azərbaycan Ordusunun BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini yerinə yetirmək və Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etmək məqsədilə bütün cəbhəboyu əks-hücumuna gətirib çıxardı.

Azərbaycan Prezidentinin köməkçisi qeyd edib ki, münaqişənin silahlı fazasında Azərbaycan dəfələrlə hərbi əməliyyatları dayandırmağa hazır olduğunu bildirib, bu şərtlə ki, Ermənistan erməni silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılması qrafikini dərhal təqdim etsin. Lakin belə olmadı və nəhayət, noyabr ayında Şuşa şəhəri və Azərbaycanın digər əraziləri azad ediləndən sonra Ermənistan Bakının şərtlərini qəbul etməyə məcbur oldu.

Hikmət Hacıyev vurğulayıb ki, Azərbaycan RF sülhməramlı kontingenti ilə "açıq dialoqu və kommunikasiyanı" dəstəkləyir, bu kontingentin nümayəndələri "öz işini peşəkar səviyyədə yerinə yetirir". Azərbaycan Prezidentinin köməkçisi erməni hərbi əsirləri barədə sualın cavabında bəyan edib ki, noyabrın 9-da məlum bəyanat imzalanandan sonra Azərbaycanın dövlət sərhədini keçmiş 62 nəfər silahlı erməninin məqsədi Azərbaycan mövqelərinə hücum etmək idi, onlar hətta özləri ilə müəyyən texnika da götürmüşdülər. Bu şəxslər hərbi əsir deyil, onlar əsirlərin digər kateqoriyasına aiddir. Bəyanat imzalanandan sonra Azərbaycan təqribən 1200 erməni hərbi qulluqçusunun cəsədini erməni tərəfinə qaytarıb. Prezidentin köməkçisi seminarın erməni iştirakçılarına xatırladıb ki, Birinci Qarabağ müharibəsindən sonra 4000-dən çox azərbaycanlı hələ də itkin düşmüş hesab edilir və Ermənistan bu şəxslər barədə məlumat təqdim etməlidir.

Onlayn-seminarın gedişində Hikmət Hacıyev auditoriyaya münaqişənin başlanması barədə, o cümlədən keçmiş SSRİ-nin müəyyən dairələri tərəfindən təşkil olunmuş və etnik erməni Eduard Qriqoryan kimi cinayətkarlar tərəfindən icra edilmiş Sumqayıt hadisələri barədə də məlumat təqdim edib. İşğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi və həmin ərazilərdə yenidənqurma, azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına qaytarılması planı da müzakirə edilib. Diqqətə çatdırılıb ki, Azərbaycanın Dağlıq Qarabağ regionunda yaşayan ermənilər ölkəmizin tamhüquqlu vətəndaşlarıdır və Azərbaycan qanunlarının, onun Konstitusiyasının aliliyini qəbul etməyə borcludurlar.

Hikmət Hacıyev münaqişədən sonrakı dövrdə ATƏT-in Minsk qrupunun rolu barədə suala cavab verərək deyib ki, Minsk qrupu iki tərəf arasında etimadın möhkəmlənməsi tədbirlərinin müəyyən olunmasına kömək edə bilər.

Azərbaycan Prezidentinin köməkçisi sonda bəyan edib ki, Amerika şirkətləri Azərbaycanın Qarabağ regionunun infrastrukturunun bərpasına investisiyalar qoymaq və bu işlərdə iştirak etmək yolu ilə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin yenidən qurulmasına və regional inteqrasiyaya öz töhfələrini verə bilər.

# Hökumət bu il görüləcək işləri və hədəfləri dəqiqləşdirdi

*Əvvəli 1-ci səh.*

Qeyd edilmişdir ki, dövlət başçısının tapşırığına uyğun olaraq işğaldan azad edilmiş ərazilər üzrə Strateji Fəaliyyət Planı hazırlanır. Bütün ərazilərin və şəhərlərin bərpası vahid konsepsiya əsasında həyata keçiriləcək.

Düşmənin dağıdıb yerlə yeksan etdiyi şəhər və kəndlərimzin hamısını yenidən tikib-quracaq, həmin ərazilərdə ən müasir infrastruktur yaradacağıq. İşğaldan azad edilmiş ərazilərin bərpası zamanı hər bir iqtisadi rayonun təbii-iqlim şəraiti və profili nəzərə alınacaq. Yeni beynəlxalq hava limanlarının, avtomobil və dəmir yolu xətlərinin tikintisi bölgənin inkişafına əhəmiyyətli təkan verəcək.

Məlum olduğu kimi, Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolu artıq çəkilir. Digər vacib bir layihəyə də start verilib ki, bu, Toğanalı- Kəlbəcər yoludur. Həm şimaldan, həm cənubdan Laçın və Kəlbəcər rayonlarına yol-nəqliyyat infrastrukturu yaradılacaq. Horadiz-Füzuli, daha sonra Füzuli-Şuşa dəmir yolunun tikintisi nəzərdə tutulur. Laçın və Kəlbəcər rayonlarının birində müasir beynəlxalq hava limanı tikiləcək, hazırda bunun üçün yer axtarılır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərinə səfər çərçivəsində Füzuli şəhərində tikilən beynəlxalq hava limanının təməlini qoyublar. Beləliklə, yaxın gələcəkdə Şuşaya gəlmək istəyən xarici qonaqlar rahat Füzuliyə enib, oradan avtomobillə Şuşaya gedəcəklər.



Xarici qonaqlar demişkən, qarşıda duran prioritetlərdən biri də Qarabağ bölgəsinin turizm marşrutlarının işlənib hazırlanmasıdır. Bu bölgənin zəngin turizm potensialı var. Qarabağın füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri onu Azərbaycanın əsas turizm zonalarından birinə çevirəcək.

İşğaldan azad olunmuş ərazilərdə torpağın münbitliyi orada bağçılığın, tərəvəzçiliyin, üzümçülük və taxılçılıq sahələrinin inkişafına geniş imkanlar yaradır. Qarabağ camaatının heyvandarlığın inkişaf etdirilməsi üçün də zəngin təcrübəsi var. Odur ki, prioritetlər sırasında bu sahələr də özünə yer alır.

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə torpaq islahatının aparılması üçün yeni mexanizm və meyarlar işlənib hazırlanmalıdır. Bütün ölkədə olduğu kimi, işğaldan azad edilmiş torpaqlarda da su ehtiyatlarından səmərəli istifadə məsələlərinə xüsusi diqqət yetirilməlidir. Həmin torpaqlarda ən müasir suvarma sistemləri yaradılmalıdır. Su ehtiyatları ilə bağlı problemlərin həlli ilə yanaşı, azad edilmiş ərazilərin yaşıl enerji zonasına çevrilməsi nəzərdən keçirilməlidir. Bu ərazilərdə su mənbələrindən istifadə edilərək su elektrik stansiyalarının tikintisi imkanlarına baxılmalıdır.

İndi biz Böyük Qayıdışa hazırlaşırıq. İllərdir məcburi köçkün olan insanlar öz dədə-baba yurdlarına qaytarılacaq və bu proses xüsusi proqram əsasında həyata keçiriləcək. Odur ki, işğaldan azad olunmuş ərazilərin bərpası məsələləri dövlət orqanlarının dövlət siyasətinin müxtəlif istiqamətləri üzrə fəaliyyətində prioritet təşkil etməli, cari və perspektiv işlər planları ilə əlaqələndirilməlidir.

Bütün bunlarla yanaşı, ölkəmiz cari ildə iqtisadi artımın bərpa edilməsinə nail olmalıdır. İnflyasiya meyillərinin qarşısı alınmalı, valyuta ehtiyatları səmərəli idarə edilməlidir. Kiçik və orta sahibkarlığın dəstəklənməsi, bu istiqamətdə proqramların davam etdirilməsi, ixrac imkanlarının genişləndirilməsi yenə də gündəmdədir. Özəl sektorun investisiya layihələrinin maliyyələşdirilməsinə cəlb edilməsi, dövlət-özəl tərəfdaşlığının təşviqinin davamı, dövlət investisiya layihələrinin səmərəliliynin təhlil olunması və sosial-iqtisadi sahələrə aid bir çox digər məsələlər prioritet vəzifələr sırasındadır.

İndi biz həmçinin postpandemiya dövrünə ciddi hazırlıq işləri görməli, orta və uzunmüddətli hədəflərimizi bir daha dəqiqləşdirməliyik.

Ölkəmizdə keçən il start verilmiş, lakin məlum səbəblərdən tam həcmdə tətbiq edilməmiş İcbari Tibbi Sığorta sistemi bu il iki mərhələdə həyata keçirilməlidir. "Nizami Gəncəvi ili"nin məzmunlu keçirilməsi üçün müvafiq fəaliyyət planı hazırlanmalıdır.

Bütün bunlarla və digər prioritetlərlə bağlı Prezident İlham Əliyev Nazirlər Kabinetinə müvafiq tapşırıqlar vermişdir. Dövlət başçısının dediyi kimi, planlarımız böyükdür: "Məhz 2021-ci ildə Azərbaycan xalqı və bütün dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır, bizim planlarımız həyatda gerçəkləşir."

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 106-cı kitabı çapdan çıxıb

### Çoxcildliyin növbəti kitabına Azərbaycan Prezidentinin Vətən müharibəsi günlərində xalqa müraciətlərinin və xarici KİV-ə müsahibələrinin mətnləri daxil edilib

Ötən il 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuz Qarabağı Ermənistanın işğalından azad etdi. Dövlət başçısının 2020-ci il sentyabrın 27-dən başlayaraq xalqa müraciətləri, rəsmi "Twitter" səhifəsində paylaşımları, xarici KİV-ə müsahibələri xalqımızın ədalətli mübarizəsi, Vətən müharibəsi və Qarabağ həqiqətləri barədə obyektiv təsəvvür yaratdı, informasiya cəbhəsində, diplomatiya müstəvisində üstünlüyümüzü təmin etdi. "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 106-cı kitabı tariximizin bu şanlı səhifələrini xronoloji ardıcıllıqla və sistemli şəkildə bir daha nəzərdən keçirmək üçün dəyərli mənbədir.




AZƏRTAC xəbər verir ki, çoxcildliyin yeni kitabındakı materiallar 2020-ci ilin sentyabr-oktyabr aylarını əhatə edir. Hələ sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasının videoformatda ümumi debatlarında çıxışı zamanı Azərbaycan Prezidenti beynəlxalq birliyi Ermənistanın hərbi təxribatları haqqında məlumatlandıraraq demişdi: "Etnik təmizləmə aparmış işğalçı ölkənin silahlarla təchiz edilməsi sülh danışıqlarını ciddi şəkildə sarsıdır və işğalçı dövləti yeni hərbi təxribatlara əl atmağa həvəsləndirir. Bu mənada biz bütün ölkələri Ermənistana silah təchizatından çəkinməyə çağırırıq".

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti hücumu nəticəsində mülki əhali və hərbçilər arasında itkilərin, yaralananların olması və ordumuzun əks-hücum əməliyyatına başlaması ilə əlaqədar dövlət başçısı xalqa müraciət etdi: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır".

Prezidentin BMT sessiyasının ümumi debatlarında çıxışının, sentyabrın 27-də, oktyabrın 4-də və 9-da xalqa müraciətlərinin mətnləri 106-cı kitaba daxil edilib.

Nəşrdə dövlət başçısının Vətən müharibəsi günlərində Türkiyənin "TRT Haber", "CNN-Türk", "Haber Global", "Haber Türk", Rusiyanın "Pervıy Kanal", "Rosssiya-1", RBK, "Əl-Cəzirə", "Əl-Ərəbiyə", "Euronews", "CNN International", "Sky News", "France-24" telekanallarına geniş müsahibələri də yer alıb.

Kitabda Azərbaycan Prezidentinin Türkiyə, Ukrayna, Belarus, Almaniya, İran və digər ölkələrin rəhbərləri ilə telefon danışıqları, BMT-nin Baş katibi Antonio Quterreş ilə videokonfrans formatında görüşü, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etməsi haqqında materiallar verilib.

Oxucular dövlət başçısının Təhlükəsizlik Şurasının iclasında, Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşündə çıxışlarının mətnləri, rəsmi "Twitter" səhifəsində paylaşımları ilə də bu kitabda tanış ola bilərlər.

Nəşrə Azərbaycan Prezidentinin "Kiber Kosmos buraxılışı" mövzusunda keçirilmiş virtual 71-ci beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində videomüraciətinin mətni, XXIII Avrasiya İqtisadi Zirvə toplantının iştirakçılarına məktubu və digər məktubları da daxil edilib.

"Azərnəşr" tərəfindən buraxılan 106-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri arasında telefon danışığı olub




Yanvarın 26-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovla Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər dəniz quldurlarının Türkiyəyə məxsus gəmiyə hücumu nəticəsində öldürülmüş azərbaycanlının nəşinin Vətənə gətirilməsi üçün əlaqələndirilmiş şəkildə tədbirlərin görülməsi ilə bağlı fikir mübadiləsi aparıblar.

Tərəflər həmçinin regional əməkdaşlıq məsələlərini müzakirə ediblər.

# Azərbaycanın və Türkiyənin nümayəndə heyətlərinin rəhbərləri AŞ PA-da birgə fəaliyyətin perspektivlərini müzakirə ediblər

Avropa Şurası Parlament Assambleyasının qış sessiyası çərçivəsində qurumdakı Azərbaycan və Türkiyə nümayəndə heyətlərinin rəhbərləri Səməd Seyidov ilə Ahmet Yıldız arasında görüş olub.



AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimizin nümayəndə heyətlərinin Avropa Şurası yanında əlaqələndirilmiş fəaliyyətinin təşkili müzakirə olunub.

Bildirilib ki, Türkiyə və Azərbaycan "bir millət, iki dövlət" prinsipini rəhbər tutaraq Avropa Şurasında bir-birini həmişə dəstəkləyib, ümumi dəyərlərə üstünlük verib.

Qurumda Azərbaycana və Türkiyəyə qarşı təhdidlər, eləcə də milli maraqlar ilə bağlı məsələlərin reallaşması istiqamətində konkret tədbirlər, planlar və fikirlər müzakirə edilib. Gələcək fəaliyyətdə koordinasiyanın daha da təkmilləşdirilməsinin əhəmiyyəti vurğulanıb.

Görüşdə, həmçinin Azərbaycanın işğal altında olan ərazilərinin azad edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Qurum çərçivəsində bu Qələbəyə hər hansı bir təhdid, təxribatçı addımlar olduğu təqdirdə onun qarşısını almaq üçün birgə fəaliyyətin təşkili müzakirə edilib və bunun vacibliyi bildirilib.

# Ölkəmiz münasibətlərini dostluq, qardaşlıq mövqeyini əsas götürməklə formalaşdırır



Nəhayət ki, uzun illərdən bəri ölkəmizlə Türkmənistan arasında mübahisə predmetinə çevrilən "Dostluq" yatağının karbohidrogen ehtiyatlarının birgə istismarına dair Anlaşma Memorandumu imzalandı və bu tarixi hadisə münasibətilə Azərbaycan ilə Türkmənistanın dövlət başçıları arasında videokonfrans formatında görüş keçirildi. İmzalanan sənəd bir daha göstərdi ki, Azərbaycan nəinki Cənubi Qafqaz bölgəsində, ümumiyyətlə, dünyada sülhün və sabitliyin, ölkələr arasında dostluq və əməkdaşlığın ən böyük dəstəkçisidir. Ölkəmizin maraqlarına zidd olmadığı təqdirdə əməkdaşlıq və dostluq siyasətimizin əsas xəttidir. Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin müavini Adil Əliyev bildirib.

Sədr müavini qeyd edib ki, "Kəpəz" yatağının adı mübahisə doğurduğundan, imzalanan sənəddə tərəflər onu iki ölkənin dostluğunun və getdikcə dərinləşən tərəfdaşlığının rəmzi olaraq "Dostluq" adlandırmağı qərara alıblar. Hazırda "Dostluq" adlandırılan bu iri karbohidrogen yatağı ölkələrimiz arasında gündən-günə möhkəmlənən dostluğun, qardaşlığın və qarşılıqlı əlaqələrin bariz nümunəsi kimi çox dəyərlidir.

"Qeyd edək ki, Azərbaycan və Türkmənistan dövlət müstəqilliklərini qazandıqları vaxtdan etibarən iki dost ölkə arasında bu yataqla bağlı mübahisələr daim olub. Bu günlərdə imzalanmış müqavilə ilə həmin mübahisəyə birdəfəlik son qoyuldu. Müstəqillik dövründə Türkmənistan və Azərbaycan dövlət başçılarının 5 dəfə qarşılıqlı səfərləri olub. Həmin səfərlər zamanı 50-dən çox sənəd imzalanıb. Qarşılıqlı münasibətlərin bütün tarixi ərzində isə ümumiyyətlə, 100-dən çox sənəd imzalanıb ki, onların yarısı son 3 ilin payına düşür. Hazırkı Anlaşma Memorandumu dostluq və əməkdaşlığa dair imzalanmış sənədlərin məntiqi yekunu oldu. Çünki həmin sənədlər və münasibətlər memorandumun bazisini təşkil etdi.

Bu anlaşma ölkəmizin geosiyasi mövqeyini də ön plana çıxarır. Belə ki, Türkmənistanın təbii qaz ehtiyatları ümumdünya ehtiyatlarının 9 faizini təşkil edir və bu göstərici ilə Türkmənistan dünyada dördüncü yeri tutur. Lakin indiyədək bazara birbaşa çıxışlarının olmaması və qiymətlərin alıcı tərəfindən tənzimlənməsi Türkmənistanın resurslarından səmərəli istifadəyə imkan verməmişdi. Baxmayaraq ki, bu asılılığa son qoymaq məqsədilə Türkmənistan Çin və İran bazarlarına yol tapmışdı. İndi isə Türkmənistan Azərbaycanın vasitəsilə əsas istehlak bazarı olan Avropaya çıxış imkanı əldə edəcəkdir", - deyə Adil Əliyev vurğulayıb.

Sədr müavini qeyd edib ki, Türkmənistan resurslarının dünyaya ölkəmiz vasitəsilə çıxarılması bizim üçün də olduqca əhəmiyyətlidir. Belə ki, bütün dünyada neft-qaz ixracatçısı kimi tanınan Azərbaycanın tranzit ölkə kimi də əhəmiyyəti daha da artıracaq. Ölkəmizdə təbii qaz resursları TAP xətti vasitəsilə Avropaya birbaşa nəql edilir. Həmçinin Asiya qazının Avropaya ölkəmiz vasitəsilə çatdırılması ölkəmizi həm Avropada, həm də Asiyada çox böyük söz sahibinə çevirəcək: "Belə ki, bugünə qədər yalnız öz karbohidrogen ehtiyatlarımızı Avropaya çatdırsaq da, indi tranzit xətlər hesabına əlavə gəlirlər əldə edəcəyik. Bu isə geosiyasi mövqeyimizi möhkəmləndirməklə yanaşı, iqtisadi sahədə də əlavə gəlirlərin əldə edilməsinə zəmin yaradacaq.

Onu da qeyd edək ki, Azərbaycanla Türkmənistan beynəlxalq strukturlarda da daim bir-birini fəal surətdə dəstəkləyir. Ölkəmiz BMT Baş Assambleyasının Türkmənistanın əbədi neytrallığı barədə Qətnaməsinin həmmüəllifi olmaqla yanaşı, Türkmənistan da, öz növbəsində, Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirib və öz dəstəyini ifadə edibdir. Habelə beynəlxalq təşkilatlarda ölkəmizin təşəbbüsləri Türkmənistan tərəfindən fəal dəstəklənir.

Xəzər hövzəsində yaranmış bu dostluq mühiti bütün ölkələrə təsir edəcək və dövlətimizin daha sürətli inkişafına dəstək verəcək.

# Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib

Yanvarın 26-da Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi Milli Məclisin yaz sessiyasında videoformatda ilk iclasına toplaşıb.






Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda "Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində 2020-ci ilin payız sessiyası dövründə görülən işlər barədə hesabat"ı təqdim edən komitənin sədri Ziyafət Əsgərov əvvəlcə payız sessiyası dövründə Vətən müharibəsinin başlandığını və elə həmin gün - sentyabrın 27-də Azərbaycan Respublikası Prezidentinin ölkədə "Hərbi vəziyyət elan edilməsi haqqında" Fərmanının Milli Məclisə daxil olduğunu və parlamentin iclasında təsdiq edildiyini qeyd edib. Komitə sədri 44 gün ərzində aparılan müharibədə Azərbaycanın böyük Zəfər qazandığını vurğulayaraq möhtərəm Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev başda olmaqla bütün xalqımızı və deputatları möhtəşəm qələbə münasibətilə bir daha təbrik edib, şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyib.

Sonra komitə sədri bildirib ki, noyabr ayının 10-da üç dövlət - Rusiya, Azərbaycan və Ermənistan tərəfindən imzalanan birgə bəyanatla müharibə başa çatdı və Azərbaycan Prezidentinin "Hərbi vəziyyətin ləğv edilməsi haqqında" Fərmanı ilə ölkəmizin bütün ərazisində hərbi vəziyyət 2020-ci il 12 dekabr tarixdə saat 00:00-dan etibarən ləğv edildi.

Onlayn iclasda bildirilib ki, hesabat dövründə komitədə həmin qanun layihələri ilə yanaşı, bir sıra digər qanun layihələri də müzakirə olunub. Payız sessiyasında keçirilən 12 iclasda 13 məsələyə baxılıb. Milli Məclisin müzakirəsinə tövsiyə edilən qanun layihələrinin əksəriyyəti komitədə üç oxunuşdan keçib və parlamentdə qəbul olunub. Komitənin üzvləri "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin, eləcə də bütövlükdə büdcə zərfinin müzakirəsində yaxından iştirak ediblər.

Ziyafət Əsgərov qeyd edib ki, həmin dövrdə NATO Parlament Assambleyasının Qafqazdakı vəziyyətlə bağlı onlayn qaydada keçirilən seminarında da qalib dövlətin təmsilçiləri olan Azərbaycan deputatları beynəlxalq hüquqa söykənərək yüksək səviyyədə çıxışlar edib, erməniləri susdurublar.

Bildirilib ki, sessiya ərzində seçicilərin qayğıları diqqət mərkəzində saxlanılıb. Müraciətlərin əksəriyyəti yerindəcə həll olunub. Komitəyə daxil olan 108 ərizə və şikayət araşdırılıb, aidiyyəti üzrə baxılıb tədbir görülməsi üçün müxtəlif ünvanlara 78 məktub göndərilib.

Komitə sədrinin müavini Hikmət Məmmədov, deputatlar Elman Məmmədov, Arzu Nağıyev payız sessiyası dövründə görülmüş işləri müsbət dəyərləndiriblər. Fikir mübadiləsinin yekununda komitənin hesabatı məqbul sayılıb.

Sonra iclasda 2021-ci ilin yaz sessiyası ərzində komitənin qanunvericilik fəaliyyətini və digər tədbirləri əhatə edən iş planı təqdim olunub. Ziyafət Əsgərov komitənin gündəliyində olan "Hərbi qulluqçuların statusu haqqında" və "Daxili qoşunlar haqqında" qanun layihələri barədə ətraflı məlumat verib. Bildirib ki, həmin layihələr rəy alınması üçün hələ ötən sessiyalardan müvafiq nazirliklərə təqdim olunub. 2020-ci ildə Azərbaycanın hərb tarixində baş verən mühüm hadisə - Vətən müharibəsi xüsusilə "Hərbi qulluqçuların statusu haqqında" qanuna bir sıra yeniliklərin edilməsi zərurətini yaradıb.

Yaranmış yeni reallıqla əlaqədar "Hərbi qulluqçuların statusu haqqında" qanun layihəsinin təkmilləşdirilməsi istiqamətində gedən iş prosesi barədə onlayn iclasda Milli Məclis Aparatının Dövlət quruculuğu və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidin məlumatı dinlənilib. Sonra deputat Nizami Səfərov həmin sənədlə bağlı fikirlərini açıqlayıb.

Yekunda yaz sessiyasının iş planı təsdiqlənib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin ilk iclasında "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsinə də baxılıb. Ziyafət Əsgərov bildirib ki, Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü ilə parlamentə daxil olan bu layihə çox humanist sənəddir, qanuna 21.1.4-1-ci maddə əlavə edilməklə "doktoranturaya qəbul üzrə ilk imtahandan müvəffəqiyyətlə keçən çağırışçılara - 3 ay müddətinə" birdəfəlik möhlət hüququ verilir.

Müzakirə zamanı deputatlar Aydın Mirzəzadə və Arzu Nağıyev rəy və təkliflərini nəzərə çatdırıblar.

Sonra "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Onlayn iclasda deputatlar Bəxtiyar Sadıqov, Əminə Ağazadə və Elşad Mirbəşiroğlu da iştirak ediblər.

# Parlamentin Mədəniyyət komitəsinin onlayn iclası olub

Yanvarın 26-da Milli Məclisin Mədəniyyət komitəsinin 2021-ci ilin yaz sessiyasında onlayn formatda ilk iclası keçirilib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclası açan komitə sədri Qənirə Paşayeva deputatlara qarşıdan gələn yaz sessiyasında uğurlar arzulayıb. O, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun 30 ildən sonra torpaqlarımızı düşmən tapdağından azad etməsinin xalqımızın tarixi zəfəri olduğunu vurğulayıb, bu münasibətlə həmkarlarını bir daha təbrik edib, şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyib.

Sonra Qənirə Paşayeva 2020-ci ilin payız sessiyası ərzində komitədə görülən işlərin hesabatını təqdim edib. Qeyd edilib ki, hesabat dövründə komitənin 2 iclası keçirilib, 3 məsələ müzakirə edilib ki, onlardan ən vacibi "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" qanuna edilən dəyişikliklərdir. Komitə sədri hesabat dövründə komitədə görülən işlərlə bağlı geniş məlumat verib, deputatların ölkə gündəmində baş verən hadisələrə, işğaldan azad olunmuş ərazilərimizdə mədəniyyət abidələrimizin, maddi-mənəvi irsimizin məhv edilməsi barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında fəal mövqelərini yüksək dəyərləndirib. Bildirib ki, Vətən müharibəsi zamanı dəfələrlə belə faktlarla bağlı deputatlar tərəfindən nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən UNESCO-ya müraciətlər ünvanlanıb.

Qənirə Paşayeva payız sessiyası dövründə komitənin ünvanına daxil olmuş 1389 məktub, təklif, ərizə və şikayətin 1145-nin araşdırılmaq üçün müvafiq təşkilatlara göndərildiyini, yaradıcı təşkilatlardan və insanlardan alınan 200-ə qədər məktubun komitədə araşdırıldığını, onlardan bir çoxunun artıq öz müsbət həllini tapdığını diqqətə çatdırıb.

Hesabat məqbul hesab edildikdən sonra onlayn iclasda Mədəniyyət komitəsinin 2021-ci il yaz sessiyasının qanunvericilik işləri planı müzakirə edilib. Qeyd olunub ki, qarşıdakı sessiyada komitədə "Azərbaycan muğam sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" qanun layihəsi hazırlanacaq, digər vacib sənədlər üzərində iş davam etdiriləcək. Qənirə Paşayeva bildirib ki, yaz sessiyasında komitədə görüləsi işlər xüsusilə çoxdur. Belə ki, Prezident İlham Əliyevin işğaldan azad edilən Şuşa şəhərini Azərbaycan Mədəniyyət Paytaxtı elan etməsi, Şuşada cari ilin may-iyun aylarında "Xarı bülbül" Festivalının və payız aylarında Vaqif Poeziya günlərinin keçirilməsinin planlaşdırılması və 2021-ci ilin "Nizami ili" elan olunması ilə bağlı mühüm layihələr hazırlanır. Komitə sədri bu layihələrin icrası ilə bağlı Mədəniyyət komitəsinin üzərinə düşən vəzifələrdən söhbət açıb.

Sonra komitənin iş planı təsdiqlənib.

Onlayn toplantıda "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə qanun layihəsinə baxılıb. Bu sənədin qardaş ölkə ilə ortaq media platformasının yaradılması və mətbuat sahəsində qarşılıqlı əməkdaşlıq baxımından çox əhəmiyyətli olacağı vurğulanıb.

Sonra komitə üzvləri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda müzakirə ediblər. Qənirə Paşayeva bildirib ki, təklif edilən dəyişikliklərdə ictimai varidata daxil edilmiş Azərbaycan folkloru nümunələrinin və ənənəvi biliklərinin dövlət qeydiyyatına alınması mexanizminin yaradılması, qeydiyyata alınmış folklor nümunələrinə görə şəhadətnamə tərtib edilməsi, bu əsərlərdən istifadəyə görə hesablanan qonorarın müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində dövlət siyasətinin həyata keçirilməsi məqsədilə istifadəyə yönəldilməsi nəzərdə tutulub.

Komitə üzvləri Sabir Rüstəmxanlı, Nizami Cəfərov, Əziz Ələkbərli, Cavanşir Feyziyev, Ülviyyə Ağayeva, Fazil Mustafa, Ülviyyə Həmzəyeva, Mixail Zabelin müzakirə edilən məsələlərlə bağlı fikirlərini bildirib, kino və teatr sənətinin, rəssamlığın inkişafı, yaradıcı insanlara diqqətin artırılması ilə bağlı təkliflərini səsləndiriblər.

Hər iki sənəd Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

# Azərbaycan nəqliyyat-tranzit dəhlizlərinin logistika mərkəzinə çevrilir



Bu gün ölkəmiz nəinki regionun, dünyanın lider ölkələri sırasında olmaqla bərabər, demək olar ki, bütün regional layihələrin əsas tərəfdaşı və təşəbbüskarıdır. Bölgədə yaranmış yeni reallıqlar onu deməyə əsas verir ki, Azərbaycan bu prosesdə mühüm rol oynayır. Enerji, neft-qaz sahələrində irimiqyaslı layihələrin reallaşması ölkəmizin strateji əhəmiyyətini daha da artırıb. Azərbaycan nəinki öz xalqı, həm də qonşu ölkələr, bütövlükdə isə dünya üçün önəmli layihələr icra edir. Artıq Azərbaycan Asiya ilə Avropa arasında yerləşən ölkə kimi Avrasiya məkanında nəqliyyat-logistika sahəsinin inkişafına böyük töhfələr verir. Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor Hicran Hüseynova deyib.

H.Hüseynova bildirib ki, Vətən müharibəsi nəticəsində torpaqlarımızın erməni işğalından azad edilməsi və pandemiya ilə mübarizə fonunda dövlətimiz diplomatiya, iqtisadi, nəqliyyat-kommunikasiya əməkdaşlıq çərçivəsində yeni-yeni uğurlara imza atır. Hazırkı vəziyyətdə Cənubi Qafqazda yeni regional əməkdaşlıq və inteqrasiya üçün əlverişli imkanlar yaranıb. Deputat, eyni zamanda, qeyd edib: "Yanvarın 13-də Azərbaycan, Pakistan və Türkiyənin xarici işlər nazirlərinin üçtərəfli dialoqunun ikinci görüşündə siyasi, strateji, ticari, iqtisadi, sülh və təhlükəsizlik, elm və texnologiya və mədəniyyət sahələri də daxil olmaqla, qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığın davam etdirilməsi üzrə İslamabad Bəyannaməsi qəbul olundu. Yanvarın 16-da Azərbaycan, Əfqanıstan və Türkmənistan arasında ticarət və investisiya, energetika, nəqliyyat və logistika, telekommunikasiya və informasiya texnologiyaları, gömrük, sərhəd məsələləri sahələrində əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi üzrə Yol Xəritəsi imzalandı. Yanvarın 21-də Azərbaycan Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu imzalandı. Bu mərasimlə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında keçirilən görüş zamanı Anlaşma Memorandumunun hazırkı və gələcək əhəmiyyəti haqqında bir çox məsələlər qeyd olundu".

Komitə sədri bildirib ki, hazırda əldə olunan nailiyyətlər Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra aparılmış uzaqgörən siyasət nəticəsində 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" yeni ikitərəfli və çoxtərəfli əməkdaşlıqların qurulmasına etibarlı zəmin yaratdı. Eyni zamanda, Xəzər dənizində neft yataqlarının işlənilməsi və hasilatının pay bölgüsü üzrə sahilyanı ölkələr arasında müxtəlif sənədlərin imzalanmasına səbəb oldu. Bu çərçivədə 2001-ci il noyabrın 29-da "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında Saziş", 2002-ci il sentyabrın 23-də "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında Saziş" və 2003-cü il mayın 14-də "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölgü xətlərinin kəsişmə nöqtəsi haqqında Saziş"in imzalanması mühüm tarixi hadisələrdir. Qeyd etmək lazımdır ki, Azərbaycan davamlı olaraq Xəzər dənizində dialoq, qarşılıqlı anlaşma, əməkdaşlıq və sabitlik mühitinin formalaşdırılması üçün çalışıb və bu dənizin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində müxtəlif səylər göstərib. Bu gərgin zəhmət sayəsində Xəzəryanı dövlətlər arasında qarşılıqlı kompromis və mövqelərin yaxınlaşmasına nail olunub, 2018-ci ildə Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalanıb. Aparılan məqsədyönlü strategiyanın nəticəsi olaraq, bu günlərdə Azərbaycan ilə Türkmənistan arasında Anlaşma Memorandumunun imzalanması üçün tarixi şərait yarandı. Bu isə o deməkdir ki, TransXəzər boru kəməri layihəsi üçün son maneə də aradan qalxdı", - deyə komitə sədri diqqətə çatdırıb.

H.Hüseynovanın sözlərinə görə, memorandum istər iki dost və qardaş ölkənin enerji sahəsində əməkdaşlığının möhkəmləndirilməsi, istərsə də bütövlükdə, regionumuzda yeni tərəfdaşlıq və tranzit kommunikasiyalarının inkişafı perspektivləri baxımından əhəmiyyətlidir. Azərbaycan hazırda "Cənub qaz dəhlizi"ni (SGC) formalaşdıran Trans-Anadolu qaz boru kəməri (TANAP) və bu yaxınlarda başa çatdırılmış Trans-Adriatik kəməri (TAP) vasitəsilə Türkiyə və Avropa bazarlarına təbii qaz tədarük edir. Yaxın gələcəkdə Azərbaycanın Avropaya daha çox təbii qaz ötürməsi üçün "Dostluq" yatağı daha böyük perspektivlər vəd edir. Hər iki ölkə başçısının qeyd etdiyi kimi, "Xəzər mehriban qonşuluq dənizi, əməkdaşlıq dənizidir". Xalqlarının gələcəyi naminə aparılan əməkdaşlıq ölkələrimizin onilliklər boyu davamlı inkişafını təmin edəcəkdir. Beləliklə, Türkmənistan Azərbaycan vasitəsilə əsas istehlak bazarı olan Avropaya çıxış imkanını əldə edir. Bu isə neft və qaz ixracatçısı olan Azərbaycanın həm də tranzit ölkə kimi əhəmiyyətini daha da artıracaq. Qeyd etdiyimiz kimi, Azərbaycan, Türkmənistan və Türkiyə arasında, həmçinin Azərbaycan, Əfqanıstan və Türkmənistan arasında üçtərəfli əməkdaşlıq formatları artıq mövcuddur. Bu əməkdaşlıq konkret nəticəyə, biznes fəaliyyəti, iri infrastruktur layihələrinin reallaşdırılması üçün daha əlverişli şərait yaradılmasına yönəldilib. Azərbaycan ilə Türkmənistan arasında memorandumun imzalanması Mərkəzi Asiyanın enerji resurslarını Avropa bazarına çıxaracaq TransXəzər layihəsinə "yaşıl işığın" yandırılması hesab oluna bilər. Hasil olunacaq qazın Azərbaycana və TAP vasitəsilə Avropaya çatdırılması gözlənilir. Bu saziş Avropa İttifaqı ölkələri tərəfindən müsbət qarşılanacaq.

"Qlobal transmilli layihələr sayəsində sosial rifah və iqtisadi inkişaf sahəsində çox mühüm məsələlər öz həllini tapır. Həm Azərbaycan, həm də Türkmənistan investisiyalar üçün açıqdır. Xarici şirkətlər hər iki ölkəyə Azərbaycana inamla böyük vəsait yatırırlar. Prezident İlham Əliyevin də vurğuladığı kimi, onlar əmindirlər ki, vəsaitləri qorunacaq, bizim ölkələrdə siyasi sabitliyə əmindirlər, o da bu gün ən mühüm inkişaf amilidir. Siyasi sabitlik ölkələrin inkişafında strateji əhəmiyyət kəsb edir. Əlbəttə ki, bu uğurlu əməkdaşlığa zəmin yaradan digər mühüm amillərdən biri də humanitar faktordur. Ölkələrimizin həm tarixi, həm də mədəni baxımdan oxşarlığı, ortaq köklərimiz, ortaq dilimiz, ortaq dinimiz və bir sıra digər mövcud sosial-mədəni təzahürlərin potensialı səmərəli əməkdaşlığın yaranmasının əsas səbəblərindəndir", - deyə deputat qeyd edib.

# Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin yaz sessiyası üçün iş planı təsdiqlənib

Yanvarın 26-da Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin cari ilin yaz sessiyasında videokonfrans formatında ilk iclası keçirilib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, komitə sədri Sadiq Qurbanov iclası açaraq sessiyanın başlaması münasibətilə deputatları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Diqqətə çatdırılıb ki, iclasın gündəliyinə 2020-ci ilin payız sessiyası dövründə komitədə görülən işlər barədə hesabat və komitənin 2021-ci ilin yaz sessiyası üçün iş planı ilə bağlı məsələlər daxil edilib.

Sadiq Qurbanov məlumat verib ki, 2020-ci ilin payız sessiyası dövründə komitənin 3 iclası keçirilib, 5 məsələyə baxılıb. Belə ki, komitədə "Ətraf mühitin mühafizəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihələri müzakirə olunub. Komitə üzvləri, həmçinin Milli Məclisin plenar iclaslarında baxılan məsələlərin, o cümlədən 2021-ci ilin büdcə zərfinə daxil olan qanun layihələrinin müzakirələrində fəal iştirak edib, bir sıra təkliflər veriblər.

Bildirilib ki, ötən sessiya ərzində komitənin sədri və üzvləri təbii ehtiyatlar, energetika, ətraf mühit məsələlərinə həsr olunmuş onlayn formatda keçirilən konfranslarda, seminarlarda iştirak edib, müzakirə olunan mövzularla bağlı öz münasibətlərini bildiriblər. Deputatlar təmsil olunduqları parlamentlərarası əlaqələr üzrə işçi qrupları çərçivəsində keçirilən onlayn tədbirlərdə iştirak edib, Azərbaycanda səfərdə olan bir sıra ölkələrin parlament dostluq qruplarının nümayəndələri ilə görüşlər keçiriblər.

Qeyd olunub ki, hesabat dövründə komitəyə vətəndaşlardan və bir sıra təşkilatlardan müxtəlif məzmunlu 30 məktub, ərizə və sənəd daxil olub. Məktublarda göstərilən problemlərin həlli ilə əlaqədar aidiyyəti qurumlara müraciət olunub. Komitə üzvləri tərəfindən seçicilər, şəhid ailələri və qazilərlə də bir sıra görüşlər keçirilib, onları narahat edən məsələlərin həlli istiqamətində müvafiq tədbirlər görülüb.

Məlumat verilib ki, komitənin 2021-ci ilin yaz sessiyasının iş planına ölkə Prezidentinin, Milli Məclisin deputatlarının, Ali Məhkəmənin, Baş Prokurorluğun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdikləri qanun layihələri, həmçinin bir sıra qanunlarda dəyişikliklərin edilməsi ilə bağlı sənədlər daxil edilib.

Yaz sessiyası ərzində komitədə müvafiq dövlət qurumlarından, QHT-lərdən və vətəndaşlardan daxil olan təkliflərin təhlili, komitə üzvlərinin təbii ehtiyatlar, energetika və ətraf mühit mövzusunda keçiriləcək toplantılarda, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçiriləcək quruculuq işləri ilə bağlı maarifləndirici tədbirlərdə iştirakı nəzərdə tutulub.

Komitə üzvləri Nəsib Məhəməliyev, Asim Mollazadə, Fatma Yıldırım, İltizam Yusifov, Məşhur Məmmədov, Mixail Zabelin, Naqif Həmzəyev, Əliabbas Salahzadə, Anar Məmmədov çıxış edərək hesabat və iş planı barədə öz fikirlərini açıqlayıblar, bir sıra təkliflər səsləndiriblər.

Deputatlar komitənin ötən sessiyada səmərəli fəaliyyət göstərdiyini bildiriblər, ölkədə su ehtiyatlarının idarə olunması, qaz təchizatı, meşələrin qorunması, yeni yaşıllıq sahələrinin yaradılması, alternativ enerji mənbələrindən istifadə edilməsi və digər məsələlərə toxunublar. 2020-ci ilin Zəfər ili kimi yaddaşlarda qaldığını deyən deputatlar 2021-ci ildə Qarabağda yenidənqurma və bərpa işlərinin, o cümlədən təbiətə dəyən zərərin aradan qaldırılması sahəsində həyata keçiriləcək tədbirlərin əhəmiyyəti barədə söhbət açıblar.

Onlayn iclasda 2020-ci ilin payız sessiyasında komitədə görülən işlər barədə hesabat məqbul sayılıb, 2021-ci ilin yaz sessiyasının iş planı təsdiq edilib.

## İlin uğurlu yekunları

2020-ci il pandemiya səbəbindən dünyanın bütün dövlətləri üçün olduqca ağır bir dövr kimi yadda qaldı. Bəşəriyyəti çənginə almış virus səbəbindən qlobal iqtisadiyyatda ciddi geriləmələr baş verdi, ənənəvi iqtisadi əlaqələr kifayət qədər azaldı. Azərbaycan üçün də bu dövrdə sərhədlərin bağlanması, karantin rejiminin tətbiqi iqtisadi fəallığa təsirsiz ötüşmədi. Lakin dövlətimiz üçün 2020-ci ilin ən böyük hadisəsi olan torpaqlarımızın işğaldan azad edilməsi bütün bu kimi çətinlikləri arxa plana keçirdi. Bəli, 2020-ci il xalqımız üçün olduqca əlamətdar dövr kimi tarixə qovuşdu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz işğalçı Ermənistanın silahlı qüvvələrini məğlubiyyətə uğradaraq 30 ilə yaxın idi gözlədiyimiz tarixi ədaləti güc yolu ilə təmin etdi. Cənab İlham Əliyevin dediyi kimi, artıq "Dağlıq Qarabağ problemi" anlayışı yoxdur və Azərbaycanın ərazi bütövlüyü bərpa olunub.



# Azərbaycanı dünyada şərəfləndirən qələbə

### Müzəffər Ali Baş Komandan İlham Əliyev respublikamızın ərazi bütövlüyünü bərpa etməklə öz tarixi missiyasını uğurla yerinə yetirdi

### İlham ƏLİYEV: "Bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır"

Azərbaycanın dövlətçilik tarixi savaşlarla doludur. Mayası azadlıq, milli dövlətçilik mübarizələri ilə yoğrulan dövlətlərimiz şanlı keçmişimiz, qürur mənbələrimizdir. Zaman bəzən bizi ağır sınaqlara çəksə də, artıq yenidən tariximizin şərəfli səhifələri yazılır. Heydər Əliyevin müəyyən etdiyi, İlham Əliyevin layiqincə davam etdirdiyi siyasi xəttin nəticəsi olaraq güclü Azərbaycan dövlətinin yaranması bu gün bütün dünyanın etiraf etdiyi reallıqdır. Son olaraq yanvarın 6-da 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirədə Prezident İlham Əliyev bir daha bu barədə danışaraq Azərbaycan dövlətinin özünün ən şanlı dövrünü yaşadığını dedi: *"Mən son illər ərzində ölkəmizin hərtərəfli inkişafını dilə gətirərək deyirdim ki, bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Çünki Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır. Bu gün bu, həm siyasi güсdür, iqtisadi gücdür, xalq-iqtidar birliyidir, hərbi gücdür və bizim regionda oynadığımız müsbət roldur. Biz bu gücdən istifadə edərək qarşımızda duran əsas vəzifəni şərəflə yerinə yetirdik. Ermənistan ordusu 44 gün ərzində darmadağın edildi, demək olar ki, Ermənistan ordusu yoxdur".*

Bəli, bu reallıqdan çıxış edərək xalqımız öz tarixinin yeni yüksəliş salnaməsini yaradır. Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun davamı, eyni zamanda bu siyasətin dövrün çağırışlarından irəli gələrək zənginləşdirilməsi Azərbaycanı tarixinin ən inkişaf etmiş, ən güclü dövlətinə çevirib. Bugünkü Azərbaycanla nəinki müstəqilliyimizin ilk illərinin, heç 10 il əvvəlin Azərbaycanı arasında fərq müqayisəolunmazdır. İlham Əliyevin düşünülmüş, əsaslandırılmış siyasəti nəticəsində dövlətimiz hər il əvvəlki ildən daha möhtəşəm nailiyyətlərə imza atır.

2005-ci ildən öz neftini Avropaya çatdıran Azərbaycan indi Xəzərdən hasil edilən mavi qazı dünya bazarlarına çıxarır. Məhz respublikamızın təşəbbüsü və maliyyəsi ilə Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xətti çəkilib. Hazırda bu dəmir yolu tranzit şəbəkələrinin genişləndirilməsi ilə bağlı beynəlxalq razılaşmaların prioritet infrastrukturudur. Ümumiyyətlə isə son illərdə yol-nəqliyyat infrastrukturunun genişləndirilməsi nəticəsində Azərbaycan həm Qərb-Şərq, həm də Şimal-Cənub istiqamətlərində regionun ən aparıcı tranzit qovşağına çevrilib. Bu gün Çindən Avropaya və əks istiqamətdə yüklərin daşınmasının ən sürətli və etibarlı yolu məhz Azərbaycandan keçir. Təsadüfi deyil ki, Çin dövləti Azərbaycandan keçən tranzit yolları yüksək dəyərləndirərək bunu özünün prioritetləri sırasına daxil edib.

İlham Əliyevin inkişaf siyasətinin nəticəsi kimi Azərbaycan həm də kosmik klubun üzvüdür. Son illərdə fəzaya göndərilən üç peykimiz ölkəmizin inkişafına, maliyyə gəlirlərinin artmasına mühüm töhfələr verir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan müharibəni deyil, döyüşü uduzmuşdu. Çünki 1994-cü ildə imzalanan atəşkəs müharibənin bitməsi deyildi. O illərdən Heydər Əliyevin başlatdığı siyasət Azərbaycanda gələcək inkişafın təməlini qoydu. İslahatlar, neft kontraktları Azərbaycanı getdikcə daha güclü dövlət etdi və təbii ki, bu amillər ölkənin beynəlxalq nüfuzunun artmasında, mövqelərinin möhkəmlənməsində, həqiqətlərinin dünya tərəfindən tanınmasında böyük rol oynadı.

Beləliklə, Vətən müharibəsindəki qələbə Azərbaycanın inkişaf salnaməsinin ən parlaq səhifəsidir. 44 günlük müharibədə qazanılan qələbə göstərdi ki, Prezident İlham Əliyev Azərbaycanın yüksəlişini, neft və qazdan gələn gəlirləri uğurla ölkəmizin milli maraqlarının təmin olunmasına yönəldir. Bu qələbə ilə bağlı hələ çox danışılacaq. Üstündən illər, onilliklər, hətta yüzillər ötsə də, Azərbaycanın bu tarixi qalibiyyətinə müraciət ediləcək, bir dövlətin, bir xalqın öz haqq işi uğrunda mübarizəsi bütün dünyada nümunə kimi göstəriləcək. Bu qələbə həm də tədqiq ediləcək və böyük olmayan dövlətin belə möhtəşəm uğura nail olmasının səbəbləri tarixboyu ciddi öyrəniləcək, araşdırılacaq.

### Ermənistanın danışıqlar prosesindəki mövqeyi və təxribatları müharibəni qaçılmaz etdi

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair hələ Birinci Qarabağ müharibəsinin gedişindən başlanmış danışıqlarda bütün beynəlxalq hüquq ölkəmizin tərəfində olub. İlk növbədə ona görə ki, vaxtilə sovet dövlətinin yaratdığı Dağlıq Qarabağ Muxtar Vilayətinin əraziləri tarixi Azərbaycan torpaqlarıdır və onun digər 15 respublika kimi müstəqilliyini elan etməsi üçün heç bir hüquqi çərçivə yoxdur. Digər tərəfdən, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bütün dövlətlər Dağlıq Qarabağı respublikamızın ərazisi kimi tanıyıblar. Azərbaycan dünyanın ən mötəbər beynəlxalq təşkilatı olan BMT-yə və digər beynəlxalq qurumlara üzv qəbul olunanda Dağlıq Qarabağ Azərbaycanın ərazisi kimi tanınıb.

Dağlıq Qarabağın Azərbaycanın tarixi ərazisi olması bütün dünyaya, hətta erməni xalqının özünə də yaxşı məlumdur. Ermənilərin bu torpaqlara necə gəlib çıxmasını da xüsusi sübut etməyə və araşdırmağa ehtiyac yoxdu. 1805-ci ilin may ayında Rusiya ilə Kürəkçay müqaviləsini azərbaycanlı İbrahim xan imzalamışdı və həmin müqavilədə ermənilər barədə heç bir şey deyilmir. O da məlumdur ki, Qarabağa ilk 200 erməni ailəsinin köçürülməsinin 150 illiyi münasibətilə 1978-ci ildə keçmiş Ağdərə rayonunun Marağa kəndində abidə qoyulmuşdu. Üzərində ermənicə "Marağa-150" yazılmış abidə 1988-ci ildə Azərbaycana ərazi iddiaları başladan ermənilərin özləri tərəfindən dağıdılıb.

Belə faktlar tarixdə kifayət qədərdir və 30 ilə yaxın idi davam edən danışıqlar prosesində regionla bağlı həqiqətləri beynəlxalq ictimaiyyət, ayrı-ayrı təşkilatlar və Minsk qrupunun həmsədrləri daha yaxından dərk etdilər. Təəssüf ki, 30 ilə yaxın davam edən danışıqlar prosesində Azərbaycanın beynəlxalq hüquqla təsbit olunmuş haqlı mövqeyi elə beynəlxalq təşkilatlar və ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən müdafiə olunmadı. Odur ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin müharibə yolu ilə həllinə gətirib çıxaran əsas səbəblərdən biri beynəlxalq təşkilatların məsələyə illərdir laqeyd yanaşması, işğalçıya qarşı təsirli mexanizmləri işə salmaması idi. Son onilliklərin beynəlxalq hərbi-siyasi mənzərəsi göstərir ki, ayrı-ayrı təşkilatlar, xüsusən BMT, NATO, ATƏT, Avropa Şurası hansısa dövlətlərin maraqları naminə lazım gələndə beynəlxalq hüququn təmin olunması istiqamətində qətiyyətli addımlar atır, siyasi və hərbi məzmunlu qərarlar qəbul edirlər. Lakin Azərbaycan torpaqlarının işğalına münasibətdə bunların heç biri baş vermədi. Bütün dünyanın gözü qarşısında Ermənistan beynəlxalq hüquq normalarını kobud şəkildə pozdu, Azərbaycanın ərazi bütövlüyünə qəsd olundu. BMT-nin 1993-cü ildə qəbul etdiyi 4 qətnamə, o cümlədən ATƏT-in və Avropa Şurasının müxtəlif illərdə qəbul etdiyi sənədlər kağız parçasına çevrildi. Məqsəd zaman keçdikcə problemi xalqımıza unutdurmaq və torpaqlarımızın Ermənistana ilhaqına nail olmaq idi.

Bütün bunlara baxmayaraq, Azərbaycan dövləti öz yolundan dönmədi, haqlı mövqeyinin beynəlxalq dəstək alması, Ermənistanın siyasi-diplomatik ifşası üçün inamla mübarizəsini davam edirdi. O cümlədən Prezident İlham Əliyevin sülh danışıqlarının nəticəsiz qalacağı təqdirdə torpaqlarımızın müharibə yolu ilə azad olunacağını istisna etmədi. *"Mən demişdim ki, tarixi Azərbaycan torpaqlarında heç vaxt ikinci erməni dövləti yaradılmayacaq. Mən demişdim ki, heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək. Mən demişdim ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq. Demişdim ki, biz bu məsələni istənilən yolla həll edəcəyik və etdik, bütün təzyiqlərə, təhdidlərə baxmayaraq. Baxmayaraq ki, dünyada kifayət qədər güclü erməni lobbisi var. Dünyada bir çox aparıcı dövlətlər Ermənistanı dəstəkləyir və müharibə dövründə biz bunu açıq-aşkar görürdük, bəzi ölkələr bunu gizlədə bilmirdilər. Bu dəstək Ermənistana nə verdi? Heç nə. Bizim gücümüz, iradəmiz qarşısında bu dəstək sıfra bərabər oldu. Hər kəs gördü ki, bizi heç kim və heç nə dayandıra bilməz. Mən deyəndə ki, biz axıra qədər gedəcəyik, sözümə əməl etdim. O vaxt dayandıq ki, Ermənistan öz alçaldıcı məğlubiyyətini etiraf etdi, diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu",* - deyə İlham Əliyev bildirmişdir.

Azərbaycanın danışıqlar prosesinə sadiqliyinə baxmayaraq, 2019-cu ilin avqust ayından sonra Ermənistanın təxribatları bu prosesin tamamilə dayanmasına səbəb oldu. Bu baxımdan müharibə birdən-birə başlamadı və Ermənistanın təxribatlarının məntiqi yekunu Azərbaycanın hərbi yolla ərazilərini işğaldan təmizləməsinə gətirib çıxardı. Belə ki, hakimiyyətə gəldikdən sonra Dağlıq Qarabağ probleminin həllinə dair danışıqlara zidd olan açıqlamalar verən, formatın dəyişdirilməsindən, danışıqlara separatçı rejimin cəlb olunmasından dəm vuran Ermənistanın baş naziri Nikol Paşinyan daha sonra tarixin ironiyası nəticəsində tutduğu vəzifənin eyforiyasından ruhlanaraq regional siyasətdə köklü dəyişikliklər etmək eşqinə düşdü. Hakimiyyətini möhkəmləndirdikdən sonra onun verdiyi bəyanatlar göstərdi ki, Ermənistanın həyata keçirdiyi siyasət, ümumiyyətlə, danışıqların mahiyyətinə və məzumuna uyğun deyil. "Qarabağ Ermənistandır" bəyanatı, Azərbaycanın qarşısında qoyulan 7 şərt, "Yeni ərazilər üçün yeni müharibə" konsepsiyasının irəli sürülməsi kimi sərsəm addımlar və nəhayət, ötən ilin iyulunda Tovuza hücum edilməsi bu ölkə ilə sivil danışıqları tamamilə mənasız hala gətirdi. Bunların davamı kimi avqustda Goranboy istiqamətində diversiya-kəşfiyyat təxribatı, Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşdırma siyasətinin aparılması, Ermənistanda könüllü hərbi birliklərin yaradılması təsdiqlədi ki, işğalçı ölkə probIemin həllində bütün konstruktiv yanaşmalardan uzaqdır. Üstəlik, cəbhə xəttinə yeni hərbi qüvvələr cəmləməsi Ermənistanın yeni işğalçılıq niyyətlərindən xəbər verirdi.

Prezident İlham Əliyev bununla bağlı BMT-ni, ATƏT-in Minsk qrupunun həmsədrlərini zamanında xəbərdar etmişdi. Son olaraq İlham Əliyev sentyabr ayında BMT-nin Baş Assambleyasının 75-ci sessiyasının ümumi müzakirələrdə çıxışı zamanı Ermənistanın Azərbaycana qarşı yeni hərbi təxribata hazırlaşdığı ilə bağlı xəbərdarlıq etmişdi. O cümlədən hərbi əməliyyatların başlanmasından bir neçə gün əvvəl Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüş zamanı kəşfiyyat məlumatlarına əsasən, Ermənistanın çox ciddi hərbi hazırlıqlar həyata keçirdiyini, hərbi qüvvələri təmas xəttində, dövlət sərhədində cəmləşdirdiyini demişdi.

İlham Əliyev beynəlxalq təşkilatları həm də Ermənistana qarşı təsirli mexanizmlər tətbiq etməyə çağırdı. Əlbəttə, beynəlxalq təşkilatlar, o cümlədən müharibə davam edən günlərdə İlham Əliyevi danışıqlara dəvət edən dövlətlər vaxtında Ermənistana təsir etsəydilər, cəbhədə yenidən hərbi əməliyyatlar başlamazdı və problemin sülh yolu ilə həlli istiqamətində faydalı danışıqlar aparılardı.

### Böyük qələbənin başlanğıcı

Sentyabrın 27-də Ermənistanın cəbhə xəttində törətdiyi hərbi təxribat Prezident İlham Əliyevin nə qədər haqlı və uzaqgörən olduğunu göstərdi. Həmin gün səhər saatlarında Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək, iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından istifadə etməklə Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı, Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərini intensiv atəşə tutdu. Bunun da nəticəsində mülki əhali və hərbi qulluqçular arasında həlak olanlar və yaralananlar var idi.

Prezident İlham Əliyev döyüşlərin başlanmasından bir neçə gün əvvəl Ermənistanın təxribatları barədə dünya ictimaiyyətini xəbərdar edərkən onu da bildirmişdi ki, əgər Ermənistan hücum etsə, peşman olacaqlar. Beləliklə, sentyabrın 27-də səhər saatlarında düşmənin hərbi təxribatından sonra Azərbaycan Silahlı Qüvvələri Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və təmas xətti boyunca sıx şəkildə yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə özünü müdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət etməklə əks-



hücuma və cavab tədbirlərinin həyata keçirilməsinə başladı.

Sentyabrın 27-də xalqa müraciət edən Prezident İlham Əliyevin mülki əhali və hərbçilər arasında itkilərin olduğunu bildirərək, onların qanının yerdə qalmayacağını, torpaqlarımızın işğaldan azad olunacağını bəyan etdi: *"Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"*

Elə həmin gün düşmənin ön xətti yarıldı və Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndlərinin işğaldan azad olunduğu bildirildi. Döyüşlərin gedişi ilə bağlı Azərbaycan vətəndaşlarına operativ məlumat çatdırılacağını deyən İlham Əliyev əldə edilmiş ilk uğurlar münasibətilə Azərbaycan xalqını və Azərbaycan Ordusunu təbrik etdi.

### Suqovuşan və Cəbrayılda Azərbaycan bayrağı ucaldıldı

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev növbəti qələbə müjdəsini oktyabrın 3-də özünün rəsmi "Twitter" səhifəsindən bəyan etdi: "Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!" Elə həmin gün dövlət başçısı Madagizin tarixi adını bərpa edərək Suqovuşan adlandırdı. İlham Əliyev bu hadisə münasibətilə 1-ci Ordu Korpusunun komandiri Hikmət Həsənovu təbrik etdi və həmçinin təbriklərini korpusun bütün şəxsi heyətinə çatdırmağı tapşırdı. Ali Baş Komandana öz təşəkkürünü bildirən Hikmət Həsənov Prezidenti əmin etdi ki, 1-ci Ordu Korpusu Ali Baş Komandan tərəfindən qarşısında qoyulmuş bütün vəzifələri şərəflə yerinə yetirəcək.

Oktyabrın 3-də, gecə saatlarında isə Prezident İlham Əliyev "Twitter" səhifəsində Azərbaycan Ordusunun Tərtər rayonunun Talış kəndini, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndini azad etdiyini xalqa çatdırdı.

Oktyabrın 4-də isə növbəti qələbə xəbəri gəldi. "Bu gün Azərbaycan ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!" - deyə İlham Əliyev "Twitter" səhifəsində yazdı. Həmin gün xalqa müraciət edən İlham Əliyev Cəbrayıl şəhərini, həmçinin rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal və Cəfərabad kəndlərinin azad olunduğunu bildirdi. *"Bu gün Cəbrayılın işğaldan azad edilməsi Ermənistana, onun havadarlarına dərs olmalıdır. Mən hadisələrdən əvvəl demişdim. Orada təxribat törətdi, dərs verdik, dərs olmadı. Burada təxribat törətdi, dərs verdik, dərs olmadı. Nəhayət, bu dəfə təxribat törətdi, dərs verdik, indi dərs oldu. Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"* - deyə İlham Əliyev bəyan etdi.

Cəbrayıl şəhərinin və rayonunun 9 kəndinin işğaldan azad olunması münasibətilə Ali Baş Komandan birlik komandirləri - general-mayor Mayis Bərxudarovu, general-mayor Hikmət Mirzəyevi və onların rəhbərlik etdikləri şəxsi heyəti təbrik etdi. Generallar İlham Əliyevə təşəkkürlərini bildirərək əmin etdilər ki, qarşıya qoyulmuş bütün vəzifələri bundan sonra da şərəflə yerinə yetirəcəklər.

Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəklik isə qəhrəman ordumuzun uğurlu əməliyyatları ilə oktyabrın 5-də azad edildi.

### Növbəti qələbə xəbəri Hadrutdan gəldi

Oktyabrın 9-da, Azərbaycan xalqına döyüşlər başlayandan sonra sayca üçüncü müraciətini edən Prezident İlham Əliyev növbəti qələbə müjdəsini çatdırdı. Xocavənd rayonunun Hadrut qəsəbəsinin və Sur kəndinin, Tərtər rayonunun Çaylı, Füzuli rayonunun Yuxarı Güzlək, Gorazıllı, Cəbrayılın Qışlaq, Qaracallı, Əfəndilər və Süleymanlı kəndlərinin azad edilməsi Azərbaycan Ordusunun müzəffər yürüşünün uğurla və inamla davam etdiyini göstərdi.

Qeyd edək ki, artıq həmin tarixə qədər, yəni müharibənin 12 günü ərzində Azərbaycan Ordusunun Ermənistana vurduğu zərbənin miqyası kifayət qədər güclü və miqyaslı idi. Belə ki, qısa müddətdə Ermənistan ordusunun 16 komanda məntəqəsi, 196 tankı, 38 BM-21, 1 "Uraqan", 8 "Akasiya", 2 "Qvozdika" artilleriya qurğuları, 36 piyadaların döyüş maşını, 24 artilleriya batareyası, 2 hava hücumuna qarşı müdafiə vasitəsi, 2 "S-300" kompleksinin buraxıcı qurğusu, 25 OSA zenit-raket kompleksi, 2 KUB zenit-raket kompleksi, 4 "Repelend" radio-texniki maneə vasitəsi, 136 top, 56 minaatan, 1 TOS-1A odsaçan sursatı, 2 radiolokasiya stansiyası, 1 "Kalçuqa" anteni məhv edilmişdi. 18 tank, 4 top, 22 piyadaların döyüş maşını, 12 minaatan, 4 UAZ maşını, 1 ekskavator, 27 "İqla" kompleksi, 1 ZİL maşını, 9 QAZ maşını isə qənimət götürülmüşdü.

Həmin günlərdə Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın qarşısında davam gətirə bilmədiklərini görüb dayanmadan ayrı-ayrı dövlətlərin rəhbərlərinə zəng edirdi. Azərbaycan Ermənistanı, sözün əsl mənasında, peşman etmişdi. Erməni mənbələri nə qədər gizlətməyə çalışsalar da, hər gün bu ölkənin şəhər və kəndlərinə saysız-hesabsız əsgər meyitləri gedirdi və xəstəxanalarda yaralı əlindən yer qalmamışdı.

İlham Əliyevin şərtləri isə ilk gündən aydın idi. Düşmənin xilasının yeganə yolu torpaqlarımızdan çıxması idi. *"Ermənistana axırıncı şans veririk, axırıncı şans! Heç kimə ümid bağlamasın. Heç kim onlara kömək etməyəcək. Bizim qabağımızda Ermənistan acizdir. Bizim qabağımızda Ermənistan diz çöküb. Bizim şəhidlərimizin ruhu qarşısında biz onları diz çökdürmüşük",* - deyə İlham Əliyev oktyabrın 9-da etdiyi müraciətdə bildirirdi.

Amma Ermənistanın siyasi-hərbi rəhbərliyi bu reallığı dərk edə bilmədi və Moskvada əldə olunmuş humanitar razılaşmanı da işğalçı pozaraq Azərbaycanın azad etdiyi əraziləri geri qaytarmağa cəhd göstərdi və bundan sonra başlanan yeni hücum əməliyyatları ilə ordumuz qələbə qazanmağını davam etdirdi. Oktyabrın 14-də Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri, oktyabrın 15-də Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri, oktyabrın 15-də isə Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri işğaldan azad edildi.

*(Ardı var)*

***Ziyad SƏMƏDZADƏ,***
***AMEA-nın həqiqi üzvü,***
***Milli Məclisin deputatı***

# Azadlıqdan dirçəlişə

*Əvvəli 1-ci səh.*

Bu qədim şəhərin 28 ildən sonra - 2020-ci ilin 8 noyabr günü Azərbaycan Ordusunun Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyəti, hünəri, əsgər və zabitlərimizin rəşadəti sayəsində düşməndən geri alınması ömrümüzün ən böyük bayramına çevrildi, qanı kəsilməyən yaralara məlhəm oldu. Şuşa həsrətimizə son qoyuldu.

Cənab İlham Əliyevin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva və qızları Leyla Əliyeva ilə birgə Şuşaya səfəri uzun illər bu şəhərin həsrəti ilə odlanmış qəlbimizə su çilədi. Onlarla birgə Şuşaya bütün Azərbaycan, böyük bir izdiham gedirdi. Dünyada yaşayan bütün azərbaycanlılar Şuşaya varid olurdu.

Mehriban xanımın yolboyu çəkdiyi kadrlar, Şuşaya aparan yolun təsvirləri, təbiətin mənzərələri, Şuşanın görüntüləri sərin su kimi ürəyimizə hopurdu. Təsvirlərdə əks olunmuş bu yol hər gün gedib gəldiyimiz, qət etdiyimiz adi yollardan deyil. Bu yol müqəddəs yoldur. Qələbəmizin qanadlarında qayıdışımızı 28 il həsrətlə gözləyən zəfər yoludur. İztirablarımıza son qoyan, ülvi arzularımıza çatdıran müqəddəs yoldur.

Bu yoldan Şuşanı azad etmiş igidlərimiz keçib gedib. Bu yola Azərbaycanın Zəfəri naminə canını fəda etmiş şəhidlərimizin qanı qarışıb. Bu yol qəlbimizdən başlanır, ruhumuza qovuşur.

Hazırda dövlət rəhbərimizin tapşırığı ilə Şuşanın yeni yolunun tikintisi sürətlə davam etdirilir. Tezliklə qələbəmizin simvoluna çevrilmiş bu yol hazır olacaq. Azərbaycan Prezidenti də xüsusi vurğuladı ki, Şuşaya gedən yol geniş olmalıdır. Azərbaycanın hər yerindən, dünyanın bütün məkanlarından ülviyyət şəhərinə doğru hamar, cənnətə aparan yol başlanacaq. Yaddaşımızda bir çox milli dəyərimizi rəmzləşdirən Şuşa həm də milli birliyimizin, həmrəyliyimizin, Azərbaycanlı olmaq qürurumuzun, Vətənə sevgimizin nümunəsi kimi əbədiləşəcək. Şuşaya aparan yol həsrətli keçmişimizdən qürurlu gələcəyimizə aparan vüsal yolu olacaq. Bu yolun üstündə qüdrətli əlləri ilə xoşbəxt gələcəyi nişan verən Ulu Öndərin möhtəşəm heykəlini görürəm.

## Qələbənin rəmzi

Azərbaycan Prezidenti Şuşaya qalib fateh kimi getdi. Öz varlığını, iradəsini, gücünü, qətiyyətini, ona məhəbbətlə dəstək verən xalqımızın vəhdətini, qələbəmizin sevincini Şuşaya ən qiymətli hədiyyə kimi apardı, arzularına yetişmiş, mənfur düşmənə qalib gəlmiş sərkərdə kimi!

Bu səfər 28 illik işğaldan, ayrılıqdan, əzab və iztirablardan canımızda qalmış sıxıntıları tam qoparıb atdı. Şuşanın azad edilməsi Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər Ordumuzun nail olduğu çox mükəmməl qələbədir. Bəlkə də hadisələrin bilavasitə içində olduğumuzdan bu qələbənin mahiyyətini hələ tam dərinliyi ilə dərk edə bilmirik. Amma illər, əsrlər ötəcək, gələcək nəsillər Şuşa qələbəsi ilə, bu Vətən müharibəsindəki Zəfərimizlə həmişə qürur duyacaq, Vətən torpağının müqəddəsliyini dərk edib, bu qələbədən ürəklər riqqətə gələcək. Onun qüruru işığında qəhrəman övladlarımız yetişəcək. Bu qələbənin heyrətamiz təcrübəsi dünyanın ən məşhur hərbçilərinə, sərkərdələrinə örnək olacaq.

Azərbaycan Prezidenti Şuşaya səfəri ilə bizim sevincimizə qısqananlara, bizi istəməyənlərə göz dağı çəkdi. Özünün də dediyi kimi, dostlarımız sevinsin, düşmənlərimiz kor olsun.

Düşmən Şuşanın bizim üçün nə demək olduğunu yaxşı bilirdi. Ona görə geniş işğal prosesinə 1992-ci ilin mayında Şuşadan başlamışdı. Məqsəd milli ruhumuzu sarsıtmaq şəraitində işğal niyyətlərinə daha asan nail olmaq idi. Əfsuslar olsun ki, o zaman düşmən bu niyyətinə çatdı. Şuşa kimi qeyrət qalamızın müdafiəsini lazımi şəkildə təşkil etməkdənsə, başı Bakıda hakimiyyət davalarına qarışmış ünsürlərin xəyanəti nəticəsində qürurumuzun, iftixarımızın məskəni Şuşa əldən getdi. Halbuki hərb elmindən az-çox anlayışı olan hər kəs bilir ki, ovaxtkı hakimiyyət nümayəndələrinin və onların yerinə keçmək üçün hər cür oyundan çıxan Azərbaycan Xalq Cəbhəsi rəhbərlərinin bir qədər vicdanı, tarix qarşısında məsuliyyəti olsaydı, Şuşanı qorumaq mümkün idi. Təəssüf ki, işğalçıları kənarda qoyub paytaxtda hakimiyyət, mənsəb üstündə bir-biri ilə didişənlər artıq mərkəzdən heç bir kömək, əmr, komanda gözləmədən sadəcə öz ambisiyaları ilə Şuşanın müdafiəsi uğrunda son damla qanlarınadək döyüşən igid övladlarımız qədər qeyrət göstərə bilmədilər. Hakimiyyət eşqi hər şeyə üstün gəldi.

Şuşa heç də ermənilərin iddia etdiyi kimi "Dağlarda toy" adlı qurama əməliyyat nəticəsində işğal olunmamışdı. 1992-ci ilin mayında məhz ozamankı AXC rəhbərlərinin xəyanəti nəticəsində bu tarixi şəhər düşmən əlinə keçmişdi. Antimilli ünsürlər bədnam əməlləri ilə Şuşanı mənfur ermənilərə təhvil verib sonra özləri də qaçıb gizlənmişdilər. Düşmən Şuşanı, tariximizin bu alınmaz qalasını, demək olar ki, ciddi bir itki vermədən ələ keçirtdi. 28 il bizə göz dağı verdi. Şuşa dərdi əsəblərimizi tarıma çəkdi. Getdikcə bu yaranın göynərtisi artdı. İş o yerə çatdı ki, düşmən Şuşada Qarabağdakı hərbi xunta rejiminin, terrorçu qruplaşmanın rəhbərinin andiçmə mərasimini keçirirdi. Qondarma respublikanın parlament binasını inşa edirdi. İnsan hüquqlarından dəm vuran Ermənistanın yeni baş naziri Şuşada içib sərxoş vəziyyətdə yallı gedirdi, bununla düşmən bizə daha böyük mənəvi acı yaşatmağa can atırdı, özünü qalib hesab edirdi. Daha düşünmürdü ki, "bu xəmir hələ çox su aparacaq"...

## Qəhrəmanlıq örnəyi

Sıldırım qayalardan dırmaşaraq alpinist hünəri ilə Şuşaya daxil olan, bıçaqla, tapança ilə, avtomatlı, tanklı, toplu düşmənin üstünə atılan və bu qəhrəmanlığı ilə dünyanın hərb tarixinə adı şərəflə yazılan igid Azərbaycan əsgəri dövlətinin, xalqının başını göylərə ucaltdı.

Müharibənin gedişində Azərbaycan Prezidenti İlham Əliyev Şuşa ilə bağlı ermənilərin xaricdəki havadarlarının bütün təzyiqlərinə mərdliklə sinə gərdi. Hər addımında olduğu kimi, Şuşa barədə də əsl liderlik, mərdlik, cəsarət nümunəsi meydana qoydu. "Şuşasız bizim işimiz yarımçıq qalar" dedi və bu sözünə də sahib çıxdı. Şuşanı əsgər və zabitlərimiz igidliklə, Ali Baş Komandanın rəhbərliyi ilə azad etdilər. Adları tarixə Şuşanı azad etmiş Milli qəhrəmanlar kimi yazıldı.

Əgər cənab Ali Baş Komandanın qətiyyəti, əsgər və zabitlərimizin gücü ilə Şuşanın azadlığına nail olmasaydıq, düşmən Şuşanı təhvil verməyəcəkdi. Onlar bu şəhərin müdafiəsinə böyük önəm verirdi. Hətta Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyan kimi Xocalı cəlladı da Şuşaya gəlmişdi ki, şəhərin müdafiəsinə rəhbərlik etsin. Amma Ordumuz bütün müdafiə sədlərini vurub dağıtdı. Misilsiz qəhrəmanlıq göstərib, yalçın qayalara kəndirlə dırmaşaraq Şuşaya daxil oldu. Bu doğma şəhəri, zərif duyğularımızın beşiyini böyük şücaət göstərərək düşməndən azad etdi. Xocalı cəlladları bu qəhrəmanlıq qarşısında qaçıb ilim-ilim itdilər. Şuşanın azadlığı Ermənistan rəhbərliyini fakt qarşısında qoydu. Düşmənin beli məhz Şuşada sındı. Onlar artıq müharibəni uduzduqlarını anladılar, əlacsız qalıb kapitulyasiya aktına imza atdılar. Dövlət rəhbərimizin düşünülmüş hərbi siyasəti başqalarına güvənən erməni rəhbərini diz çökdürdü.

Şuşanın azadlığı Azərbaycanda möhtəşəm qələbə bayramına çevrildi. Xəyanət ləkəsi alnımızdan silindi.

Şuşanın azadlığına qədər qəhrəman hərbçilərimiz yaxınlıqdakı Daşaltı kəndini də düşməndən təmizlədilər. Bu o kənddir ki, Birinci Qarabağ müharibəsinin bizim üçün ən faciəli əməliyyatlarından biri burada baş vermişdi. Kəndi erməni terrorçularından azad etməyə yollanan neçə-neçə say-seçmə igidimiz xəyanət nəticəsində düşmən həmləsinə tuş gəlmişdi. Neçəsi itkin düşmüşdü və talelərindən indiyədək bir xəbər yoxdur. Bu kəndin və Şuşanın azadlığından "Daşaltı əməliyyatı"nda həlak olmuş dağ kimi oğullarımızın da ruhu rahatlıq tapdı. Uzun illərdən sonra ilk dəfə noyabrın 8-də Şuşada üçrəngli bayrağımız dalğalandı. Bu hadisə Zəfər Günü kimi tarixə düşdü. Azərbaycan əsgər və zabitlərinin Şuşa qəhrəmanlığı dünyanın aparıcı hərbi məktəblərinin dərsliklərinə yazılacaq bir örnək kimi dildən-dilə dolaşdı.

Zaman gələcək bu qələbə təfərrüatı ilə neçə-neçə dərsliklərin, bədii əsərlərin, filmlərin mövzusuna çevriləcək, Azərbaycan dövlətinin, onun müdrik rəhbərinin xalqımızın igid övladlarının adını əbidiləşdirəcək. Bu, bizim qəhrəmanlıq salnaməmizin əbədiyyətə qovuşan həqiqəti kimi nəsillərə yol göstərəcək. Milli təəssübkeşlik, milli qeyrət, milli vətənpərvərlik yolunu...

## Qalib gənclik

Şuşanın və düşməndən təmizlənmiş digər ərazilərimizin azadlığının daha böyük bir mənası da var. Bu əraziləri azad edənlərin çoxu son onilliklərdə ərsəyə gəlmiş gənclərimizdir. Onların səriştəli komandirləri, yeni nəsil generallarımız da Ulu Öndər Heydər Əliyevin və onun ordu quruculuğu işini uğurla davam etdirən cənab İlham Əliyevin yetişdirdiyi peşəkar zabitlərimizdir.

Cənab İlham Əliyev 17 ildir Azərbaycanın rəhbəridir. Azərbaycan gəncliyinin böyük hissəsi bu illərdə formalaşıb. İlham Əliyevin yetişdirdiyi gənc nəsil öz Vətəninin hər qarışı uğrunda varlığından keçməyi şərəf bilən igidlərdir.

Səndən ötrü can verməyə cümlə hazırız,

Üçrəngli bayrağınla məsud yaşa! - Həyatımızın ülvi məqsədinin simvolu!

Ruhun şad olsun böyük şair! Sənin məramın qərinələr aşaraq amalımıza çıraq tutur.

2003-cü ildə 10, 15 yaşı olanların bu gün 27-32 yaşı var. 44 günlük Vətən müharibəsi, ondan əvvəl 2016-cı ilin aprelindəki dördgünlük savaş Azərbaycanda nə qədər vətənpərvər, güclü, milli ruhlu gənc nəsil yetişdiyini bir daha təsdiqlədi. Bu nəslin təmsilçiləri döyüşə getmək üçün yerli səfərbərlik xidmətlərinin əməkdaşları ilə mübahisələrə çıxdılar. Ön cəbhədəki dostlarının, həmyaşıdlarının yanında olmaq, onlarla birgə əldə silah düşmənə qarşı vuruşmaq üçün ipə-sapa yatmadılar. Müharibəyə də toya-bayrama gedirmiş kimi getdilər.

Onların vətənpərvərlik ruhunda tərbiyə alması, mənəvi dünyalarının düşmənə nifrət hissləri ilə köklənməsi bizi Qələbəyə apardı. Azərbaycanın Vətən uğrunda müharibəsi öz zəfərinə onların sarsılmaz ruhu ilə nail oldu. Biz buna görə həm də Azərbaycan məktəbinə, Azərbaycan anasına minnətdarıq. Torpaqlarımızı bu illərdə yetişən, yaşa dolan, öz müstəqil həyatını təmin edən, karyera uğurları qazanan, dövlət rəhbərimizin müdrik siyasətinə ürəkdən inanan və Ali Baş Komandanın əmrinə müsəlləh əsgər kimi müntəzir olan vətənpərvər insanlar xilas etdilər. Qarabağımızı, Şuşanı azad edən gənclər Heydər Əliyev məktəbinin, İlham Əliyev idarəçiliyinin yetirmələridir. Əlbəttə, xalqımızın hətta kiçik yaşlı övladından tutmuş ən yaşlı vətəndaşına qədər bütün nəsillərdən olan soydaşlarımızın ümumi qələbəmizdə payı var. Amma əsas vəzifəni gənc nəsil yerinə yetirdi. Bu müqəddəs işin ağırlığını, əziyyətini ən çox onlar çəkdilər. Böyüklərindən örnək aldılar, Vətənləri uğrunda canlarından keçməyə hazır oldular. Neçə-neçə igid övladımız bu müqəddəs müharibədə həyatını itirdi, şəhidliyə qovuşdu. Onların qeyrəti, namusu, Vətənə bağlılığı beşikləri başında layla deyən Azərbaycan analarının ruhundan ayrılıb canlarına, qanlarına, iliklərinə, sümüklərinə işləmişdi.

## Dəmir yumruq

Qələbəmizin də rəmzi təsadüfən dəmir yumruq adlandırılmayıb. Vətən müharibəsindəki milli vəhdətimizlə dövlət rəhbərimizin məqsədli siyasəti ətrafında birləşib dəmir yumruğa çevrildik. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri, yaşından, dini inancından, təcrübəsindən asılı olmayaraq cəmiyyətimizin bütün üzvləri bu yolda gücünü əsirgəmədi. Bu yumruq həm gücdür, həm birlikdir, qüdrət və həmrəylikdir. Doğma Vətənin hər qarış torpağına yenilməz məhəbbətdir. Prezident İlham Əliyevin hərbi rəşadətinə, mərdliyinə, güclü iradəsinə və bacarığına sonsuz inam və sədaqətdir.

Tarixdə həmişə birliyə nail ola bilən xalqlar, ölkələr qələbə qazanıblar. Yüksək iradəli, sarsılmaz qətiyyətə malik liderlər xalqın milli həmrəyliyinə nail olub Vətəni ən böyük Zəfərə yetirirlər. Qalibiyyət tarix boyu xalqın gücünə arxalanaraq heç bir təhdid, təzyiq qarşısında boyun əyməyən liderlərin hünəri olub. Milli maraqları heç kimə və heç nəyə qurban verməyən, xalqın, dövlətin mənafelərini ən çətin şərtlər altında da müdafiə etməyi, qorumağı bacaran dövlət adamları, sərkərdələr həmişə ali məqsədlərə çatıblar. Azərbaycanın timsalında bunu hər kəs bir daha gördü. Dəmir yumruğumuzun gücü düşmənin başını elə əzdi ki, çətin ki, onlar bir daha başlarını qaldırıb biz tərəfə baxmağa cəsarət göstərələr. Hətta onların indi siyasi xal toplamaq üçün toy toğlusu kimi ortaya çıxıb revanş çağırışı edənləri də daxilən fərqindədirlər ki, bundan sonra Azərbaycana qarşı hər hansı hücum hazırlıqları bu dəmir yumruğun zərbəsi qarşısında intihara bərabər olar.

44 gün ərzində Prezident İlham Əliyev dünya ölkələrinin ən nüfuzlu informasiya agentliklərinə müsahibələr verdi. Bu müsahibələrdə Azərbaycan rəhbərinin dünya tarixinə dərindən bələd olması, təkzibedilməz fikirləri, kəsərli məntiqi, siyasi təfəkkürü, Vətəninin bütövlüyü haqqında dönməz mövqeyi, xalqına tükənməz məhəbbəti, prinsipiallığı, zəkası, dühası nəinki Azərbaycanda, bütün dünyada televiziya qarşısında əyləşib saatlarla onu dinləyən insanları heyrətləndirdi, istər-istəməz iki dövlət rəhbərinin müqayisəsini zəruri etdi. Bu müqayisəyə gəlməyən Azərbaycan Prezidentinin üstün mövqeyi onu öz xalqının və dünya ictimaiyyətinin nəzərində ucaltdı, qədirbilən insanların qəlbində ona qarşısıalınmayan sonsuz bir inam, dərin bir ehtiram yaratdı və Azərbaycanın qələbəsinin sirlərini dünyaya bəyan etdi.

Şuşa şəhərində hərbçilər qarşısındakı çıxışı zamanı cənab İlham Əliyev dedi: "Bundan sonra biz Şuşanı göz bəbəyi kimi qorumalıyıq. Bizim hərbçilərimiz, bizim qəhrəman övladlarımız Şuşanı qoruyacaqlar ki, düşmən heç bu tərəfə baxmağa özündə cəsarət tapmasın. Mən demişəm ki, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, cavabımız çox sərt olacaq, çox peşman olacaqlar və yenə də acı məğlubiyyətlə üzləşəcəklər. Heç kim bizim qabağımızda dura bilməz. Bundan sonra həmişə belə olacaq. Azərbaycan Ordusu, xüsusi təyinatlılar, bizim qəhrəman övladlarımız, hərbi birləşmələrin döyüşçüləri Şuşanı və azad edilmiş bütün torpaqları göz bəbəyi kimi qorumalıdırlar ki, düşmən bir daha belə cəhd etməsin. Cəhd edərsə, axırı lap pis olacaq".

## 39 ildən sonra

Azərbaycan Prezidentinin Şuşaya səfəri üçün 14 yanvar günü də təsadüfən seçilməmişdi. Dövlət rəhbərimiz dedi ki, o, Şuşaya 39 il əvvəl gəlib. Həmin il xalqımızın Ümummilli Lideri Heydər Əliyevlə birgə onun bu şəhərə iki səfəri olub. Şuşaya birinci səfəri yanvarın 14-ə təsadüf edib. 39 il sonra isə cənab İlham Əliyev Şuşaya müzəffər Ordumuzun Ali Baş Komandanı kimi öz ailə üzvləri ilə qayıtdı. Düşmənin belini qıran Ordunun Ali Baş Komandanı kimi Şuşada dalğalanan müqəddəs bayrağımızın altında, qəhrəman hərbçilərimizin önündə bəyan etdi ki, biz bu torpaqlarda əbədi yaşayacağıq!

Azərbaycan Prezidentinin 39 il əvvəl çəkilmiş fotoşəkildəki məkana yenidən qayıdışı tarixi ədalətin bərpası, keçmişlə bu gün, bu günlə gələcək arasında qırılmaz bağlılığın təmin edilməsi rəmzi idi. Bu simvolik kadr bir daha göstərdi ki, Azərbaycan xalqı bu torpaqların, bu yerlərin əzəli-əbədi sakinləridir və bundan sonra da hər zaman belə olacaq.

Cənab İlham Əliyevin 39 il əvvəl 14 yanvar günü Ulu Öndərlə birgə Şuşaya getməsinə səbəb olan əlamətdar hadisə də maraqlı və bu günün prizmasından baxanda son dərəcə əhəmiyyətli bir tarixə işarə edir. Həmin gün Şuşada Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Molla Pənah Vaqifin məqbərəsi açılmışdı. Bu abidə məhz Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmişdi. Qeyd etdiyimiz kimi, açılışına Ulu Öndər özü də gəlmişdi. Övladını da özü ilə gətirməyi vacib bilmişdi. Çünki Heydər Əliyev bu abidələri ermənilərin min bir hiylə ilə izimizi, tarixi keçmişimizi itirməyə çalışdıqları, havadarlarının gücü ilə əlimizdən qoparmağa can atdıqları Qarabağ torpaqlarında Azərbaycan xalqının silinməz tarixi nişanələri kimi ucaldırdı.



Vaxtilə sovet hökuməti xanları, vəzirləri, bəyləri özünə sinfi düşmən elan etmişdi. Molla Pənah Vaqif şair kimi xalqa dost, dayaq, güvən, Qarabağ xanının vəziri kimi sovetlərə düşmən sayılırdı. Belə bir şəxsiyyətimizə əzəmətli bir məqbərə ucaltmaq o dövrdə qeyri-adi hadisə idi. Bu cəsarətli addım üçün, yəqin ki, Heydər Əliyev qətiyyətinə malik olmaq lazım idi. Ulu Öndər bunları edə bilirdi. Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda Şuşanı bu vilayətin tərkibinə salmaqla tədricən Şuşada Azərbaycanın izini itirməyə çalışan ermənilərə öz yerlərini bir daha göstərirdi. Bu, həmin illərə təsadüf edən çoxsaylı nümunələrdən yalnız biridir. 1969-1982-ci illərdə Ümummilli Lider Heydər Əliyev ermənilərin Azərbaycana qarşı bütün ərazi iddiaları cəhdlərinin qarşısını almağı bacarırdı. Eyni zamanda Dağlıq Qarabağ ermənilərinin separatçı niyyətlərinin kökünü birdəfəlik kəsmək üçün strateji addımlar atırdı. Heydər Əliyevin bu torpaqlarda qurub yaratdığı istehsalat müəssisələri, təhsil ocaqları, infrastruktur obyektləri hesabına bölgədə demoqrafik durumun dəyişdirilməsinə cəhdlərin qarşısı alındı.

Bütün bu müəssisələrdə çalışmaqdan ötrü insan resurslarına ehtiyac vardı. Ermənilər bu ehtiyacı təmin edəcək imkanda deyildilər. Ona görə həmin iş yerlərində çalışmaq üçün kütləvi sayda azərbaycanlı mütəxəssislər Qarabağa gedirdi. Beləliklə, separatçı niyyətlərin bir daha baş qaldıra bilməməsi üçün güclü əsaslar formalaşırdı. Bu, indi ümumun qənaətidir ki, əgər Heydər Əliyev 1982-ci ildən sonra da Azərbaycana 10 il rəhbərlik etsəydi, bu müddətdə Dağlıq Qarabağ Muxtar Vilayətində hər hansı bir münaqişə və separatizm meyli baş qaldıra bilməyəcəkdi.

Əfsus ki, bizdən asılı olmayan səbəblərdən tarixi proseslər başqa səmtdə cərəyan etdi. Ermənilərin separatçı, işğalçı əməlləri üzündən başımız 30 il ərzində olmazın bəlalar çəkdi. Amma artıq tarix yenidən bizim xeyrimizə işləyir. Bu tarixi yaradan bizik. Reallıqları dəyişən Azərbaycan Prezidentidir. Qalib Ordumuzun əsgər və zabitləridir. Qüdrətli dövlət rəhbərimizin unikal siyasəti ətrafında xalqımızın sıx birliyi, dəmir yumruğudur.

## Güllələnmiş büstlərin sevinci

Cənab İlham Əliyevin Şuşaya səfərində həmimizi kövrəldən bir məqam da var idi. Azərbaycan Prezidenti Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşada güllələnmiş və riyakar niyyətlərlə doğma yerlərindən qoparılıb aparılmış büstlərini təxminən 30 il ayrılıqdan sonra yenidən öz məkanlarına qovuşdurdu. Güllələnmiş büstlərin illərlə davam edən fəryadı sevinc pıçıltıları ilə əvəz olundu. O şəxsiyyətlərimizin illərlə Şuşanın üzərində dolaşan nigaran ruhu dincliyinə qovuşdu. Bir qərinə davam edən ermənilərin namərdliyi onları öz vətənlərindən ayıra bilmədi.

Bu büstlərin tarixdə həmişə ibrətlə xatırlanacaq kədərli, amma sonu sevinclə bitən maraqlı bir hekayəti var. Ermənilər bu dahi şəxsiyyətlərimizin büstlərini güllələyib təhqir edəndən sonra onları metal kimi əridib satmaq, pul qazanmaq üçün Ermənistana aparmışdılar. Bu, insanlıq adına iyrənc bir əməldir, bu, erməni vandalizminin təbii halıdır.

Dahi şəxsiyyətlər təkcə bir xalqa yox, ümumiyyətlə, bütün bəşəriyyətə məxsusdurlar. Xurşidbanu Natəvanın əsərləri, Üzeyir bəy Hacıbəylinin bəstələri, Bülbülün ifaları Azərbaycan qədər dünyanın müxtəlif məkanlarında da sevilir, yüksək qiymətləndirilir. Onlar yalnız Azərbaycan xalqının deyil, dünyanın sərvətidir. Bu şəxsiyyətlərin abidələrinin erməni barbarlığına məruz qalması onların mənəviyyatdan məhrum xarakterlərinin güzgüsüdür.

Sən demə, bu büstlərin xilası sadəcə təsadüf nəticəsində mümkün olubmuş. Şuşaya səfəri zamanı yenidən əvvəlki yerlərinə qoyulmuş büstləri ziyarət edərkən cənab İlham Əliyev həmin o tarixi xatırladı. Məlum oldu ki, Azərbaycanın ovaxtkı mədəniyyət naziri Polad Bülbüloğlu büstlərin Ermənistana aparıldığını və ermənilərin bu incəsənət nümunələrini əridərək satmaq niyyətləri barədə xəbər tutub. Bununla bağlı Ulu Öndər Heydər Əliyevə müraciət edib. Görülmüş tədbirlər nəticəsində bu büstlər ermənilərdən pulla alınıb. Nə qədər böyük rəzalət!.. Hər şeyi, bütün ali dəyərləri - əxlaqı, mənəviyyatı, insanlığı da satmağa hazır olan bədnam qonşularımızın bu əməli də onlara xas olan adi simasızlıqlarıdır.

Həmin büstlər 30 ilə yaxın idi ki, Bakıda İncəsənət Muzeyinin həyətində saxlanırdı. Dövlət rəhbərimiz Şuşada xatırlatdı ki, bir neçə dəfə müxtəlif şəxslər ona bu abidələrin Bakının hansısa görkəmli yerində qoyulmasını təklif ediblər. "Müxtəlif vaxtlarda bəzi insanlar mənə müraciət etmişdilər ki, bəlkə bu büstləri Bakının hər hansı bir yerində qoyaq, orada olsun. Dedim ki, yox. Onları biz ancaq Şuşanı düşməndən azad edəndən sonra gətirib öz yerlərində qoyacağıq və öz yerlərində də qoyduq".

Şuşanın bir gün düşməndən azad ediləcəyinin çoxumuza xəyal kimi göründüyü ən ümidsiz vaxtlarda da cənab Prezidentin bu arzuya, qarşıya qoyduğu hədəfə çatmaq əzminə, səbrinə, gələcəyə inamına heyrətlənməyə bilmirsən. Lideri də, onun sabaha doğru öz ardınca apardığı xalqını da tarixdə böyük edən, nüfuzlu edən məhz bu əzmkarlıqdır. İnam və ümiddir. Hədəfə doğru səbrli, təmkinli, amma həm də dönməz, qətiyyətli addımlardır.

Bir atalar məsəlində deyildiyi kimi, "Hər səbrin sonunda bir vüsal varmış".

Bu gün Şuşada öz yerlərini tutan o büstlər dahi şəxsiyyətlərimizlə birgə həm də Azərbaycanın şanlı qələbəsinin şərəfinə ucalır. O büstlər dövlət rəhbərimizin də qeyd etdiyi kimi, qələbəmizin rəmzidir: "Onların ruhu şaddır. Onlar doğma Vətənə qayıdıblar. Biz qaytarmışıq onları, düşməni qova-qova, düşməni məhv edərək, torpaqlarımızdan rədd edərək, Şuşanı geri alaraq, azad edərək qaytarmışıq. Burada duracaq, Şuşaya gələn hər bir insan yaxından görəcək erməni vəhşiliyini".

Yaxşı deyilib ki, "haqq nazilər, üzülməz". Daha musiqimizin sultanı Bülbülün hər gecəsi qüssə, fəlakət olmayacaq. Şerimizin banusu zaru-Natəvan qalmayacaq, Üzeyir bəyin doğma torpağı zalımlar yuvasına çevrilməyəcək...

## "Əziz Şuşa, biz səni dirçəldəcəyik!"

Azərbaycan Prezidenti ailə üzvləri ilə birgə Şuşada Natəvan bulağı, Bülbülün ev-muzeyi ilə tanış oldu, Vaqifin dağıdılmış məqbərəsinə baş çəkdi, Yuxarı Gövhər ağa, Saatlı məscidlərini ziyarət etdi, Qazançı kilsəsi ilə tanış oldu. Erməni vandalizminin qurbanına çevrilmiş Şuşa Realnı Məktəbinin dağıdılmış binasına getdi.

Bu məktəbin milli təhsil tariximizdə özünəməxsus yeri var. XIX əsrin 30-cu illərində Azərbaycanda yaradılmış ilk "Realnı məktəb"dir. Burada Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli və neçə-neçə şəxsiyyətlərimiz yetişib. Tezliklə bu məktəb yenidən bərpa olunacaq. Öz qapılarını oxumaq, dünyaya fayda vermək həvəsi, amalı ilə yaşayan gül balalarımızın üzünə açacaq. Şuşa bu şəhərdəki məktəblərdən gələn elm-təhsil ənənələrinin və qədim dini abidələrin ruhumuza ötürdüyü irfan işığı ilə yenidən möhtəşəm bir mədəniyyət mərkəzi kimi bütün dünyanı özünə cəlb edəcək.

Tarixi abidələrimizin qənimi ermənilər təkcə Şuşada 67 məscidi dağıdıb yararsız hala salıblar. Bu, ermənilərin bir xəstəlik halına gəlmiş islamofobiyanın daha bir təzahürüdür. Azərbaycanın başqa işğal olunmuş ərazilərindəki dini ziyarətgahlarımızı dağıtmaqla, məscidlərimizdə donuz saxlamaqla öz xislətlərini nümayiş etdirən ermənilər işğal dövründə dünyanı aldatmaq üçün Yuxarı Gövhər ağa məscidində guya təmir işləri aparırdılar. Amma bu təmirdən çox təhrifdir. Azərbaycanın milli mənəvi dəyərlərinin Şuşadakı izlərini silməyə, itirməyə, saxtalaşdırmağa uğursuz bir cəhddir. Əfsuslar olsun ki, bu vandalizm əməllərində ermənilərə özlərini islami dəyərlərin qoruyucularından sayan bəzi ölkələr də dəstək veriblər. Necə deyərlər, şeytanın mətbəxinə odun daşıyıblar. Əsl islamın deyil, islami dəyərlərə qənim kəsilənlərin tərəfində durublar, onların düşmən əməllərinə əl çalıblar. Dini inancımızın ən ali dəyərlərindən olan haqqı, ədaləti, düzgünlüyü ayaqlayıblar.

Tarixdə bütün əməllərin sahibləri öz izlərini qoyub gedirlər. Yuxarı Gövhər ağa məscidini ziyarət edərkən ölkə rəhbərimizin, onun ömür-gün yoldaşı xanım Mehriban Əliyevanın, qızları Leyla xanımın milli-mənəvi dəyərlərimizə nə qədər ürəkdən bağlandıqlarını onların hər bir hərəkətində, üzlərindəki dərin ehtiram ifadələrində hər kəs aydın gördü.

Mehriban xanımın hörmətlə, riqqətlə öpüb gözünün üstünə qoyduğu Qurani-Kərimi Prezidentimiz də eyni dərin hörmətlə alıb öpdü və gözünün üstünə qoydu. Bu yüksək milli mənəviyyat, milli və bəşəri dəyərlərə ali münasibət bütün yaradılmışlar üçün ən böyük örnək, əsl nümunədir. Bəşəri olduğu qədər milli olmaq insanın böyük yaradana inamı, ehtiramı, səcdəsi, ləyaqətidir. Əcdadına hörmət, Tanrısına ibadətdir. Qürur duyuruq ki, bu ali dəyərləri öz varlığında qoruyub saxlayan rəhbərimiz və ölkəmizin Birinci vitse-prezidenti bəşəri dəyərlərə ehtiram bəsləyən və öz xalqının milli-mental xüsusiyyətlərini, adət-ənənələrini dərindən bilən, onlara hamilik edən və öz varlıqlarında hörmətlə yaşadan bu torpağın, bu Vətənin nəcib, alicənab övladlarıdır.

Azərbaycan Prezidenti yaxın günlərdə Şuşada bütün tarixi binaların bərpa edilməsi prosesinə başlanması barədə tapşırıqlarını verdi. Bakıdakı İçərişəhərdən tutmuş Azərbaycanın ən ucqar regionlarına qədər bütün bölgələrdə tarixi abidələrimizə yeni bir həyat verən, sevgisi, qayğısı, diqqəti ilə yeni bir ömür bağışlayan Mehriban xanım Əliyeva Şuşanın da tarixi abidələrini layiq olduğu simasına qaytaracaq. Düşməndən azad edilmiş bütün başqa şəhər, kənd və qəsəbələrimiz kimi, Şuşadakı tarixi abidələrimiz də qısa zamanda istədiyimiz qədər, arzu etdiyimiz şəkildə, illərlə xəyallarımızda canlandırdığımız görkəmdə bərpa olunacaq.

İllərlə şəhərin erməniləşdirilməsinə edilən cəhdlərə baxmayaraq, təbii gözəlliyini, məğrur duruşunu, vüqarlı görkəmini hətta xarabazarlıqlar içində olsa belə dəyişməyən Azərbaycanın sehirli güşəsi Şuşa yenidən dünyanın cənnət şəhərlərindən birinə çevriləcək.

Noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşanın azad edilməsi müjdəsini verərkən Ali Baş Komandan cənab İlham Əliyev demişdi: *"Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!"* Sadə, lakin hər bir insanın damarlarından axan qanı coşduran bu ifadələr illərlə Vətən intizarı yaşayan, nəhayət ki, ürəyindən zəhərli tikanları çıxardan, ülvi arzularına qovuşan, sevincindən riqqətə gələn şəxsiyyətin, vətənpərvər dövlət rəhbərinin, uzun illərdən sonra məqsədinə çatmış Böyük İnsanın səmimiyyətlə, əminliklə söylədiyi ürək sözləridir. Bu kəlmələrin həqiqəti hələ neçə-neçə nəsillərin ruhunu oyadacaq, duyğulara qol-qanad verəcək vətənpərvər nəsillər yetişdirəcəkdir.

Şuşanın küçələrindən keçərkən ermənilərin 30 ilə yaxın bir dövr ərzində bu tarixi şəhərdə törətdikləri dağıntılar, xarabalıqlar və bunlardan doğan dərin təəssüf hissi dövlət rəhbərimizin gözlərində Vətənə sevgi dolu baxışlarında əks olunmuşdu.

İnsan özününkü bildiyini dağıtmaz, söküb satmaz, ona vəhşi münasibət bəsləməz. Əksinə, bacardığı qədər qurub-yaradar, onu daha abad etmək, gözəlləşdirmək haqqında düşünər. Ermənilərin Şuşada və illərlə işğal altında saxladıqları başqa yaşayış məntəqələrində də yaratdıqları xarabazarlıqlar göstərir ki, onlar öz hakimiyyət rəhbərlərinin verdikləri mənasız bəyanatlara, xəstə düşüncələrə rəğmən heç zaman bu torpaqları özlərinin hesab etməyiblər. Bu torpaqlara sahib ola biləcəklərinə heç vaxt inanmayıblar. Yoxsa əllərinə keçən, gözlərinə görünən hər şeyi yerlə-yeksan edib satıb sovmazdılar, abad məkanları xarabalıqlara çevirməzdilər.

Bu əməlləri törədənlər Ermənistan cəmiyyətinin özünə də faciə və fəlakət gətirənlərdir. Bu dağıntıların çoxunu Koçaryan, Sarkisyan kimi cəlladlara sığınan yüksək rütbəli hərbçilər törədib. Sökülüb satılanların qazancı yəqin ki, məhdud bir dairədəki şəxslər arasında bölünüb. Amma bunun hesabı mütləq Ermənistan dövlətindən, Ermənistan cəmiyyətindən soruşulacaq. İşğalçı ölkə bir vaxtlar ona rəhbərlik edənlərin torpaqlarımızda törətdiyi hər dağıntı əməlinə görə beynəlxalq hüquq normaları çərçivəsində cavab verməli, təzminat ödəməli olacaq. O zaman anlayacaqlar ki, vaxtında ayağa qalxıb işğalçıları durdurmaq, mənfur siyasətin qurbanına çevrilməmək, erməni millətçiliyi xəstəliyindən "müalicə olunmaq" lazım idi.

## Biz qayıtmışıq

Artıq illərlə düşmən tapdağında inləyən bu torpaqların əsl sahibi öz yerlərinə qayıdıb. Özü ilə azad torpaqların dirçəliş planlarını, abadlıq niyyətlərini, inkişaf hazırlıqlarını, qısa müddətdən sonra bu yerləri dünyanın cənnətinə çevirmək hədəflərini də gətirib. Azadlıqdan sonra dirçəlişə yol alıb.

Prezident İlham Əliyevin Şuşaya səfəri zamanı Füzuli Beynəlxalq Hava Limanının təməlini qoydu. Təkcə hava limanının deyil, həm də Qarabağın səadətinin, xoş günlərinin, bu əsrarəngiz təbiəti bütün dünyanın zövqlə baxacağı bir cənnətə çevirməsinin təməlini qoydu. Hava limanının bu il istifadəyə verilməsi planlaşdırılır. Bu hava limanı bölgənin inkişafında müstəsna rol oynayacaq. Turizm infrastrukturunun yaradılmasına, həyata keçirilən bərpa və yenidənqurma işlərinə böyük təməl olacaqdır. Azad edilmiş torpaqlarımızda ikinci beynəlxalq hava limanının Kəlbəcər və ya Laçında inşası nəzərdə tutulur. Tezliklə Qarabağ torpaqlarına dünyanın dörd bir yanından sərnişin dolu təyyarələr enəcək. Bu bölgələr təbii gözəllikləri ilə turistlərə öz qollarını açacaq. Yer üzünün turizm məkanlarından biri kimi tanınacaq.

Artıq Füzuli-Şuşa ərazilərində dördzolaqlı, bəzi yerlərdə isə altızolaqlı yeni avtomobil yolunun da təməli qoyulub. İşğaldan azad edilmiş ərazilərdə beynəlxalq hava limanları da daxil olmaqla, nəqliyyat-kommunikasiya infrastrukturunun formalaşdırılması Azərbaycanın öz milli hədəflərinə çatması baxımından strateji önəm daşıyır. Çünki Ordunun ardınca məhz iqtisadiyyat öz sözünü deməyə başlamalıdır. Tarixdə çox şeyləri iqtisadi inkişaf prosesləri yerbəyer edir. İqtisadi inkişaf proseslərini sürətləndirən də yoldur, infrastrukturdur, yaradılan şəraitdir.

Azərbaycan bu sahədə də aydın hədəflərə qısa zamanda çatmaq əzmkarlığına malikdir. Dövlət rəhbərimiz Sərkərdə kimi ordu quruculuğu sahəsində, hərb meydanında, diplomat kimi beynəlxalq siyasi münasibətlərdə ən yüksək bacarıqlara malik olduğu qədər müasir iqtisadiyyatın da bilicilərindəndir. İllər göstərir ki, iqtisadi inkişaf proseslərinin bütün dünyada ən yaxşı idarəedicilərindəndir.

Qəhrəman əsgər və zabitlərimizin qələbəyə doğru sürətlə, mətinliklə keçdikləri yollarda bu gün mühəndislərimiz, yol, enerji, su, rabitə xidməti işçilərimiz eyni sürətlə, eyni əzmkarlıqla iş aparırlar. Dövlət rəhbərimizin qarşıya qoyduğu vəzifələri vaxtında və keyfiyyətlə yerinə yetirməyə çalışırlar. Biznes qurumlarımız, banklarımız, iş adamlarımız regionun dirçəlişində iştirak etmək, o cümlədən yaranmış yeni imkanları ölkəmiz üçün dəyərə çevirmək məqsədilə müasir, modern planlar hazırlayırlar. Ən yeni layihələr üzərində düşünürlər. Bu, sabahımızın səadətindən soraq verən tərəqqi yoludur.

Bu inkişaf yolunun başlanğıcında Vətənə peşəkar mütəxəssislər, yetkin vətəndaşlar, milli-mənəvi dəyərlərimizi yaşadan ləyaqətli övladlar yetişdirəcək Azərbaycan təhsili durur. Bu yol səadət, xoşbəxtlik, ürfan yoludur...Bu yol azadlıqdan dirçəlişə qədər uzun, əziyyətli, lakin sonu səadətlə, şadlıqla bitən müqəddəs yoldur...

## Bu yaz bir başqa yazdır...!

Tezliklə bahar gələcək. Cıdır düzü al-əlvan rəngə boyanacaq. İllərdən sonra "Vaqif poeziya günləri", "Xarı bülbül" festivalı, toyu, büsatı, bayram ovqatı ilə Şuşa yenidən öz cəlalına qayıdacaq. Azərbaycanın qız-gəlinləri yenə də gəlin qayasında oturub öz sevgililərini gözləyəcəklər. İsa bulağı öz sərin sularını illərin həsrətini yaşamış insanların ürəyinə səpib onlara həyat eşqi verəcək. Bülbülün, Xanın nəğmələri ruhları dirçəldəcək. Bütün dünyanın mütərəqqi insanları sevincimizə şərik olacaq.

"Qarabağ bülbülləri"nin, tarın-kamanın, muğamın sədası aləmə yayılacaq. Şəhərin üzərindəki duman dağılacaq və Cıdır düzündən gələcəyə doğru göz işlədikcə uzanan gözəlliklər Azərbaycanın şərəfli qələbəsindən sonra dirçəlişinə doğru yol almış Vətənin xoşbəxt gələcəyindən xəbər verəcək.

*Bu gələcəyi yaradan bizik!*
*Azadlığın mübarək, Şuşa!*
*Bütövlüyün mübarək, Vətən!*

***Nurlana ƏLİYEVA,***
***BSU-nun rektoru, professor,***
***YAP Qadınlar Şurasının sədri***



# Tanrıdan möhlət payını ancaq Qarabağı yenidən görmək üçün istəyirəm

◆ **Qarabağ söhbətləri**

**“Mən inanıram ki, bu ağrıları unudan bir günümüz olacaq, yenə yaylaqlarımıza qoyun sürüləri, aran köçü qalxacaq, dağ kəndlərimizin sərin bulaqlarından ovcumuzu doldurub içəcəyik, meşələr qoynunda ürəkdolusu dərindən nəfəs alıb gəzəcəyik. Tariximiz sabaha işıqlı gözlə baxmağı tövsiyə edir”...**

**Bu inamını, ümidini hələ illər öncə ürəyindən keçirib sözlərə, yazıya köçürmüşdü. Zaman ötdükcə, vaxt uzandıqca, il-ilə calandıqca arzuları gerçəkləşməsə də, nə ümidi üzülür, nə də inamı azalırdı.**

Tez-tez Qarabağda keçirdiyi gözəl günləri, unudulmaz xatirələri, maraqlı ədəbi görüşləri xatırlayır, bəzən də duyğularını, içindəki kədəri, xalqın illərlə çəkdiyi iztirabları, ağrı-acıları, faciəli yaşantıları qələmə alırdı. Hər yeni şeir, poema yazdıqca isə özünə yalnız bir arzuyla təskinlik verirdi - ağrıları unudacağımız gün gec-tez gələcək və o, qələbə nəfəsi duyulan əsərlər yazacaq...

Nəhayət, illərlə həsrətində olduğu, ümidlə gözlədiyi o işıqlı sabah sentyabrın 27-də açıldı. Və cəmi 2 gün sonra arzusunda olduğu ilk zəfər qoxulu şeirini yazdı...

## Qarabağın əksər bölgələrini gəzmişəm

“Qarabağ söhbətləri”ndə bu dəfə özü Qarabağda dünyaya gəlməsə də, o diyarı elə qarabağlılar qədər sevən, yaradıcılığında əks etdirən, ruhən və qəlbən Qarabağa bağlı olan xalq şairi, “Şərəf” ordenli Nəriman Həsənzadə ilə söhbətləşdik.

- Qarabağ o qədər gözəl, səfalı, barlı-bərəkətli diyardır ki, heç bir sözlə, kəlməylə ifadə olunmur. Ora bir dəfə ayaq basdınsa, heç vaxt unutmursan, daim can atırsan. Torpağın qəribə enerjisi var sanki, maqnit kimi səni özünə çəkir. Qarabağda çox olmuşam, əksər bölgələrini gəzmişəm. Hələ Sovet dövründə rayonlarda görüşlər, tədbirlər çox keçirilirdi. Biz də Yazıçılar İttifaqının xəttilə o görüşlərə qatılırdıq.

Yadımdadır, Cəbrayılda rayon qəzetinin redaksiyasına getmişdik. Qəzetin baş redaktoru İnqilab müəllim bütün rayonu, Araz qırağını gəzdirdi mənə. Şair Sərdar Əsəd Cəbrayıldan idi. O, rəhmətə gedəndə də rayona yas mərasiminə getdim. Yaşlı anası elə ağlayırdı ki... Deyirdi, üzü Bakıya yatıram ki, bəlkə oğlum Bakıdadı, ordan qayıdacaq...

Füzulidə də olmuşam. Xalq yazıçısı İlyas Əfəndiyev Füzulidən idi. Mənə qarşı münasibəti çox yaxşı idi. Oraları sanki İlyas Əfəndiyevin gözü ilə seyr etmişəm, onun ayaqları ilə gəzmişəm.

Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə haqqında “Tufanlar qoynunda” poeması yazanda isə Qərvənddə oldum. Müharibə zamanı onun dəstəsində vuruşmuş Ənvər adlı döyüşçü ilə görüşdüm, Mehdi ilə bağlı xatirələrini dinlədim.

## “Heydər Əliyevlə birlikdə Vaqifin məqbərəsinin açılışına qatıldıq”

Nəriman Həsənzadə Ümummilli Lider Heydər Əliyevlə birlikdə Qarabağ zonasında keçirilən müxtəlif tədbirlərdə iştirak edib. İndi o günləri ömrünün ən unudulmaz xatirələri kimi yada salır. Danışır ki, bir dəfə böyük bir heyət Heydər Əliyevlə birlikdə Bərdəyə səfər ediblər. Orda pambıqçı Tərlan Musayeva ilə görüşüblər. Qayıdandan sonra şair “Tərlan bacı” adlı şeir yazıb. Şeir “Kommunist” qəzetində çap olunan günün axşamı bəstəkar Emin Sabitoğlu ona zəng edib deyir ki, sabah “Tərlan bacı” mahnısına qulaq asarsan, Heydər Əliyevin tapşırığı ilə həmin şeirə mahnı bəstələyirəm. Beləcə, məhz Heydər Əliyevin tapşırığı ilə o mahnı yarandı və dillər əzbəri oldu. Sonradan şair yenə Bərdəyə gedib Tərlan xanım ilə görüşüb, onun sahələrini gəzib.

- Ulu Öndərlə birlikdə qatıldığım ən möhtəşəm tədbirlərdən biri də Şuşada baş tutub. 1982-ci il yanvarın 14-də Şuşada görkəmli şairimiz Molla Pənah Vaqifin məqbərəsinin təntənəli açılış mərasimi oldu. Açılışa Ulu Öndər ailə üzvləri ilə bərabər elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparmışdı. Onun Vaqifə bu münasibəti bir tərəfdən milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən həmin diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Bu məqbərə gözəl memarlıq abidəsidir. Heydər Əliyev abidənin tikintisini böyük, əlamətdar hadisə hesab edirdi. Ümummilli Lider Vaqifin məqbərəsinin açılışında söylədiyi nitq onun Dağlıq Qarabağa qayğısının göstəricisi idi. Həmin gün güclü qar yağırdı. Amma biz elə bildik çiçək yağır. Çox gözəl tədbir baş tutdu. Açılış bayram əhvali-ruhiyyəsində keçdi. Heydər Əliyev bir-bir bütün yazıçılara, şairlərə söz verdi. Özü də şairləşmişdi. Vaqifin şərəfinə gözəl sözlər dedi. Ümumiyyətlə, Heydər Əliyev şeirpərəst idi, ədəbiyyatı gözəl bilirdi. Mənə də söz verdi. Açılış münasibətilə qələmə aldığım “Vaqif” adlı yeni şeirimi oxudum.



*“Vaqif!*
*Ey sərvərim, ey tacidarım!” -*
*Harda xatırladı şairi ürək?!*
*Hörmət - süddən gələn bir adətimdi*
*Vurğundan Vaqifə salam yetirmək,*
*Bəlkə də yeganə səadətimdi.*
*Heykəllər sadəcə əl işi deyil,*
*Məhəbbət dediyin - başqa məramdı.*
*Dünyadan gedənin gəlişi deyil,*
*Dünyada qalana bir ehtiramdır...*

39 il sonra yanvarın 14-də Prezidentimiz İlham Əliyev qalib sərkərdə kimi yenidən Şuşaya səfər etdi. O görüntülər məni çox kövrəltdi. Açılış tədbirini bir daha xatırladım, o günü sanki yenidən yaşadım. Ürəyimdən bir arzu keçdi - kaş yenidən Şuşada Vaqifin məqbərəsinin açılışına gedə bilim...

Xurşidbanu Natəvan və Bülbülün büstlərinin də açılışı mərasimlərinə Heydər Əliyevlə birlikdə qatılmışam, nitq söyləmişəm. O büstləri ermənilər gülləbaran etmişdilər. Ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. Polad Bülbüloğlu bundan xəbər tutub Ulu Öndər Heydər Əliyevə müraciət etmişdi. Görülmüş tədbirlər nəticəsində bu büstlər ermənilərdən alınmışdı. Və 28 il Bakıda İncəsənət Muzeyində saxlanmışdı. İlham Əliyev Şuşaya səfərində həmin büstləri də öz evlərinə qaytardı.

“Ədəbiyyat və incəsənət” qəzetinin baş redaktoru işləyəndə Vaqif poeziya günlərində də iştirak etmişəm. Sonradan isə Şuşaya musiqişünas Firudin Şuşinski ilə getdim. Orda texnikumda görüşlər keçirildi, çıxış etdim. Böyük mehmanxananın açılışına qatıldım. Şuşanın təbiəti çox gözəldir. İsa bulağı, Cıdır düzü... Bir dəfə İsa bulağında oturmuşduq. Bir cavan oğlan elə gözəl oxuyurdu ki...

Şuşa işğal olunandan sonra bu şəhərə ithafən böyük qəm, kədərlə bir neçə şeir, “Xarıbülbül” poemasını yazdım...

Xankəndidə də bir neçə dəfə olmuşam. Gəncə Universitetində mənə ədəbiyyatdan dərs deyən professor Nazim Axundov Xankəndidə işləyirdi. O məni dəvət etmişdi. Onda artıq camaatın içində bir vahimə vardı.

Yadımdadı, kolxoz sədri olan erməni qadın ağdamlılar Xankəndinə girməsin deyə ağ yaylıq qaldırmışdı. Mən onun əleyhinə şeir yazdım. Yevgeni Yevtuşenko isə buna cavab olaraq onun xeyrinə şeir yazıb tərifləmişdi.



Heydər Əliyev Şuşada
Molla Pənah Vaqifin Məqbərəsinin açılışında.
Şuşa. 1982-ci il, 14 yanvar...



## “Sonuncu dəfə Ağdamda oldum”

Qarabağın əksər bölgəsini gəzən şair daha çox Ağdamda olduğunu deyir. Çünki Ağdamdan olan dost-tanışları da çox idi. Bəlkə elə ona görə də Ağdamı özünə daha yaxın hiss edir.

- Ağdam çox gözəl, yüksək mədəni səviyyəsi olan şəhər idi. Qarabağın paytaxtı sayılırdı. Ağdamda ziyalılar da çox idi və fərqlənirdilər. Qarabağdan, xüsusən də Ağdamdan tanışlarım, dostlarım çoxdur. Yazıçı, publisist Əlfi Qasımovla üzbəüz qonşu idim. Ağdamda onun qardaşının qonağı olmuşduq. Ramiz Məmmədzadəgildə də qonaq olmuşam. Famil Mehdi ilə birlikdə çoxlu görüşlərə getmişik. Ağdam Dövlət Dram Teatrında bir tamaşaya da baxmışam. Onda Ağalar İdrisoğlu teatrın direktoru idi. Ağdamı düz Malıbəyliyə qədər gəzmişəm.

Elə sonuncu dəfə də Ağdamda olmuşam. Famil Mehdi ilə getdim. Təzə ev tikdirmişdi, hər şeyi hazır idi, qalırdı bircə köçmək. Heyf ki, qismət olmadı. Evi eləcə qoyub gəldi. Onda artıq şəhərdə atışma səsləri eşidilirdi.

Qarabağın adamları çox mehriban, qonaqpərvər, şirindil olurlar. “Qadan alım”, “qurban olum” dillərindən düşmürdü. Torpaq da sahibinə bənzəyirdi. Əsl cənnətməkan, dilbər guşə... Amma ermənilər o gözəllikdə yerləri viranə qoyublar. Rayonların, kəndlərin indiki görüntülərinə baxanda ürəyim sızıldayır. Dəhşətə gəlirəm ki, insan bunu necə edə bilər axı?

## “Uşaq kimi hönkürüb ağladım...”

Nəriman Həsənzadə yaradıcılığının bütün dövrlərində olduğu kimi, XX əsrin sonlarında, ölkəmizin başı üstünü qara buludlar alarkən də hadisələrə vaxtında öz münasibətini bildirib, bu yolda haqq səsini ucaldaraq mübarizə aparıb. Düşmənə qarşı nifrətini gizlətmədən həyəcan, narahatlıq doğuran problemlərə üz tutub. Qələminə sarılaraq müstəqil Azərbaycanda müstəqil yaşamaq istəyən vətən oğullarından, yeni tariximizin səhifələrini torpağa qanla yazanlardan, öz taleyini özləri həll edən igidlərimizdən yazıb. Rus imperiyasının ikiüzlü siyasətini pisləyib. Xalqımızın arasında milli ədavət hissi yaratmaq istəyənlərin xislətini qələmə alıb. Vətənin əzablı günləri, qəmli, kədərli anları ilə yanaşı, real gerçəklikləri də tarixin yaddaşına köçürüb.

Rus ordusu Bakıda Qanlı 20 Yanvar hadisəsini törətdiyi zaman Nəriman Həsənzadə Fransada yaradıcılıq ezamiyyətində idi. Şair bu xəbəri eşidəndə böyük sarsıntı keçirsə də, məkrli erməni siyasətinin, onun havadarlarının iç üzünü açmaq, həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün Parisdəki müxtəlif mətbuat səhifələrində yazılarla çıxış edir. Parisin “Qalimar” nəşriyyatının baş redaktoru məşhur yazıçı Roje Qrinye və “Humanite limanş”ın müxbiri ilə söhbətlərində və müsahibələrində Azərbaycan xalqının öz torpağında qətl edilməsini, didərgin salınmasını deyir, qorxmadan, çəkinmədən Azərbaycanın SSRİ-dən ayrılması məsələsini ortaya qoyur. Fransız jurnalisti Ryer Blanşe ondan Bakıdakı hadisələr barədə aldığı müsahibəni jurnallarının növbəti nömrəsində çap etdirdikdən sonra həqiqətlər erməniləri də çox qəzəbləndirir.

- Görkəmli rus şairi Aleksey Markovla televiziya verilişlərinə bərabər baxırdıq. Bakıda tankları göstərirdilər, bir anlıq bizə elə gəldi ki, Azərbaycanın ərazisinə yad, işğalçı qoşunlar doldular. Tankların lülələri dinc əhalinin üstünə tuşlandı, avtomatlardan alov saçılırdı, sonra ölənlərin qeyri-dəqiq sayını dedilər. Aşağı düşüb tərcüməçidən göstərilənləri soruşdum, gəlib uşaq kimi hönkürüb ağladım. Markov bərk dilxor olmuşdu, mənə təsəlli verirdi. Amma dinc durmadım. Bacardığım qədər həqiqətləri car çəkməyə çalışdım. Yazılar yazdım, müsahibələr verdim. Təbii ki, ermənilər də bundan hiddətləndi. Qaldığım mehmanxanada pasportumu oğurladılar. Paris baş polis idarəsinə müraciət etdik, pasportsuz uçmağıma icazə verdilər. Ramiz Abutalıbovun köməyilə Moskvaya gəldim. Onda bildim ki, Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edib. Getdim nümayəndəliyə, gördüm binanın pəncərələrini sındırıb, dağıdıblar. Ordan Bakıya qayıtdım. Gördüm aeroportdan Fəxri xiyabana qədər bütün yollara, küçələrə qərənfillər düzülüb. Şeir də yazdım ki, o vaxtdan qərənfil yaslara getdi...

## “Qanlı kitab” şeirini o əsgərə ithaf etdim

N.Həsənzadə 1992-ci ildə bir əsgərə ithaf etdiyi “Qanlı kitab” şeirinin yaranma tarixçəsindən söz açır. Həmin il Tehranda səfərdə olarkən hərbi hospitalda müalicə alan Azərbaycan döyüşçülərinə baş çəkir. Hospitaldakı yaralı hərbçi Elxan Mirzəyev danışır ki, həlak olan döyüşçü yoldaşının qoltuq cibindən şairin qana bulaşmış “Fikir eləmə”adlı kitabı çıxıb, başqa sənədi də olmayıb. Əsgər kitabın üzərində “Fikir eləmə”dən sonra vergül qoyub “vətən” sözünü əlavə edib, “Fikir eləmə, Vətən” yazıbmış. Bunu eşidən Nəriman Həsənzadə o qədər mütəəssir olur ki, Tehrandan qayıdandan sonra “Qanlı kitab” şeirini yazır. Şeir boyu şairin fəryadını və təəssüfünü duymamaq mümkün deyil. Görmədiyi, tanımadığı əsgərin ölümünə ürəyi qan ağlayan şair ağır hisslərə qapılır. Haradasa onun ölümündə özünü də günahkar sayır:



*Mən bilsəydim -*
*dəmirdən üz çəkdirərdim o kitaba,*
*misdən, tuncdan tökdürərdim misraları,*
*ya poladdan kəsdirərdim vərəqləri,*
*təki namərd bir gülləden*
*saxlayaydı o əsgəri.*

Əgər kitabın vərəqlərini poladdan hazırlatsaydı, əsgərin sinəsində gəzdirdiyi “dəmir kitab” onun köksünü düşmən gülləsindən qoruyardı. Digər tərəfdən, şair həmin əsgəri şəxsən tanımasa da, kitabının onunla eyni səngərdə “döyüşməsini” özünün əsgərlə birlikdə döyüşməsi kimi mənalandırır.

*ikilikdə bir səngəri*
*qorudu bu məmləkətin*
*bir şairi,*
*bir əsgəri.*

Bundan başqa şairi düşündürən o idi ki, görəsən hansı şeiri, misrası əsgəri bu qədər cəlb edib. Müharibənin odu-alovu içərisində hansı şeiri sinəsinə sıxıb ondan güc alıb.

*Hansı sözüm,*
*Hansı şeirim*
*istəyindən xəbər verib? -*
*Döyüşlərdə qoluna güc,*
*ürəyinə təpər verib?!*

## Göz yaşı ilə yazılan poema

Şairin Qarabağ mövzulu poetik əsərləri içərisində sosial ziddiyyətləri qabarıq və dolğun şəkildə əks etdirən poemalardan biri də “Qarabağdan gələn var” əsəridir. Nəriman Həsənzadə bu poemasını 1997-ci ildə göz yaşları ilə qələmə alıb. Əsərdə xalqımızın üzləşdiyi problemlər, sosial ziddiyyətlər və ədalətsizliklər Qarabağın Tuğ kəndindən olan Məmməd müəllim və Səyyarə xanımın şəxsində, onların acınacaqlı taleyində ümumiləşir. Əsərin əvvəlində şair yazır: “Qarabağın Tuğ kəndində 40 ilə qədər dərs hissə müdiri işləyən Məmməd müəllim və həmin müddətdə məktəb direktoru vəzifəsində çalışan həyat yoldaşı Səyyarə xanım hazırda 3 nömrəli xəstəxanada (biri qapıçı-bağban, o biri xidmətçi) işləyir. Hər ikisi ali təhsillidir. Qaçqındılar”.

Müharibə şəraitinin dəhşətli bəlaları, xalqın atəşkəsdən sonrakı durumu poemada real cizgilərlə rəsm edilir. Qaçqın-köçkün soydaşlarımızın çəkdiyi əzablar, ağrı-acılar şairin qələmindən ustalıqla sətirlərə süzülüb. Poemada şair Məmməd müəllimin simasında öz qaçqın soydaşlarını səbirli olmağa, ümidlərini itirməməyə səsləyir. Vətəndən vətənə qovulan günahsız insanları öz vətənlərində, doğma Bakıda sınmamağa çağırır.

## Biz Qarabağın, Qarabağ da bizim həsrətimizdən solub-saraldı

- Hesab edirəm ki, Birinci Qarabağ müharibəsində ədəbiyyatımız, xüsusən də şeirimiz xeyli iş gördü. Amma o əsərlərdə qəm var idi. İkinci Qarabağ savaşı haqqında yazılacaq bütün ədəbi nümunələrdə isə qələbə əhvalı olacaq. Əsl xoşbəxtlik budur. Sevinirəm ki, bu xoşbəxtlikdən mənə də pay düşüb. Sentyabrın 27-də müharibənin başladığını eşidəndə hansı hisslər keçirdiyimi sözlə ifadə edə bilmirəm. İllər öncə bütün yaşadıqlarımız bir daha gözümün önünə gəldi. Erməni cəlladlarının başımıza açdıqları bəlalar, yaşadığımız faciələr...

Sovet dövründə erməni yazıçılarla birlikdə ittifaqda işləyirdik. Mehriban idik, bir- birimizin evinə gedib gəlirdik. Sən demə, ikiüzlüymüşlər. Üzdə özünü elə göstərir guya səni çox istəyir, amma içində nifrət edir. Çünki körpəlikdən onlara təlqin edirlər ki, türk sənin düşməníndir. Qarabağ 30 il bu kin-küdurətli işğalçıların əlində qaldı. Biz Qarabağın, Qarabağ da bizim həsrətimizdən solub-saraldı. Bu illər ərzində Qarabağda yaşayan ermənilərin arasında bir istedadlı insan, gözəl səsi olan bir ifaçı üzə çıxmadı. Nə torpaq, nə də təbiət onları qəbul etmədi. Bildi ki, bunlar onun əsl sahibi deyil. Bizim üçünsə Qarabağın təkcə suyunu içmək kifayətdir. Necə ki, Qarabağ işğal altında qalanda da oranın istedadlıları üzə çıxırdı, bundan sonra daha da çoxalacaq. Qarabağ hər sahədə yeni istedadların vətəni olacaq.

Haqq savaşımız davam edən 44 gün ərzində Nəriman Həsənzadə bir neçə şeir və poema qələmə alaraq bu unudulmaz tarixə öz töhfəsini verib. Şanlı savaşımızı öz yaradıcılığında əbədiləşdirmək istəyir. Müharibə başlayandan iki gün sonra - sentyabrın 29-da “Ey vətən” adlı ilk şeiri çap olunur.

*Qoca tarix, daha susma,*
*millət qalxıb ayağa,*
*And içibdi ulularin yaşadığı torpağa.*
*Mən yazıram bu günləri,*
*sinəmdəki varağa,*
*Daha “qaçqın”, daha “köçkün”*
*olmayacaq, ey Vətən!*

Növbəti günlər cəbhə bölgəsindən şairə teleqram vururlar. Heydər Quliyev adlı əsgər isə səngərdən zəng vurub deyir ki, sizin adınızı 6 raketin üstünə yazmışıq, artıq üçünü düşmən tərəfə atmışıq. Bu söhbət nəticəsində Nəriman Həsənzadənin “Mənim igid əsgərlərim” şeiri yaranır.

*Dünən Ali Baş Komandan,*
*“Qarabağ və nida!”, - dedi*
*düşmənə əlvida dedi.*
*Xəbər verin, son raketi*
*atan kimi,*
*Xankəndinə, ya Şuşaya*
*çatan kimi.*
*Mən də burda bir əsgərəm,*
*Esxil dünən, mən də bu gün*
*səfərbərəm.*

N.Həsənzadə 44 günlük savaşımız müddətində bir neçə şeirlə yanaşı “Qarabağnaməm İlhamdır” adlı poema da qələmə alır. Hazırda bu poema Gənc Tamaşaçılar Teatrı və Azərbaycan Dövlət Televiziyası tərəfindən tamaşaya hazırlanır.



- Otuz ildir yaradıcılığımın bu dövrünü səbirsizliklə gözləyirdim. Zəfər müjdəli şeirlər yazacağım günlərin həsrətindəydim. Çox şükür, Tanrı bu sonsuz sevinci, bu böyük xoşbəxtliyi yaşamağı, görməyi mənə qismət etdi. Gücüm çatdığı qədər yaradıcılığımda tariximizin bu şanlı səhifələrini əks etdirəcəm.

Bircə arzum odur ki, heç olmasa, Ağdamı yenə görə bilim...

Qarabağı, Şuşanı, Cəbrayılı, Füzulini yenidən gəzmək keçir könlümdən...

Kaş Şuşada Vaqifin məqbərəsinin yeni açılışında yeni şeirimi oxuya bilim...

Bu arzularımın gerçəkləşməsi üçün də Tanrıdan bir az möhlət payı diləyirəm...

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***









# Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır







**Qarabağ Azərbaycandır!**

**Vətənimizin, o cümlədən Qarabağımızın hər qarış torpağı əzizdir, müqəddəsdir. Ona görə ki, burada xalqımızın mənəviyyatı daşlaşıb, tarixləşib, minilliklərdən soraq verir. Qarabağın zümrüd tacı olan Şuşanın isə xalqımızın mədəniyyət tarixində özgə bir yeri və rolu var. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yağı düşməndən azad edilən Şuşamıza ailəsi ilə birlikdə yanvarın 14-də səfər etdi. Ölkə başçısının bu səfəri dünyaya səs saldı! Düşmənin bağrı yarıldı!**



## Sən bu qalaya xoş gəldin...

### Ulu Öndərin Şuşaya doğmalığı, Azərbaycan Prezidentinin sevgisi tükənməz olub, dövlət başçısının yanvarın 14-də qalalar diyarını ailəsi ilə birlikdə ziyarəti də bunu təsdiqlədi

Dövlət başçısı vaxtilə Ulu Öndər Heydər Əliyevin çox sevdiyi, can yandırdığı abidələr şəhərinə - "Mədəniyyət Paytaxtı" elan etdiyi qədim, ulu Şuşaya qədəm basdı! Qədəmləri mübarək! Şuşa məscidinə ailəsi ilə ayaqqabısız, çəkməsiz daxil olub ziyarət etməyi isə bir başqa qürurverici oldu!

Tanrı bu ziyarətlərinə görə Ali Baş Komandanı və ailəsini dünyanın xoşbəxt bəndəsi - bəxtəvərləri saydı! Əslində cənab Prezident Məkkə, Mədinəni sanki o gün ziyarət etdi!

Hələ 1996-1997-ci illərdə Ulu Öndər Heydər Əliyev Bakı şəhərində məskunlaşmış kəlbəcərli məcburi köçkünlərlə görüşündə bildirmişdi ki, Qarabağ işğaldan azad ediləcək. Bir qarış torpağımız da düşmənə qalmayacaq: "...Ümidvaram ki, indi bizim apardığımız siyasət Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə gətirib çıxaracaqdır və işğal olunmuş torpaqlarımız azad olunacaqdır. Eyni zamanda ümidvaram ki, respublikamız bu ağır sosial-iqtisadi böhrandan çıxacaq, ölkəmizin böyük sərvətləri, təbii, intellektual sərvətləri xalqımızın rifahına xidmət edəcəkdir, xalqımızın rifah halı günü-gündən yaxşılaşacaqdır. Mən buna əminəm. Ona görə əminəm ki, apardığımız siyasət bizi, şübhəsiz, bu səviyyəyə gətirib çıxaracaq. Əminəm ona görə ki, bizim işimiz haqq işidir. Biz Azərbaycan Respublikasının müstəqilliyini qoruyuruq. Azərbaycanda hüqiqi-demokratik dövlət qururuq. Müstəqil Azərbaycanın ərazisinin bərpa olunmasına çalışırq. Bu, ədalətli işdir. Biz buna nail olacağıq... Kəlbəcərin də Ermənistanın işğalından azad olacağı gün gələcək, biz sizinlə birlikdə Kəlbəcərə qayıdacağıq, orada kəlbəcərlilərin qəhrəmanlığını əbədiləşdirən abidələr yaradılacaq. Lakin ən birinci abidə özünü qayadan atan həmin gəlinlərin abidəsi olmalıdır. Bu abidə qoyulmalıdır..."

Məhz Ümummilli Liderin, indi isə Ali Baş Komandan İlham Əliyevin zirvələrdə abidələrinin ucaldılması da arzu edildi, qalib sərkərdə kimi!

"Qafqazın konservatoriyası" kimi məşhur olan bu qədim qalalar şəhərimiz xəyanətin qurbanı olmuş, Ermənistanın məkrli siyasəti nəticəsində 1992-ci il mayın 8-də daşnaklar və onların imperiya xislətli, şovinist havadarlarının gücü ilə işğala məruz qalmışdı. Şuşamızı tapdaqdan qurtarmaq üçün illərdir ki, mübarizə aparmaqla yanaşı, qələbəmizin həsrəti ilə də yanıb-yaxılırdıq!

Budur, o gün gəlib çatdı. Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də Şəhidlər xiyabanı və Fəxri xiyabana gələrək Ulu Öndər Heydər Əliyevin, eləcə də dövlət müstəqilliyinin bərpası, Qarabağın müdafiəsində canlarını qurban verənlərimizin müqəddəs məzarlarını - son and yerimizi ziyarət edərək, həmin şad xəbəri xalqımıza və dünyaya bəyan etdi: "Şuşa, sən azadsan!"

### Tarixə bir nəzər

1873-cü ildə Vyana şəhərində açılmış beynəlxalq sərgidə Şuşanı təmsil edən nümayəndələr də olub. Maraqlıdır ki, onların sərgidə nümayiş etdirdikləri eksponatlar xaricilərdə dərin maraq yaradıb. 1903-cü ildə Tiflisdə nəşr olunmuş "Vestnik Kavkaza" jurnalının 43-cü səhifəsində qeyd edilmişdi ki, "Şuşanın görünüşü orta əsr Avropa şəhərlərini xatırladır. Bu şəhərin tacirləri ipək-barama alverində üstün mövqeyə malik olub, Tiflis, Moskva və Marsel şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayıblar.

Şuşa havasının təmizliyi, saflığı və müalicə əhəmiyyəti baxımından kurort şəhəri kimi tanınmışdı. Şəhər nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da öz səfalı yerləri, istirahət guşələrinə görə məşhur idi. Şuşa dağlarında xüsusi gözəlliyi ilə seçilən və dünyanın heç bir yerində bitməyən "Xarı bülbül" gülü dillər əzbərinə, mahnı mətnlərinə çevrilib. Bu təbiət gözəli, bülbüləoxşar gül həm də müalicəvi əhəmiyyətə malikdir.

XIX əsrin ikinci yarısında şəhər əhalisinin sayı tanınmış alim və sənətkarlar da daxil olmaqla, 25 min nəfərə çatıb. XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim və s. olub. Bu böyük ziyalı təbəqəsi Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə, elmi və mədəniyyəti inkişaf etdirməkdə çox böyük rol oynayıblar.

Şuşa qalası tarixən Azərbaycanın Qarabağ xanlığının paytaxtı olub. 1805-ci il mayın 14-də Qarabağ xanı İbrahim xanla Rusiyanın Qafqaz qoşunlarının baş komandanı, general Sisianov arasında Kürəkçay müqaviləsi ("Andlı öhdəlik") imzalanıb. Bununla da Qarabağ xanlığı Rusiyanın tərkibinə daxil olub. Dərhal Qarabağda çarizmin mövqeyini möhkəmlətmək üçün ermənilərin buraya köçürülməsinə başlanıb. Yalnız bu fakt onu göstərir ki, ermənilərin Qarabağa dair ərazi iddiaları əsassızdır. Çünki əgər ermənilər Qarabağ xanlığında yaşayıb vəzifə sahibi olsaydılar, general Sisianovla müqavilə Qarabağ xanı ilə imzalanmazdı.

### Ulu Öndərin Şuşaya səfəri...

Xatırladaq ki, Ümummilli Lider Heydər Əliyevin 1967-ci ildə ilk dəfə Şuşaya səfəri ərəfəsində Xankəndidə azərbaycanlılarla ermənilər arasında münaqişə zəminində qan tökülmüşdü. Dağlıq Qarabağda olan bəzi millətçilər üç azərbaycanlını vəhşicəsinə öldürmüşdülər. Həmin məsələni dərindən araşdırmaq üçün Ulu Öndər Heydər Əliyev 15 gün Dağlıq Qarabağda olmuş, eləcə də Şuşaya getmişdi.

Şuşada olarkən 1905-1907-ci, 1918-1920-ci illərdə ermənilərin təcavüzü nəticəsində dağıdılmış və yandırılmış evlərin hələ də bərpa edilmədiyini görən Ümummilli Lider qalalar şəhərinin Azərbaycan xalqının böyük bir tarixi abidəsi, incisi kimi bərpa etdirilməsinin zəruriliyi qənaətinə gəlib. Bakıya qayıtdıqdan sonra şəhərin belə vəziyyətdə saxlanılmasının mümkünsüzlüyü barədə fikir və mülahizələrini Azərbaycan rəhbərlərinə söyləyib.

Taledən və qismətdən qalalar şəhərini Ulu Öndər özü yenidən və əsaslı bərpası üçün qərarlar qəbul etdi. 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra Ulu Öndər Şuşanı abadlaşdırmaq, dağıdılmış, yandırılmış evləri bərpa etmək, eyni zamanda tarixi abidələri qoruyub saxlamaq və böyük bir muzeyə çevirmək üçün əhəmiyyətli işlər gördü. Siyasi elmlər doktoru, professor Elçin Əhmədov yazır ki, 1970-ci illərdə ermənilər Dağlıq Qarabağ məsələsini yenidən ortaya atsalar da, onların bu istəklərinin qarşısı qətiyyətlə alındı. Həmin dövrdə Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri Dağlıq Qarabağda milli ruhun oyadılması oldu: "Ümummilli Lider bu istiqamətdə sistemli və məqsədyönlü şəkildə fəaliyyət göstərirdi. Hər şeydən əvvəl, Qarabağ tarixini, mədəniyyətini, incəsənətini, iqtisadi inkişafını mükəmməl bilən Ulu Öndər bu məsələyə çox həssaslıqla yanaşırdı. Azərbaycanın qədim mədəniyyət mərkəzi kimi Şuşa şəhərinin tarixi keçmişini yaxşı bilən Heydər Əliyev şəhərə çox böyük qayğı göstərərək onun inkişafına çalışırdı. Eyni zamanda Ümummilli Lider Şuşaya adi bir şəhər deyil, zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı və Azərbaycanın milli maraqlarını hər zaman uca tuturdu".

Ümummilli Lider eyni zamanda Şuşada aparılan tikinti-quruculuq işləri ilə yaxından maraqlanmış, Azərbaycan poeziyasının klassikləri M.P.Vaqifin və Xurşidbanu Natəvanın yaşayıb yaratdığı yerlərlə tanış olmuşdu. Şuşa rayonunun rəhbərləri ilə keçirdiyi görüşdə Ümummilli Lider tövsiyə edərək demişdi: "...Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır".

Heydər Əliyevin böyük səyləri nəticəsində 1977-ci ilin avqust ayında Azərbaycan SSR Nazirlər Soveti Şuşa şəhərini tarix-memarlıq qoruğu elan edən qərar verdi.

Həmin illərdə Heydər Əliyevin bu bölgəyə göstərdiyi diqqət və qayğı daha da artmış və geniş quruculuq işləri vüsət almışdı. Görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, məqbərə tikilmiş və 1982-ci il yanvarın 14-də yağan güclü qarın altında Ümummilli Lider Şuşada şairin məqbərəsini böyük təntənə ilə açmışdı. Onun M.P.Vaqifə bu münasibəti bir tərəfdən, milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən, diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Əslində məqbərə eyni zamanda gözəl memarlıq abidəsi idi. Heydər Əliyev abidənin tikintisini böyük, əlamətdar hadisə hesab edirdi. Ona görə də açılışa gedərkən yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparmışdı. Bu addımı ilə Ümummilli Lider ziyalıları Dağlıq Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, vilayətə tez-tez səfərə gəlmələrini tövsiyə edirdi.

Bəli, Ümummilli Lider Heydər Əliyevin göstərişi ilə Şuşada yaşamış digər elm və mədəniyyət xadimlərinin də xatirəsi əbədiləşdirildi: 1982-ci il avqustun 2-də bu qala-şəhərdə Xurşidbanu Natəvana abidə qoyuldu. Nəticədə məhz Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi illərdə Şuşa şəhərinin siması əsaslı şəkildə dəyişildi, yeni iş yerləri açıldı, yerli əhalinin milli ruhu daha da yüksəldi.

Ulu Öndər Heydər Əliyev 1996-cı il mayın 6-da Prezident Sarayında Şuşa və Laçın rayonlarının ictimaiyyəti ilə görüşdə ümumiyyətlə Qarabağın Azərbaycan üçün müstəsna əhəmiyyəti olduğunu bildirərək demişdir: "...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

**Tarixin yadigarları**

## Şuşanın iki cümə məscidi

**Azərbaycanın ən qədim və gözəl şəhərlərindən biri olan Şuşa tarixi-mədəni, dini abidələri, memarlıq nümunələri ilə zəngindir. Şəhərin ərazisində tikilmiş ən qədim məscid Yuxarı Gövhər ağa məscididir. Şuşanın mərkəzi meydanında yerləşən bu məscid Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən qeydiyyata alınmış ölkə əhəmiyyətli tarix-mədəniyyət abidələrindən biridir.**





Araşdırmalara görə, Yuxarı Gövhər ağa məscidinin inşası dörd mərhələdə həyata keçirilib. Ərazidə ilk məscid Qarabağ xanlığının və Şuşa qalasının banisi Pənahəli xanın göstərişi ilə 1750-ci illərdə tikilib. Pənahəli xan Qarabağ xanlığının mərkəzini Şahbulaq qalasından Şuşaya köçürmək məqsədilə yeni şəhər salınmasına qərar verib. Onun göstərişi ilə Şuşa qalası, qala daxilində xan ailəsi üzvləri üçün qəsr və saraylar, məscid inşa edilib. Şuşada həmin dövrdə bütün tikililər daşdan inşa edilib. Ancaq məscidin inşasında qamışdan istifadə olunub. E.Avalov inşaat materialı kimi qamışın seçilməsini tələskənliklə izah edib. Qarabağ tarixçisi Baharlının məlumatına görə, məscidin iki qapısı olub. Həmin məscidin memarlıq xüsusiyyətləri barədə isə heç nə məlum deyil.

Pənahəli xanın oğlu İbrahimxəlil xan hakimiyyətə gəldikdən sonra, 1768-1769-cu illərdə qamış məscidin yerində daşdan yeni bina tikilib. Yeni məscidin inşasında daş və əhəng məhlulundan istifadə olunub.

XIX əsrin birinci yarısında yararsız hala düşmüş bu məscidin yerində Gövhər ağanın maddi dəstəyi ilə qoşa minarəli üçüncü məscid inşa edilib. Həmin məscidin təsvirləri Vasili Vereşaginin rəsmlərində qalır. Bu rəsmlər məscidin memarlıq-bədii xüsusiyyətləri haqqında məlumat verən yeganə mənbə hesab edilir.

Məlumata görə, 1836-cı ildə həmin dövrədək Şuşada inşa edilmiş məscidlərin heç birinin minarəsi olmayıb. V.Vereşaginin rəsmlərindəki Şuşa cümə məscidinin minarəli olduğu görünür. Tədqiqatçıların fikrincə, minarələr tikiliyə sonradan əlavə edilməyib. Bu fakt V.Vereşaginin rəsmlərindəki məscidin İbrahimxəlil xanın məscidinin yenidən qurulması deyil, tamamilə yeni məscid olması kimi dəyərləndirilir.

V.Vereşaginin təsvirinə görə, Şuşanın üçüncü cümə məscidi ikimərtəbəli, mərkəzi günbəzli, qoşa minarəli bina idi. Memarlıq formalarına görə, bu bina XVI-XVIII əsrlərdə Azərbaycanda geniş yayılmış dini memarlıq kompozisiyası xüsusiyyətlərini əks etdirirdi.

1883-cü ildə Gövhər ağanın maddi vəsaiti əsasında üçüncü məscidin yerində Şuşanın dördüncü və sonuncu cümə məscidi inşa olunub. Dövrümüzə yaxşı qorunmuş səviyyədə çatmış bu məscidin memarı Qarabağda bir çox tikililərin müəllifi olan Kərbəlayi Səfixan Qarabağidir. Şuşada Aşağı Gövhər ağa məscidi, Ağdam cümə məscidi və Bərdə imamzadəsi ilə yanaşı Yuxarı Gövhər ağa məscidi də memarın ən yaxşı əsərlərindəndir.

E.Avalov qeyd edir ki, ola bilsin, memar əvvəlki tikilinin özüllərini yeni məscid binası üçün istifadə edib. Amma dördüncü məscid kompozisiya-planlaşdırma və memarlıq bədii xüsusiyyətləri ilə əvvəlkilərdən kəskin şəkildə fərqlənir. Giriş Şahbulaq məscidində olduğu kimi yarımdairəvi daş tağla həll edilib. Eyvanın tağları üzərində Quran ayələri yazılmış dekorativ lent uzanır. Məscidin əsas fasadının memarlıq həlli dərin eyvanı ilə ona daha çox yaşayış binaları üçün xarakterik olan və dini tikililərdə az rast gəlinən bədii görünüş verir. Bu bədii xüsusiyyət Şuşanın sonuncu cümə məscidinin əsas fərqli xüsusiyyətlərindən biri sayılır.

Minarələrin üstünü son zamanlaradək ayparalar bəzəyirdi. Kərpiclə hörülmüş minarələrin səthi qabarıq lentlərlə üç hissəyə bölünmüş və rəngli daşlarla bəzədilmişdi. Minarənin yuxarısında Quran ayələri yazılmış lent var. Yuxarı Gövhər ağa məscidinin minarələrinin naxış dizaynı, məscid yaxınlığındakı mədrəsənin ikinci mərtəbəsindəki otaqlardan birinin divar rəsmlərinin müəllifi Mir Möhsün Nəvvabdır.

Birinci Qarabağ müharibəsi zamanı Şuşanın işğalından sonra şəhərdəki əksər memarlıq nümunələri, tarixi-mədəni, dini abidələrimiz erməni işğalçıları tərəfindən dağıntılara məruz qaldı. Yuxarı Gövhər ağa məscidi də erməni vandalizmindən zərər çəkdi, interyerləri demək olar ki, məhv edildi, minarələrinin dekoru zədələndi, çadırvari örtükləri dağıdıldı.

Bu baxımdan Şuşada iki cümə məscidindən biri, Azərbaycanın memarlıq abidələrindən olan Aşağı Gövhər ağa məscidi də Yuxarı Gövhər ağa məscidi ilə eyni taleni yaşayıb. 1992-ci il mayın 8-də Şuşa şəhəri işğal edildikdən sonra Aşağı Gövhər ağa məscidinin interyeri erməni vandalizmi nəticəsində tamamilə dağıdılıb.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidəsi kimi qeydiyyata alınmış bu məscid Şuşanın Qapan meydanında yerləşir.

Şuşa şəhərinin 1855-ci ilə aid baş planında yaxınlıqda yerləşən mədrəsə ilə birlikdə qeyd olunan bu tikili həm Aşağı məscid, həm də Kiçik məscid kimi tanınır. Məsciddə ilk yenidənqurma-təmir işləri 1874-1875-ci illərdə aparılıb. Yeni formatda olan bu məscid də Gövhər ağanın maddi vəsaiti əsasında tikildiyi üçün Aşağı Gövhər ağa məscidi adı ilə tanınıb.

E.Avalov qeyd edib ki, 1855-ci ilin baş planına əsasən, Aşağı məscidin ölçüləri Yuxarı məscidin ölçülərindən kiçik olub. Yuxarı məsciddən fərqli olaraq Aşağı məscidin minarələri əsas fasadı yox, cənubda yerləşən və kiçik Qapan meydanına açılan ikinci fasadı əhatə edir. İki yaruslu Aşağı Gövhər ağa məscidinin əsas - şimal fasadında üçtağlı arkadalı eyvan yerləşir. Məscidin orta tağı yarımdairəvi olan yan tağlardan fərqli olaraq oxvaridir. Yan tağlar üstündə əsas fasad boyunca yüksələn həmin tağ məscidin parad girişini vurğulayır.

Aşağı məscidin dairəvi minarələri kərpicdən inşa edilib. Yuxarı məsciddən fərqli olaraq burada minarələrin bəzədilməsi zamanı müxtəlif həndəsi naxışlara yer verilməyib, yalnız həndəsi formada yazılmış "Allah" ifadəsi burulan lent var.

Aşağı Gövhər ağa məscidinin ibadət zalı çatmatağ və beş gümbəzlə örtülüb. Bu da həmin tikilinin əsas xüsusiyyətlərindən sayılır. Məscidin memarlıq üslubunda əsas yeri tutan cəhətlərdən biri də bəzədilmiş mehrabın yerləşməsidir. Məscidin ikinci mərtəbəsində yan hissələrdə qadınlar üçün nəzərdə tutulmuş eyvanlar uzanır. Bu da onun memarlıq baxımından zənginliyini göstərir.

2020-ci il noyabrın 8-də Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən Şuşanın işğaldan azad edilməsi nəticəsində oradakı tarixi, memarlıq abidələrimiz də erməni əsarətindən qurtuldu. Şuşanın tarixi-mədəniyyət memarlığının incilərindən olan bu iki cümə məscidi də erməni vandallarından xilas oldu. Prezident İlham Əliyevin göstərişi ilə digər tarixi-mədəni, dini abidələrimiz kimi, həm Yuxarı Gövhər ağa məscidi, həm də Aşağı Gövhər ağa məscidi bərpa olunacaq.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

**Musiqi səhnəsi**

## Xarrat Qulunun və Kor Xəlifənin məktəbləri

**Muğam məclisləri XIX əsrin ikinci yarısında Bakı, Şamaxı, Şuşa kimi iri mədəni mərkəzlərdə müxtəlif şəxslər - görkəmli şair və musiqiçilər, mədəniyyət hamiləri - mesenatlar, eləcə də zadəganlar tərəfindən onların öz saraylarında və kübar salonlarında təşkil olunardı. Bunlar bəzən "musiqi dərnəyi" və ya "musiqi salonu" da adlandırılırdı.**



Şuşada "Nəvvabın məclisi", Şamaxıda "Mahmud ağanın dərnəyi", Bakıda isə "Məşədi Məlik Mənsurovun salonu" qeyd olunurdu. Bütün bu musiqi məclisləri əsl musiqi məktəbi idi. Belə məclislər musiqisevərlər tərəfindən keçirilirdi.

Tədris ocağı kimi "muğam məktəbi" ilk dəfə XIX əsrin ortalarında Xarrat Qulu tərəfindən yaradılmışdır. Məktəb əsasən dini məqsədlərə xidmət etmişdir. Xarrat Qulu dini mərasimlərdə (məhərrəmlik təziyəsində) iştirak etmək üçün gözəl səsi olan gəncləri öz məktəbinə cəlb edir, onlara muğamatı və oxumaq qaydalarını öyrədirdi. Lakin inkar olunmaz bir faktdır ki, bu məktəb sonradan muğamı tədris edən musiqi məktəblərinin təşkilində nümunə olmuşdur.

Xarrat Qulunun musiqi məktəbi dinə xidmət etsə də, Azərbaycan muğam sənətinin inkişafında mühüm rol oynamış bir sıra ustad sənətkarların yetişməsinə səbəb olmuşdur. Qarabağın ən görkəmli xanəndələri Hacı Hüsü, Məşədi İsi, Dəli İsmayıl, Şahnaz Abbas, Əbdülbağı Zülalov (Bülbülcan), Keştazlı Həşim, Keçəçi oğlu Məhəmməd, Cabbar Qaryağdıoğlu və tarzən Sadıqcan həmin məktəbin yetirmələridir.

Kor Xəlifənin məktəbi də 1883-cü ildən 1893-cü ilə qədər Şuşada fəaliyyət göstərmiş dini xarakterli musiqi məktəbi olmuşdur. Məktəb şəhərdə xəlifə vəzifəsində çalışan və dini işlərə nəzarət edən "Kor Xəlifə" ləqəbli Molla Əli Qarabaği tərəfindən açılmışdır. Burada dini elmlər geniş tədris olunsa da, Şərq şairlərinin və mütəfəkkirlərinin əsərləri, klassik muğamlar, onları oxumaq qaydaları, xanəndəlik sənətinin incəlikləri, musiqi nəzəriyyəsi və praktikası, muğam oxumaq, tar, kamança və digər musiqi alətlərində çalmaq da öyrədilir, klassik musiqi əhali arasında geniş yayılır, şagirdlər kamil musiqişünas, ədəbiyyatçı kimi yetişirdilər. Məktəbdə tez-tez poeziya və muğam müsabiqələri də təşkil edilir, daha çox istedadı olan gənclər üzə çıxardılır, onları həvəsləndirmək üçün mükafat verilirdi. Onillik fəaliyyəti dövründə Kor Xəlifənin məktəbi nəinki Qarabağda, həmçinin qonşu vilayətlərdə və İranda da tanınmışdı. Bu təhsil müəssisəsi Qarabağ əhalisinin mədəni inkişafına böyük təsir göstərmiş, Şuşanın Zaqafqaziyanın musiqi mərkəzinə çevrilməsində mühüm rol oynamışdı.

***"Azərbaycan"***

**Mədəni mühit**

## Ədəbi məclislər

**XIX əsrin sonlarında Şuşada mətbəələr açılır, kitablar nəşr edilib əhali arasında yayılırdı. Bu işlərdə dövrün tanınmış alimi, ədibi, şairi, musiqişünası və xəttatı Mir Möhsün Nəvvab Qarabaği fəal iştirak edirdi.**



M.M.Nəvvab 1903-cü ildə Şuşada Yuxarı Gövhər ağa məscidinin həyətindəki birmərtəbəli binada qiraətxana-kitabxana açmış, buraya Bakıdan "Əkinçi", Tiflisdən "Ziya", "Ziyayi-Qafqaziyyə", "Kəşkül", "Qafqaz", Hindistandan "Həblül-mətin", Bağçasaraydan "Tərcüman" qəzetlərini, İstanbuldan, Tehrandan, Moskvadan, Peterburqdan qəzet və jurnallar gətirtdirmişdi. Əbdülkərim bəy Mehmandarov, Nəcəf bəy Vəzirov, Əhməd bəy Ağayev, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Fərhad Ağazadə və dövrün onlarca görkəmli və tanınmış ziyalıları vaxtaşırı burada ədəbi məclislərdə iştirak etmişlər. Həmin məclislərin hər biri əsl sənətkarlıq məktəbinə çevrilmiş, səsi-sədası iri şəhərlərə, əyalətlərə yayılmışdır.

**Maarif işığı**

## Şuşa qəza məktəbi

**Azərbaycanın maarifçilik tarixində Şuşanın ədəbi, mədəni və təhsil mühitinin böyük rolu olmuşdur. Ötən yüzilliklərdən üzübəri bu şəhər ictimai fikir tariximizin inkişafına mühüm töhfələr vermiş, Azərbaycana və dünyaya görkəmli şəxsiyyətlər bəxş etmişdir.**



XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 40-dan çox müəllim və minlərlə digər peşə sahibi olmuşdur. Bu böyük ziyalı təbəqəsi Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə, burada elmi və mədəniyyəti, təhsil mühitini inkişaf etdirməkdə çox böyük əmək sərf etmişdir. Şuşa milli ruhumuzun etibarlı sığınacağına çevrilmişdir.

Şuşa qəza məktəbi Zaqafqaziya məktəblərinin 1829-cu il 2 avqust tarixli nizanaməsinə əsasən, 1830-cu il dekabrın 30-da fəaliyyətə başlamışdı. Məktəb dövlət idarələri üçün qulluqçular, ilk növbədə isə, Azərbaycan və rus dillərinə tərcüməçilər hazırlamaq məqsədilə açılmışdı. Burada təhsil alanların böyük əksəriyyəti bəy və tacir balaları idi. Məktəb Şuşada olan Bazel alman missionerlərinin Yevageli cəmiyyəti tərəfindən pulsuz olaraq bir il müddətinə verilmiş binada yerləşirdi. İki sinif otağından əlavə, burada iki müəllimin yaşaması üçün də yaxşı şərait yaradılmışdı. Məktəbin illik xərci əsginas ilə 3800 manat idi və xəzinədən ödənilirdi. Yeni bina tikmək üçün yerli əhali gümüş pulla 5235 manat 16 qəpik pul toplamışdı.

Şuşa qəza məktəbinin birinci sinfinə əvvəlcə 19 şagird qəbul olunmuşdu. Lakin ildən-ilə şagirdlərin sayı artaraq 1833-cü ildə 27, 1834-cü ildə 44 nəfərə çatmış və ikinci sinif də açılmışdı. Rusiyadan Zaqafqaziya Məktəblər Direktorluğunun sərəncamına göndərilmiş titulyar müşavir Nikolay Mixaylovski məktəbin ilk müəllimi və ştat üzrə nəzarətçisi təyin edilmişdi. Tədris planına şəriət, qiraət, hüsnxətt, hesab, rus və Azərbaycan dilləri daxil idi. Bu fənlərlə yanaşı, kənd təsərrüfatı kursu keçilir və bağçılıq öyrədilməsi də nəzərdə tutulurdu. Açılış münasibətilə məktəbə ilk oxu üçün bəzi kitablar ianə edilmiş, bundan əlavə, Zaqafqaziya Məktəblər Direktoru Tiflis gimnaziyasından pulsuz olaraq bir sıra dərslik və tədris vəsaiti göndərmişdi. Məzunları Azərbaycan maarifinin, mədəniyyətinin inkişafında mühüm və böyük rol oynamış Şuşa qəza məktəbi 1874-cü ilə qədər öz fəaliyyətini davam etdirmiş, yerini Şuşa şəhər məktəbinə vermişdir. Şuşa qəza məktəbində kitabxana yaradılmışdı. 1845-ci ilin məlumatına görə, məktəbin kitabxanasında 301 adda ədəbiyyat və digər tədris vəsaiti var idi.

Məktəbi bitirənlərdən bir çoxları - Firudin bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Həsənəli xan Qaradaği və başqaları sonralar Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasına daxil olmuşdular.

***"Azərbaycan"***



**QARABAĞ**
*dirçəliş yolundadır*



# Ağdamlılar Böyük Qayıdışa hazırdırlar







Əvvəli 1-ci səh.

Prezident İlham Əliyevə və qüdrətli ordumuza böyük minnətdarlıq hissi ilə tezliklə elimizə, obamıza qayıdacağıq".

Həyat yoldaşı Şərafət xanım da sevinc hisslərini bölüşərək deyir ki, neçə gündür kəndlərini yuxularında görür. Fikri-xəyalı Salahlı-Kəngərlidədi: "Biz də uşaq kimi sevinirik vallah. Adam inana bilmir ki, yurdumuza qayıdırıq. Amma bir gün qayıdacağımıza da şübhəm yox idi. Çünki İlham Əliyevə inanırdıq. Prezidentimiz deyirdi ki, Qarabağ düşmən tapdağında qalmayacaq, biz tarixi torpaqlarımızı geri alacağıq. Əgər sülh yolu ilə alınmasa, Azərbaycan güc yolunu seçəcək. Belə də oldu. Ermənilər 4 ilə işğal etmişdilər Qarabağı. Amma İlham Əliyev 44 günə geri qaytardı o torpaqlarımızı. Allah Prezidentimizin yardımçısı olsun. Həsrətimizə, nisgilimizə son qoydu. Ən böyük arzumuzu gerçəkləşdirdi".

Hümbətovlar ailəsi böyük sevinc hissi yaşayır. Ağdama nə zaman qayıdacaqları günü səbərsizliklə gözləyirlər. Ən çox darıxan isə Salahlı-Kəngərlini yalnız şəkillərdə görən Sevincdir. Təbii ki, onun bütün xəyalları gerçəkləşəcək.

Biz isə Hümbətovlar ailəsi ilə növbəti dəfə Salahlı-Kəngərlidə görüşmək diləyi ilə sağollaşıb ayrılırıq.

## "Həsrətə, intizara son qoyulur, ata-baba yurdumuza qayıdırıq"

Həyətə düşüb şəhərciyi gəzirik. Hər kəsin simasında xoş təbəssüm var. Qarşımıza çıxan Elşən Eyvazovla ayaqüstü söhbətləşirik. O, Ağdamın Seyidli kəndindəndir. 1993-cü ildə doğma kəndlərini tərk edəndən sonra müxtəlif rayonlarda müvəqqəti olaraq məskunlaşıb. 2015-ci ildə bu qəsəbəyə köçüblər. 3 övlad atasıdır. Deyir ki, artıq doğma kəndə dönmək ovqatındadırlar: "Həsrətə, intizara son qoyulur, ata-baba yurdumuza qayıdırıq. Şükürlər ki, bu günü görmək, bu sevinci yaşamaq, bu ovqatı ürəyimizdə daşımaq bizə nəsib oldu. Yurd yerlərimizin nisgilini çəkə-çəkə gəlib bu xoş günə çatdıq. Nə yaxşı ki, bizim torpaq həsrətimiz vüsala qovuşdu.

Var olsun Ali Baş Komandanımız və müzəffər Ordumuz! Allah İlham Əliyevi Azərbaycan xalqının başının üstündən əskik etməsin. Biz ağdamlılar hər zaman Prezidentimizdən böyük dəstək görmüşük. Müharibədən əvvəl qaçqın və məcburi köçkünlərə hər cür qayğı göstərirdi. İndi də inanırıq ki, torpaqlarımızı necə geri qaytardısa, eləcə də ermənilərin xarabalığa çevirdiyi yurd yerlərimizi yenidən quracaq və cənnət guşəmiz olan Qarabağ daha da gözəlləşəcək. Ağdam əvvəllər də düşmənə göz dağı idi. Əminəm ki, İlham Əliyev rayonumuzu, kəndlərimizi yenidən qurub yenə də ermənilərə göz dağı edəcək".

## Ağdam cənnətə, gülüstana çevriləcək

Qəsəbədə Zeynalovlar ailəsinin də qonağı olduq. Əslən Ağdamın Ətyeməzli kəndindəndirlər. Ailənin başçısı Zaur Zeynalov 1993-cü ildə kəndləri işğal edilərkən 11 yaşında olub. Bu gün isə 2 övlad atasıdır. Anası Pəri xanım təqaüdçüdür. Atası Rizvan kişi 2009-cu ildə vəfat edib. Zaur deyir ki, elə ən çox yurd həsrəti çəkən də atası idi: "Bu gün Ağdam azadlıqdadı. Atam illərlə bu günü gözlədi. Dözə bilməsə də, indi ruhu şaddır. Anamın sevincindən gözünün yaşı qurumur. Hər gün İlham Əliyevə alqış, dua edir. Deyir ki, İlham Əliyev arzumuzu, diləyimizi gerçəkləşdirdi, üzümüzü güldürdü. Qarabağ dərdimizə əlac edən İlham Əliyev baş tacımızdı, Allah Prezidentimizə uzun ömür versin.

Həqiqətən də bu gün hər kəs Ali Baş Komandanımızla qürur duyur. Düşmənə necə sarsıdıcı zərbə vurdusa, çətin ki, onlar illərlə özünə gələ bilsin. Dünya da gördü ki, İlham Əliyev bütün verdiyi vədləri necə yerinə yetirirsə, Qarabağı da eləcə qaytardı. Müzəffər Ali Baş Komandan kimi Ermənistanı diz çökdürdü. Əminəm ki, İlham Əliyev Ağdamı, Qarabağı cənnətə çevirərək Azərbaycanın necə qüdrətli dövlət olduğunu bir daha dünyaya göstərəcək".

Zeynalovlar ailəsində böyüyən Nərgiz və Nuray da çox sevinclidirlər. Onlar dədə-baba yurdlarını görməyiblər. Amma atalarının 11 yaşında olarkən tərk etdiyi Ətyeməzli kəndinə getmək üçün darıxırlar. Nərgiz hər gün pianoda müxtəlif mahnılar ifa edərək qələbənin sevincini bölüşür: "Çox sevinirəm. Atamın-anamın doğulub böyüdüyü kəndə gedəcəyik. Deyirlər kəndimizin havası, suyu elə qəşəngdi ki, gedən qayıtmaq istəmir. Onu gözləyirik ki, desinlər hazırlaşın gedirik. Uça-uça gedəcəyik. Bacımla hər gün pianoda müxtəlif mahnılar ifa edirik. Öncə musiqilərimizi torpaqlarımız uğrunda canlarını fəda edən, bizim doğma kəndimizə qayıtmağımız üçün sinəsini düşmən gülləsinə sipər edən müqəddəs şəhidlərimizin ruhuna ithaf edirik, sonra böyük qələbəmizi göstərən mahnılar ifa edib sevinirik. Tezliklə kəndimizə dönüb orada daha gözəl mahnılar ifa edəcəyik".

Nərgizlə Nurayın bu diləkləri, əlbəttə ki, reallaşacaq. Bərdədə qaçqın və məcburi köçkünlər üçün salınmış qəsəbələrdə yaşayan 4272 ağdamlı ailəsində böyüyən uşaqların hamısı doğma Qarabağın havasını udub, suyunu içib, dağlarını qarış-qarış gəzib xoşbəxt günlərini yaşayacaqlar. O yerlərin havasını udmaq, suyunu içmək ən böyük bəxtəvərlikdir.

"Ruhlar şəhəri" adlandırılan Ağdam çox keçməz ki, gülüstana çevrilər. Qalib Ali Baş Komandan kimi Ağdama səfər edərkən İlham Əliyev o xarabalıqların üzərində dayanıb məğrurcasına bəyan etdi ki, tezliklə bütün Qarabağda abadlıq, quruculuq işləri, inkişaf başlayacaq. Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək və qısa müddətdə zərərçəkmiş bütün insanlar dövlət dəstəyi hesabına öz dədə-baba torpaqlarına qayıdacaqlar. Qarabağda həyat yenidən normal məcraya düşəcək. Bu qayıdış, bu dönüş isə tarixin səhifələrinə böyük hərflərlə yazılacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Biz Qarabağı yenidən qurub əvvəlkindən də abad edəcəyik

## Bunun üçün dövlətimizin maddi imkanı və xalqımızın mənəvi gücü yetərincədir

Əvvəli 1-ci səh.

Səfər zamanı dövlət başçısının təməlini qoyduğu obyektlərin nəqliyyat infrastrukturu ilə bağlı olması təsadüfi deyil. Çünki infrastruktur yaratmadan bölgəni yenidən qurmaq və inkişaf etdirmək mümkün deyil. Şuşaya qısa zamanda yeni yolun çəkilməsinə qərar verilməsi də bununla bağlıdır. Həmçinin Füzulidə hava limanının təməlinin qoyulmasının xüsusi iqtisadi və siyasi mənası var. Bu layihənin iqtisadi əhəmiyyəti işğaldan azad olunan ərazinin ölkəmiz üçün xüsusi önəm daşıdığını dünyaya bildirilməklə xarici investorların bölgənin bərpasına cəlb edilməsidir. Siyasi əhəmiyyəti isə odur ki, biz bölgədə söz sahibiyik və dağlıq Qarabağın üzərində nəzarət Azərbaycana məxsusdur.

Qeyd edək ki, xarici investorlar hər hansı bir əraziyə sərmayə qoyarkən, ilk növbədə, oradakı infrastrukturu nəzərə alırlar. Bu üzdən Prezident İlham Əliyev bölgədə avtomobil, dəmir yolu və hava nəqliyyatı infrastrukturunun yaradılmasına xüsusi əhəmiyyət verir. Yeri gəlmişkən, bir mühüm məqama da toxunaq: Prezident 10 noyabr Bəyanatı imzalandıqdan sonra bildirib ki, Naxçıvana dəhlizin açılmasının sənədə salınması onun tələbi ilə baş tutub. Qeyd edək ki, bəyanatda torpaqlarımızın azad olunmasından sonra ən çox əhəmiyyət daşıyan məsələlərdən biri də Naxçıvana birbaşa yolun, o cümlədən dəmir yolu xəttinin açılmasıdır. Bu, təkcə Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana yolun açılması deyil, həm də ölkəmizə mühüm tranzit ölkə statusunun qazanmasında əlavə imkanlar yaradır. Məlumdur ki, Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi ilə Şərqlə Qərb arasında mühüm tranzit ölkə statusunu qazanmışıq. Mehri dəhlizindən Naxçıvana dəmir yolunun açılması isə ölkəmizə əlavə imkanlar qazandıracaq. Belə ki, bu gün dünyada marşrutların şaxələnməsinə, əlavə yolların mövcudluğuna xüsusi əhəmiyyət verilir.

Hazırda Çinlə Avropa arasında ticarət dövriyyəsinin dəyəri 1 trilyon dollardan çoxdur. Pandemiya başa çatdıqdan sonra dünyada ticarətin dirçələcəyi də məlumdur. Azərbaycan isə belə bir zamanda yüklərin Çindən Avropaya və əks istiqamətə daşınmasında əlverişli ölkəyə çevrilib. Üstəlik əlavə marşrut ölkəmizə yüksək gəlir gətirməklə yanaşı, həm də əlavə siyasi dividendlər də qazandıra bilər.

Bu yeni dəmir yolu xətti eyni zamanda qardaş Türkiyə ilə iqtisadi əlaqələrimizi yaxşılaşdıracaq, Naxçıvanın həm Avropaya, həm də Şərqə qapılarını açacaq, muxtar respublikanın iqtisadi inkişafını sürətləndirəcək. Üstəlik Türkiyənin Orta Asiya ölkələri ilə iqtisadi və siyasi əlaqələrinin genişlənməsinə imkanlar yaranacaq. Səbəbsiz deyil ki, bir çox ermənipərəst siyasətçilər və politoloqlar 10 noyabr Bəyanatındakı bu bəndi ölkələrinin geosiyasi maraqlarına təhlükə kimi görürlər. Bu səbəbdən çalışırlar ki, bu bəyanatdakı həmin bəndin icrasına mane olsunlar.

Prezident İlham Əliyevin səfər zamanı Şuşada ilk görüşü hərbçilərlə keçirməsi də təsadüfi deyil. Dövlət başçısı bununla dünyaya və ermənilərə göstərdi ki, Şuşa fatehləri hələ buradadır. Çünki hələ də Ermənistanda Dağlıq Qarabağın "status"unu "diriltmək" və revanş almaq istəyənlər var. Amma onlar unudurlar ki, onların bu arzuları çoxdan cəhənnəmə göndərilib.

Buna baxmayaraq, xam xəyala düşənlər ATƏT-in Minsk qrupunun həmsədri olan Fransa və ABŞ-la "status" məsələsi ətrafında yeni siyasi oyunlara başlamaq istəyirlər. Ermənistan xarici işlər naziri A.Ayvazyanın yanvarın 20-də ATƏT-in Minsk qrupu həmsədr ölkələrinin Ermənistandakı səfirləri ilə görüşü də bu amala xidmət edirdi.

O ki qaldı ermənilər tərəfindən orada-burada səsləndirilən revanş çağırışlarına, yenidən müharibə aparıb itirdiklərini geri alacaqları barədə bəyanatlarına, onlara Şuşada layiqli cavab verilib. Prezident İlham Əliyev qəti şəkildə həmin qüvvələrə xəbərdarlıq edərək bildirib: "Mən demişəm ki, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, cavabımız çox sərt olacaq, çox peşman olacaqlar və yenə də acı məğlubiyyətlə üzləşəcəklər... Bu gün Dağlıq Qarabağda özünü siyasətçi adlandıran bəzi ünsürlər yenə də baş qaldırmağa çalışırlar. Unutmasınlar, bizim səbrimizlə oynamasınlar, 44 günlük müharibə onların yadından çıxmasın. Yoxsa ordu qurub torpaqları geri alacaq? Gəlin, alın. Gəlin bura, siz burdasınız, yaxındasınız. Gəlin alın, görüm necə alırsınız? İti qovan kimi qovmuşuq sizi, rədd etmişik, cəhənnəmə göndərmişik".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Qarabağın bərpası və inkişafı prosesində xarici dəstək mühüm amildir

## Post-konflikt ərazilərin dirçəldilməsinin maliyyələşdirilməsi sahəsində mükəmməl beynəlxalq təcrübə Azərbaycanda tətbiq oluna bilər

Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində şanlı və tarixi qələbəsi ilə torpaqlarımız işğaldan azad edildikdən sonra həmin ərazilərin tezliklə bərpası və yenidən qurulması, məcburi köçkünlərin öz yurdlarına qayıtması və məskunlaşdırılması, regionun gələcək sosial-iqtisadi inkişafı hazırda əsas müzakirə mövzusudur. Bütün bunlar isə olduqca çətin və yüksək məbləğdə vəsait tələb edən prosesdir. Bu işə dövlətin imkanlarının səfərbər olunması ilə yanaşı, digər maliyyə mənbələrinin də cəlb edilməsi vacib və arzu olunandır.

Artıq azad olunmuş torpaqlarda bərpa işlərinə başlanılıb. Qarabağda quruculuq işlərinin aparılması üçün 2021-ci ilin dövlət büdcəsində 2,2 milyard manat vəsait də nəzərdə tutulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci ilin yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirədə dediyi kimi: *"Bizim planlarımız böyükdür. Müharibə başa çatıb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin. Ona görə 2021-ci il bu baxımdan çox əlamətdar olmalıdır. Məhz 2021-ci ildə Azərbaycan xalqı və bütün dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır, bizim planlarımız həyatda gerçəkləşir. Keçmiş köçkünlərə tezliklə öz doğma torpaqlarına qayıtmağı arzulayıram. Hər halda Azərbaycan dövləti əlindən gələni edəcək ki, bu gün daha da yaxınlaşsın. Vahid Azərbaycan dövləti bundan sonra uğurla, inamla inkişaf edəcəkdir".*

Bu istiqamətdə çox mühüm qərar qəbul edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə "Qarabağ Dirçəliş Fondu" yaradılıb. Bu fond Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

Bir sıra dost ölkələr - Türkiyə, Pakistan, İsrail, Macarıstan, İran, İtaliya, Böyük Britaniya və s. işğaldan azad olunmuş ərazilərimizin bərpası prosesində iştirak etmək arzusunda olduqlarını bildiriblər. Azərbaycan dövləti də dost ölkələrlə bu sahədə əməkdaşlıq etmək niyyətini açıqlayıb. Prezident İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında çıxışı zamanı bu barədə öz fikrini bildirib: *"Dost ölkələri Azərbaycana cəlb edirik və cəlb edəcəyik. Birinci kontrakt Türkiyə şirkəti ilə bağlanıb, ikinci kontraktı İtaliyadan olan bir şirkətlə bağlamaq planlaşdırılır. Fürsətdən istifadə edib Azərbaycanın dostluq münasibətləri saxladığı dövlətlərin, ölkələrin başçılarına müraciət etmək istərdim ki, onların şirkətləri də bu layihələrdə podratçılar kimi fəal iştirak etsinlər. Bərpa işlərini biz özümüz, öz vəsaitlərimiz hesabına maliyyələşdirəcəyik. Lakin biz istəyirik ki, şəhərlərimizin və kəndlərimizin bərpasına dost ölkələrdən olan şirkətlər cəlb edilsin. Qoy onlar da bu layihələri həyata keçirə bilsinlər və həmrəylik nümayiş etdirsinlər, ona görə ki, biz, heç şübhəsiz, bütün şəhərləri bərpa edəcəyik, Qarabağı dirçəldəcəyik və onu dünyanın ən inkişaf etmiş regionlarından birinə çevirəcəyik".*

Artıq Qarabağda quruculuq işləri sahəsində xarici ölkələrin şirkətləri ilə konkret əməkdaşlığa başlanılıb. Belə ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində elektroenergetika infrastrukturunun yaradılması məqsədilə "Azərenerji" ASC ilə İtaliyanın "Ansaldo Energia" şirkəti arasında qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunacaq 4 ədəd 110 kilovoltluq yarımstansiyanın avadanlıqlarla təchizatını məhz İtaliya şirkəti həyata keçirəcək.

Türkiyədə fəaliyyət göstərən, 130 texnologiya şirkətinə dəstək göstərən "GOSB" texnoparkı ilə Azərbaycan İnnovasiyalar Agentliyi arasında imzalanmış "Mədəni və Elmi Əməkdaşlıq" memorandumuna əsasən Qarabağda Yüksək Texnologiyalar Parkı yaradılacaq. Parkda ən son "soft" və "hard" elmi araşdırmaların aparılması, eyni zamanda yüksək texnoloji cihazların istehsalı planlaşdırılır.

Azərbaycan və Macarıstan macar şirkətlərinin Qarabağda ərazilərin bərpasında iştirak etməsini müzakirə ediblər. Macarıstanın "EximBank"ı rekonstruksiya proqramında iştirak etmək niyyətində olan macar şirkətləri üçün 100 milyon dollar məbləğində kredit xətti açıb. Müharibənin fəsadlarının aradan qaldırılması çərçivəsində Macarıstan ərazilərin minalardan təmizlənməsi işlərinə 25 min avro qrant təklif edib.

Böyük Britaniya Qarabağın azad edilmiş ərazilərinin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərində Azərbaycana kömək göstərə biləcəyini bildirib.

Bəs, beynəlxalq təcrübədə post-konflikt ərazilərin bərpasının maliyyələşdirilməsi sahəsində hansı müsbət təcrübələr var? Beynəlxalq təcrübəyə nəzər salsaq, Yaponiya, Qərbi Avropa ölkələri, xüsusilə Almaniya, yaxın keçmişdə İraq, Livan və s. ölkələrə müharibədən sonrakı illərdə onlara maliyyə, ərzaq və başqa ehtiyaclarını qarşılayan müxtəlif istiqamətli yardımlar həyata keçirilib. Hələ İkinci Dünya müharibəsində Böyük Britaniya, Fransa, Almaniya, İtaliya və Belçikanın bəzi qabaqcıl sənaye və mədəniyyət mərkəzləri də daxil olmaqla bir çox şəhərləri dağıdılmışdı.1948-ci ildə Qərbi Avropada dağıdılmış ərazilərin bərpası və yenidən qurulması səylərinin maliyyələşdirilməsinə kömək etmək məqsədilə Marşal proqramı qəbul edildi. Marshall Planı ABŞ-ın İkinci Dünya müharibəsindən sonra 15 milyard dollardan çox vəsaitlə Qərbi Avropaya yardım göstərən bir proqramı idi. Bu yardım İngiltərə, Fransa, Belçika, Hollandiya, Qərbi Almaniya və Norveç daxil olmaqla 16 Avropa ölkəsinə paylandı.

Bu işdə Almaniya və Yaponiya təcrübəsini xüsusilə qeyd etmək lazımdır. İkinci Dünya müharibəsindən sonra yaranan iqtisadi böhran, ərzaq qıtlığı bu ölkələri müxtəlif dövlətlər, qurum və təşkilatlar tərəfindən göstərilən maliyyə yardımları ilə bərabər xammal da daxil olmaqla sənaye materialları, neft və neft məhsulları, nəqliyyat vasitələri və avadanlıqlar kimi iqtisadiyyatın inkişafına təkan verə biləcək, o cümlədən ağır, şiddətli müharibədən çıxmış əhalinin sosial təminatını yaxşılaşdıracaq yardımları almağa məcbur etdi. ABŞ 1946-1952-ci illərdə Almaniyaya 8,135 milyard dollar, Yaponiyaya isə 4,401 milyard dollar dəyərində qrant, kredit, ərzaq yardımı göstərmişdir.

Yunanıstan, İspaniya kimi ölkələr alman işğalçılarının törətdikləri ağır müharibəyə baxmayaraq, sabit və çiçəklənən bir Qərbi Avropanın yaradılmasına kömək etmək üçün sazişlərdə iştirak edirdilər. Almaniyanın yenidənqurma prosesində kredit yardımı göstərən digər ölkələr Yunanıstan, İspaniya, Pakistan, Misir, Böyük Britaniya və Fransa olmuşdur.

Yaponiyaya ikinci böyük yardım göstərən 1953-1964-cü illərdə 34 inkişaf layihəsi üçün 860 milyon ABŞ dolları məbləğində vəsait ayıran Dünya Bankı olmuşdur. Yaponiya bu yardımı dəmir yolu, avtomobil yolu və bənd tikintisi kimi infrastruktur layihələri üçün istifadə etmişdir.

Yaxın keçmişdə baş verən müharibələrdə isə yardım göstərən ölkələrin, qurumların artımı müşahidə olunur. Dünya Bankının 2011-ci il hesabatına əsasən, müharibə nəticəsində dağıdılmış və zəifləmiş dövlətlərə xarici yardım 1996-1998-ci illərdə 29 faizdən 2006-2008-ci illərdə 41 faizə qədər artmışdır. Beyrutda (Livan) hərbi əməliyyatlar bitdikdən sonra İsveç hökuməti Stokholmda bir konfransa evsahibliyi edərək 900 milyon dollarlıq humanitar yardım toplamışdır. Burada göstərilən yardımlar müxtəlif formalarda: qrant layihələri, kreditlər, Livan Mərkəzi Bankına fərdlər və ya təşkilatlar tərəfindən birbaşa xarici depozitlər idi.

Əsas yenidənqurma layihələri 1992-1995-ci və 1998-2004-cü illər ərzində müxtəlif formalarda olmuş Horizon-2000 Planında nəzərdə tutulmuşdur. Xarici maliyyə yardımları 1992-1997-ci illərdə 4 mlrd, 1998-2004-cü illərdə isə 5,85 milyard dollar həcmində Dünya Bankı, BƏƏ, Avropa İnvestisiya Bankı, İtaliya, Küveyt, Fransa tərəfindən göstərilmişdir. II Paris iclasında isə əsas tərkibini ərəb ölkələri təşkil etməklə Fransa, AB tərəfindən müxtəlif müddətli kredit yardımları göstərilmişdir.

ABŞ İraqın yenidən qurulması prosesində də yaxından iştirak etmiş, bu məqsədlə 1.7 milyard dollar yardım göstərmiş və digər ölkələri də prosesin iştirakçısı olmağa təşviq etmişdir. 2003-cü ilin oktyabr ayında Madriddə keçirilən İraq Beynəlxalq Konfransında 40-dan çox ölkə və beynəlxalq qurum dörd il (2004-2007) ərzində İraqa 13,5 milyard dollar yardım ayırmağa söz vermişdi. Madriddəki konfransda ABŞ-dan sonra ən böyük donor olan Yaponiya 5 milyard dollar vəd etdi, bunun 1,5 milyard dollarını elə orada verdi. İraq Yaponiya yardımı ilə 3 xəstəxananın bərpasını, 742 təcili yardım maşın təminatını və 60 meqavatlıq elektrik stansiyasının tikintisini həyata keçirmişdir. Avropa Komissiyası 2004, 2005 və 2006-cı illərdə əsasən BMT və Dünya Bankı vasitəsi ilə verilmiş 200 milyon avro (təxminən 235 milyon dollar) vəd etdi. 700-dən çox İraq məhkəmə, polis və həbsxana işçisi üçün birbaşa təhsil təşkil olundu. BMT və Dünya Bankı donorları çoxtərəfli nəqliyyat vasitələri ilə təmin edərək İraq üçün etibar fondları yaratdı. Bu iki fond İraqdakı yenidənqurma layihələrinə 1,1 milyard dollar vəsait ayırmaqla yanaşı 1,3 milyard dollarlıq ianə cəlb etdi.

2004-cü ilin noyabrında Paris Klubu, borc verən ölkələr qrupu İraqın təxminən 40 milyard dollar borcunun ən azı 80%-ni bağışlamaq barədə qərar qəbul etdi. İraq mətbuatı bu anlaşmanı İraqın "ikinci qurtuluşu" olaraq xarakterizə etdi. ABŞ bu bağışlama prosesində İraqın borcunun 100%-ni (4.1 milyard dollar) bağışlayaraq öndə gedirdi. İraqın Körfəzdəki ərəb qonşuları da daxil olmaqla digər beynəlxalq donor və kreditorlar İraqın yenidən qurulmasına əhəmiyyətli töhfələr verəcəklərini vəd ediblər. Bu vədlər İraqın davamlı bərpa olunması və bölgəyə yenidən inteqrasiyası üçün vacibdir.

Nəzərdən keçirdiyimiz dünya təcrübəsinə əsasən qeyd edə bilərik ki, hərbi əməliyyatlar sona çatdıqdan sonra qarşıya qoyulan ilk məqsəd müharibədən çıxmış ölkə əhalisinin ilkin ehtiyaclarını qarşılamaq, iqtisadiyyatı zəifləmiş regionun inkişafını təmin etməkdir. Bu və sonrakı, yəni yenidənqurma mərhələlərində xarici ölkələr, beynəlxalq qurum və təşkilatların müxtəlif istiqamətli yardımları mühüm rol oynayır: müxtəlif zamanlarda fərqli ölkələr üçün göstərilmiş yardımları aşağıdakı kimi ümumiləşdirə bilərik: ianələr; investisiyalar; kreditlər; qrantlar; borcların silinməsi; yerli banklara depozitlərin qoyulması; yerli valyutanın dəyərinin yüksəldilməsi.

İşğaldan azad olunmuş Qarabağda ərazilərin sistemli şəkildə bərpa və yenidənqurma işləri həyata keçiriləcək, əhalinin məskunlaşdırılmasına başlanılacaq, böyük potensiala malik regionun iqtisadiyyatı inkişaf etdiriləcəkdir. Böyük vəsait tələb edəcək və Qarabağı yenidən cənnət bir məkana çevirəcək bu tədbirlərin maliyyələşdirilməsi sahəsində beynəlxalq təcrübədən də istifadə edilməsi ölkəmiz üçün faydalı ola bilər.

***Akif MUSAYEV,***
***AMEA-nın İqtisadiyyat İnstitutu Post-konflikt Ərazilərin Bərpası Elmi Mərkəzinin rəhbəri, AMEA-nın müxbir üzvü,***
***iqtisad elmləri doktoru, professor***

***Mahir ZEYNALOV,***
***AMEA-nın İqtisadiyyat İnstitutunun şöbə müdiri,***
***iqtisad üzrə fəlsəfə doktoru, dosent***

# Müdafiə Nazirliyi Qubadlı rayonunun Dəmirçilər kəndinin videogörüntülərini paylaşıb

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Qubadlı rayonunun Dəmirçilər kəndindən videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.



Bazarçayın sahilində, dağətəyi ərazidə yerləşən Dəmirçilər kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu kəndi işğalçılardan azad edib.

# Koronavirusla mübarizə davam edir

*Əvvəli 1-ci səh.*



Pandemiya vəziyyəti nəzarət altına alınıb. Sağalmanın yoluxmanı üstələməsi, eyni zamanda, bu istiqamətdə fərqin getdikcə böyüməsi Azərbaycanda həyata keçirilən sistemli tədbirlərin öz bəhrəsini verdiyini söyləməyə əsas verir.

Müsbət tendensiya bir sıra yumşaldılmaların tətbiqi ilə nəticələnib. Belə ki, sərtləşdirilmiş xüsusi karantin rejimi çərçivəsindəki məhdudiyyətlərin bir qismi yanvarın 18-dən yumşaldılıb. Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, həmin tarixdən 5 şəhər və 12 rayonda yaşayış yerini və olduğu məkanı SMS icazə, icaze.e-gov.az portalı və xidməti vəsiqə əsasında tərk etmək sistemi ləğv edilib.

Muzey və sərgi zallarının, ticarət obyektlərinin (ictimai iaşə obyektləri, kafe, çay evləri və bu kimi məkanlarda müştərilərə yerində xidmət və iri ticarət mərkəzlərinin, "Mall"ların fəaliyyəti istisna olunmaqla), bərbərxanaların, gözəllik salonlarının fəaliyyətinə və kosmetik xidmətlərə, şəhərlərarası və rayonlararası hərəkətə yanvarın 25-dən icazə verilib.

Ümumtəhsil müəssisələrində isə fevralın 1-dən əyani tədrisin mərhələli şəkildə bərpa edilməsi nəzərdə tutulub. Qeyd olunan tarixdən etibarən məktəbəhazırlıq qrupları, icma əsaslı məktəbəqədər təhsil qrupları və ibtidai təhsil səviyyəsi üzrə tədrisin sanitar-gigiyenik tələbləri nəzərə alınaraq ənənəvi formada təşkili nəzərdə tutulur. İbtidai siniflər üzrə əyani təhsilin iri şəhərlərdə, o cümlədən Bakı, Sumqayıt və Abşeronda həftədə 3 dəfə, digər bölgələrdə isə həftədə 4-5 dəfə olmaqla bərpası planlaşdırılır. Fevralın 1-dən sonrakı müddətdə isə V-IX siniflərdə təhsil alan şagirdlərin tədrisə ənənəvi qaydada cəlb olunması barədə qərar veriləcək.

Həmçinin fevralın 1-dən eyni zamanda ölkə ərazisində ictimai iaşə obyektlərində, restoran, kafe, çay evləri və bu kimi digər məkanlarda müştərilərə saat 06:00-dan 00:00-dək yerində xidmətlər də bərpa olunacaq.

Bakı Metropolitenində sərnişindaşımanın fəaliyyətinə tətbiq olunan məhdudiyyət qüvvədə qalır. Bütün ölkə ərazisində şənbə və bazar günləri ictimai nəqliyyatın fəaliyyətinə tətbiq olunan məhdudiyyət, eləcə də digər qadağalar xüsusi karantin rejiminin sonunadək tətbiq olunacaq. Virusun yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədi ilə ölkə ərazisində xüsusi karantin rejiminin müddəti 1 aprelədək uzadılıb.

## Araşdırmalar davam edir

Dünya alimləri araşdırmalarına davam edir. Yeni nəticələrə gəlinir. Şimali Arizona Universitetinin və Genomika Translyasiyası Tədqiqat İnstitununun alimləri uzunmüddətli araşdırmalardan sonra belə qənaətə gəliblər ki, insan orqanizmi koronavirusdan sağalandan sonra SARS CoV-2 virusunu "yadında saxlayır". Bu da həmin xəstəliklə mübarizədə kömək edə bilər.

Alimlər immunitet sisteminin bir neçə koronavirusa necə reaksiya verdiyini analiz ediblər. Aydınlaşdırıblar ki, koronavirusdan sağalan xəstələrdə SARS-CoV-2 virusu anticisimlərin reaksiyası ilə üzləşir. Alimlər nəticələrin koronavirus xəstələrinin diaqnostikası və müalicəsində yeni üsulların inkişafına kömək edəcəyinə inanırlar.

## Təhlükəli virusdan qorunmağın ən effektiv yolu

Yoluxma və ölüm sayının azalması hələ ki bu qlobal bəlanın sonunun yaxınlaşdığını söyləməyə əsas vermir. Koronovirusa yoluxmamaq üçün ayıq-sayıq olmaqda davam etmək, lazımi tədbirlər yerinə yetirmək zərurəti qalmaqdadır. Dövlət tərəfindən pandemiyaya qarşı mübarizə hərtərəfli davam etdirilir. Ancaq təcrübə göstərir ki, COVID-19-la mübarizə yalnız dövlətin və ayrı-ayrı adamların vəzifəsi deyil. Hər kəs həm özünün, həm də başqalarının sağlamlığını düşünməlidir. Bu sadə qaydalar - maska taxmaq, sosial məsafə saxlamaq, gigiyenik qaydalara riayət etmək vacibdir. Qeyd edək ki, Nazirlər Kabinetinin qərarına görə, xüsusi karantin rejiminin qüvvədə olduğu müddətdə ölkə üzrə bütün qapalı və açıq məkanlarda tibbi maskalardan istifadə məcburidir.

Hazırda mütəxəssislər bu təhlükəli virusdan qorunmağın ən effektiv yolunun vaksinasiya olduğunu bildirirlər. Artıq dünyanın əksər ölkələrində koronavirus əleyhinə peyvənd edilməsinə başlanılıb. Azərbaycanda da vaksinasiya prosesinə start verilib. Nazirlər Kabinetinin 16 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"nda COVID-19 infeksiyası əleyhinə vaksinasiya ilə əhatə olunan əhali qrupları sosial və tibbi cəhətdən yüksək risk qrupu olaraq ayrılır. Sosial cəhətdən yüksək risk qrupuna səhiyyə işçiləri, hüquq mühafizə orqanlarının əməkdaşları, hərbi qulluqçular, təhsil sahəsində və sosial sektorda çalışanlar, sosial müəssisələrdə daimi yaşayanlar, "ASAN xidmət", DOST mərkəzlərində, ictimai nəqliyyat sektorunda, telekommunikasiya operatorları və provayderləri, poçt sahəsində, bank sektorunda birbaşa əhali ilə təmasda olan işçilər aiddirlər.

Tibbi cəhətdən yüksək risk qrupuna yaşı 65-dən yuxarı olan, yəni yaşlı əhali, tənəffüs sisteminin xroniki xəstəlikləri, xroniki hemodializ xəstələri, II tip şəkərli diabetdən əziyyət çəkən 50 yaşdan yuxarı əhali, 18 yaşından yuxarı piylənmədən əziyyət çəkənlər aiddirlər.

Ümid edilir ki, vaksinasiya prosesi genişləndikdən sonra ölkədə vəziyyət daha da yaxşılaşacaq. İnsanların koronovirusdan qurtulması, xiffətini çəkdikləri normal həyata dönmələrinin dəqiq tarixini söyləmək isə hələ də mümkünsüz kimi görünür. Ancaq qeyd etdiyimiz kimi, həyat və insan iradəsi mütləq bütün qlobal bəlalar kimi pandemiyanın da sonunu gətirəcək.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Rusiyanın Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Xarici İşlər Nazirliyinə çağırılıb

Yanvarın 26-da Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Xarici İşlər Nazirliyinə çağırılıb. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Görüşdə Rusiya Dövlət Dumasının hakim "Vahid Rusiya" partiyasından olan üzvü Vitaliy Milonovun erməni KİV-nə müsahibəsi zamanı Azərbaycan dövlətinə və xalqına qarşı qəbuledilməz ifadələr işlətməsi məsələsi Rusiya səfirliyinin müvəqqəti işlər vəkili qarşısında qaldırılıb, Dövlət Dumasının üzvünün bu davranışı qəti şəkildə pislənilib.

Həmçinin Rusiya Dövlət Dumasının üzvü V.Milonovun Azərbaycan əleyhinə atdığı növbəti təxribatçı addımın Azərbaycan və Rusiya arasında mövcud olan yüksəksəviyyəli münasibətlərə tamamilə zidd olduğu vurğulanıb. V.Milonovun səsləndirdiyi fikirlərin Moskvanın rəsmi mövqeyini əks etdirmədiyi, bu kimi addımların ölkələr arasında münasibətlərə xələl gətirmək və əldə olunan razılaşmanın həyata keçirilməsinə əngəl törətmək məqsədi daşıdığı vurğulanıb.

# Birgə fəaliyyət nəticəsində indiyədək 340 mina və 3 partlamamış sursat aşkarlanıb



Rusiya Federasiyası Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması üzrə Nazirliyinin pirotexniklərdən ibarət qrupu Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (FHN) əməkdaşları ilə birlikdə işğaldan azad olunmuş torpaqlarımızın minalardan təmizlənməsi əməliyyatını davam etdirir.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, birgə fəaliyyət nəticəsində bugünədək ümumilikdə təqribən 9 hektardan artıq sahədə axtarış işləri aparılıb, 3 hektar sahə fərdi axtarışla tamamilə təmizlənib. Bu müddətdə 340 mina və 3 partlamamış sursat aşkarlanaraq müvafiq qaydada zərərsizləşdirilib. Minalardan 195-i piyada, 145-i isə tank əleyhinə olandır.

# Ermənistanın bütün problemləri yürütdüyü işğal siyasətinin məntiqi yekunudur

*Əvvəli 1-ci səh.*

Nəticə isə ondan ibarətdir ki, korrupsiya və rüşvətxorluğun miqyası durmadan genişlənir və bu da öz növbəsində iqtisadi tənəzzül prosesini daha da sürətləndirir. Bildirilir ki, korrupsiya və rüşvətin gömrük və vergi orqanlarında get-gedə daha dərin kök salması Ermənistan üçün ciddi təhlükə yaradır. Çünki bu hal həm dövlət büdcəsinin boş qalmasına, həm də Ermənistan kimi idxaldan asılı olan bir dövlətdə inflyasiyanın davamlı artımına səbəb olur.

"4rd.am" saytı yazır ki, Ermənistan hakimiyyəti dövlət vəsaitlərinin talanını davam etdirir. Vurğulanır ki, ölkədəki çoxsaylı sosial-iqtisadi problemlərə baxmayaraq, hakimiyyət büdcə pullarını cəmiyyətdə təəccübə səbəb olan məqsədlər üçün xərcləməyə davam edir. Belə ki, parlamentdə yaradılacaq Korrupsiyaya qarşı mübarizə komitəsinin yeni struktur büdcəsi 16 milyard dram (təxminən 8 milyon dollar) təşkil edəcək.

Bu arada Ermənistanın Vatikandakı sabiq səfiri Mikael Minasyan özünün "Facebook" səhifəsindəki son paylaşımında erməni xalqını ittiham və hətta təhqir edib. Minasyan Ermənistanın son dövrlər başına gələnlərdə erməni xalqının heç də Paşinyan hökuməti və beynəlxalq birlikdən az günahkar olmadığını yazıb: "Xalq öz ölkəsinə tüpürür. Səbəblər fərqlidir. Bir hissəsi ona görə tüpürür ki, ölkədən getməyə hazırlaşır, digər hissəsi nifrət hissindən kor olub, daha bir hissəsi ağrıdan, qeyri-müəyyənlikdən, aclıqdan və kədərdən tüpürür. Ancaq beyni olmayan xoşbəxtlər də var. Buna baxmayaraq, səbəblər fərqli olsa da, nəticə eynidir. Ölkəni parçalayırlar, hər şey verilir, düşmənlər həzz alır, qarşıdurma isə yoxdur".

Sabiq səfir qeyd edib ki, ermənilər öz ölkələrinə göstərdikləri biganə münasibətə görə, bu gün düşdükləri duruma layiqdirlər: "Xalq ölkəyə, hakimiyyət xalqa, dünya isə Ermənistana tüpürüb". Minasyan bildirib ki, müxalifət nəsə etməyə çalışsa da, xalq yerindən tərpənmədi və ona görə də müxalif siyasi qüvvələr küçələrdə xalq üçün "donmaqdan" vaz keçdi.

Ermənistanda problemlərin biri də müharibədə ordunun itkilərinin gizlədilməsi, döyüşlərdə Azərbaycan Ordusu tərəfindən məhv edilmiş hərbçilərlə bağlı doğru məlumatların verilməməsidir. Ermənistan baş nazirinin müavini Tiqran Avinyan Dağlıq Qarabağda erməni tərəfindən həlak olan 3439 hərbçinin meyitinin tapıldığını bildirib. Ümumiyyətlə, Ermənistan hakimiyyəti əmindir ki, Dağlıq Qarabağ uğrunda gedən döyüşlərdə erməni tərəfinin itkiləri dörd min nəfərdir.

Hərbi analitik Ayk Xaçikyan isə mətbuata açıqlamasında deyib ki, baş nazir müavininin müharibə zamanı həlak olanların təxminən dörd min nəfər olmasına dair bəyanatı o vaxt doğru olardı ki, hərbi itkilərin hesablanması metodologiyası təqdim olunardı. Qeyd edib ki, İkinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən həlak olanların dörd min nəfər olmasına dair məlumatlar inandırıcı görünmür, hesablama metodologiyası anlaşılmazdır: "Dağlıq Qarabağdan olan hərbi qulluqçuların, müharibədə həlak olanların və Dağlıq Qarabağda dəfn olunanların nəzərə alınıb - alınmadığı məlum deyil. Mənim müşahidələrimə görə, Ermənistan tərəfinin itkiləri altı mindən az olmamalıdır. Azərbaycan tərəfi əsas itkiləri müharibənin əvvəlində müdafiə xəttini yarmağa çalışarkən verib. Bundan sonra pilotsuz zərbə təyyarələrini daha çox ərazidə, o cümlədən artilleriyanın məhv edilməsi üçün, tətbiq etmək imkanı əldə etdi və bu da rəqibin itkilərinin sayına ciddi təsir göstərdi".

Hərbi ekspert Robert Nazaryan da vurğulayıb ki, PUA-ların tətbiqi Azərbaycan tərəfinin hərbi itkilərini azaldıb. Bildirib ki, Ermənistan baş nazirinin erməni tərəfindən dörd min nəfərin həlak olması barədə bəyanatını qiymətləndirməkdə çətinlik çəkib. Onun sözlərinə görə də, bu iddialar inandırıcı görünmür. Beləliklə, müharibə günlərində yalan informasiyalar yayan Ermənistanın müvafiq qurumları hazırda məhv edilən erməni əsgərləri ilə bağlı qeyri-dəqiq məlumatlar yaymaqda davam edirlər.

Tarixi yalanlar üzərində qurulmuş erməni xalqı indi öz ideoloqlarının təməlini qoyduğu işğal siyasətinin, saxtakarlığın acı nəticəsini yaşayır. Bu gün Ermənistanda baş verənlər, sonu görünməyən siyasi təbəddülatlar və sosial-iqtisadi tənəzzül, cəmiyyətin parçalanması məhz işğal siyasətinin məntiqi yekunudur.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Koronavirusdan 551 nəfər sağalıb, 326 nəfər isə yoluxub

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 551 nəfər müalicə olunaraq sağalıb, 326 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 229 min 358 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 221 min 116 nəfər müalicə olunaraq sağalıb, 3100 nəfər vəfat edib. Aktiv xəstə sayı 5142 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 372 min 616 test aparılıb. Dünənki test sayı isə 7807-dir.





## "Azərişıq" ASC 35/10 kV-luq "Meysəri" yarımstansiyasının SCADA sisteminə qoşulması üçün fiber-obtik kabelin çəkilməsi, Sabirabad rayonu, Qaragüney ərazisində tikilən elektrik şəbəkəsinin istismar binasında telefon və DATA sisteminin quraşdırılması işlərinin satın alınması məqsədilə

***açıq tender elan edir***

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1. 35/10 kV-luq "Meysəri" yarımstansiyasının SCADA sisteminə qoşulması üçün fiber-obtik kabelin çəkilməsi, Sabirabad rayonu, Qaragüney ərazisində tikilən elektrik şəbəkəsinin istismar binasında telefon və DATA sisteminin quraşdırılması işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Əlaqə telefonu (şəhər): 012 440-39-93 (daxili 92-19) Elektron poçt: namiq.heybetov@azerishiq.az İştirak haqqı: 400 (dörd yüz) manat

**Rekvizitlər:**
**"Azərişıq" ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: "Kapital Bank"ın Gənclik filialı**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**Kod: 200189**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əsli) (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Arayış Dövlət Statistika Komitəsi tərəfindən alınmalıdır) (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son 1 (bir) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 17.02.2021-ci il saat 16:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 25.02.2021-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 26.02.2021-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Hüquqi və digər sənədlərin yalnız əsli, əsli olmadığı halda surəti notarial qaydada təsdiq olunmalıdır (xarici iddiaçılar hüquqi sənədləri apostille etdirərək). Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



## BİLDİRİŞ

"Bakı Sığorta" ASC 28.01.2021-ci il tarixdən yeni ünvanda fəaliyyət göstərəcək.

28.01.2021-ci il tarixdən "Bakı Sığorta" ASC-nin baş ofisi Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti, 62 ünvanında, Sığorta Hadisələrinin Tənzimlənməsi xidməti isə Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Səlimov küçəsi, 15 ünvanında xidmət göstərəcəkdir.

***Rəhbərlik***



## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ Dəftərxana mallarının satın alınması ilə əlaqədar

***açıq tender elan edir***

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

Tender 1 LOT üzrə keçirilir.

**İştirak haqqı: 300,00 (üç yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu : - 4**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 29.2-ci maddəsinə əsasən tenderdə iştirak haqqı geri qaytarılmır.

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2020-ci il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) 26.01.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat Statistika Komitəsindən alınmalıdır (Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 16.02.2021-ci il saat 14:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 24.02.2021-ci il saat 14:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 25.02.2021-ci il saat 14:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ Təsərrüfat mallarının satın alınması ilə əlaqədar

***açıq tender elan edir***

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/-dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Tender 1 LOT üzrə keçirilir.

**İştirak haqqı: 200,00 (iki yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu : - 4**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 29.2-ci maddəsinə əsasən tenderdə iştirak haqqı geri qaytarılmır.

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2020-ci il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı 26.01.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir(sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat Statistika Komitəsindən alınmalıdır (Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 16.02.2021-ci il saat 14:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 24.02.2021-ci il saat 14:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 25.02.2021-ci il saat 14:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) İnsan resurslarının idarəedilməsi (HR Management) üzrə məsləhət xidmətlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

